# BAYRAMIMIZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Hikmət Hacıyev: Azərbaycanda mina qurbanlarının sayı artmaqda davam edir

**Azərbaycanda mina qurbanlarının sayı artmaqda davam edir.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyevin "X" sosial şəbəkəsindəki səhifəsindəki paylaşımda qeyd edib.

Prezidentin köməkçisi bu gün işğaldan azad edilmiş Ağdam rayonunun Sarıcalı kəndi ərazisində baş verən mina partlayışına diqqət çəkib. Paylaşımda mina qurbanlarının statistikasını əks etdirən infoqrafika da verilib.

İnfoqrafikada qeyd olunub ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycanın 341 vətəndaşı mina qurbanı olub.

Göstərilən müddət ərzində mina partlamalarından 65 nəfər ölüb, 276 nəfər isə yaralanıb.

2020-ci il noyabrın 10-dan 2023-cü il dekabrın 6-dək Azərbaycanda minalardan 50 mülki şəxs və 15 hərbçi həlak olub. Eyni zamanda 112 mülki şəxs və 164 hərbçi yaralanıb.

## Ərdoğan: "Oyunlarınızdan xəbərimiz var"



**"Meydanları əsla terror yolunda gedənlərə buraxmayacağıq".**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Sabiha Gökçen Hava Limanının yeni uçuş-enmə zolağının açılış mərasimində deyib.

Ərdoğan qeyd edib ki, heç bir əsər ərsəyə gətirə bilməyən şəxslər ölkələri üçün layihələr irəli sürən uzaqgörən dövlət xadimlərinə daim əngəl törədirlər: "Rəhmətlik Özalın layihələrini aşağılamaq üçün hansı ritorikadan istifadə edilirdisə, bizim üçün də eyni şəkildə istifadə olunur. Böhtan atdılar ki, hava limanı elə yerdə tikilib ki, orada təyyarələr enməsin. Tarix bizim haqlı olduğumuzu, onların haqsız olduğunu sübut etdi.

Regional siyasətin terrorla formalaşdığı Türkiyə indi keçmişdə qaldı. Aramızda ixtilafın yaranmasına heç vaxt icazə verməyəcəyik. Kim bizim birliyimizə, həmrəyliyimizə hücum edirsə, terror məqsədlərinə xidmət edir. Türkiyə Əsrinin qurulmasının qarşısını ala bilməyəcəksiniz. Oyunlarınızdan xəbərimiz var. Biz sizin kim olduğunuzu çox yaxşı bilirik. Sizinlə mübarizəmizi davam etdirəcəyik. Meydanları heş vaxt terror yolunda gedənlərə, Qəndildə iradəsini əclaflara təslim edənlərə buraxmayacağıq".

## Əhməd İsmayılov: "İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın əsası hesab edir"



**"İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın əsası hesab edir".**

Adalet.az xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Azərbaycan mətbuatının inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfransında deyib.

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev jurnalist peşəsinə daim hörmət göstərib, jurnalistlərdan dəstəyini əskik etməyib: "Ümummilli Liderin jurnalistlərin dostu seçilməsi onun jurnalistikaya diqqətinin məntiqi nəticəsi idi. Heydər Əliyevin siyasətini bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın əsası hesab edir". Ə.İsmayılov bildirib ki, Vətən müharibəsində əldə olunan zəfər media sahəsində dönüş yaratdı: "Vətən müharibəsindən dərhal sonra Medianın İnkişafı Agentliyinin yaradılması mühüm addımdır. Azərbaycan mediası bu gün ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayır".

## Azərbaycan Fransaya nota verdi




**Dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**

Bu barədə Adalet.az-a Xarici İşlər Nazirliyindən bildirilib.

Məlumata görə, Fransa səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunduğu Fransa səfirinin diqqətinə çatdırılıb.

"Həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib və XİN-in müvafiq notası Fransa səfirinə təqdim edilib", - deyə XİN-in məlumatında vurğulanır.

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 50 (6043) 29 dekabr 2023-cü il | Qiyməti 40 qəpik

## SİZ BİLMİRSİNİZ EY, AYAĞA DURANDA MƏNİ ÖLDÜRƏCƏK



**İki nəfər dalaşırmış, biri o birisini yerə yıxıb döyürmüş, həm də ağlayırmış. Kənardan baxanlar soruşur:**

- Qaqa, döyürsən, bəs niyə ağlayırsan?

Döyən ağlaya-ağlaya deyir:

- Siz bilmirsiniz ey, onun ayağı ilişib yıxılıb, ayağa duranda məni öldürəcək.

İndi HƏMAS da qəflətən İsrailin dövlət sərhədini keçdi, ayağı ilişib yıxılanları döydü, dinc əhalidən də öldürə bildiyini öldürdü, öldürə bilmədiklərini əsir apardı. Sonra da İsrail durdu ayağa Qəzzanı şumladı, bir milyondan çox əhalini yerindən-yurdundan didərgin saldı. 20 mindən çox fələstinlini hələ ki öldürüb, 50 mindən də çox əhalini də yaralayıb. Və İsrail tankları Qəzzanın mərkəzində cövlan eləyir.

21-di, 22-di ərəb dövləti də futbola baxırmışlar kimi tamaşa eləyir, biri də əl uzatmır.

"Erməni radiosu"nun qəribə bir anekdotu var.

Sual verirlər:

- Dünyada 3 məşhur sərkərdənin adını de. Amma demə ki, biri Baqramyan, biri Babacanyan, üçüncü hələ yoxdur.

"Erməni radiosu" deyir:

- Birincisi Kutuzovdu, Napoleonu Moskvaya buraxdı və gözlədi otuz dərəcə şaxta düşsün. Otuz dərəcə şaxta düşən kimi fransızların donanı dondu, donmayanı da birtəhər canını qurtarıb qaçdı. İkincisi Stalindi, almanları Moskvayacan buraxdı, gözlədi qırx dərəcə şaxta düşsün. Qırx dərəcə şaxta düşdü, almanların tankları, maşınları, artileriyaları dondu, o cümlədən də əsgərləri. Donmayanlar bir təhər Berlinədək qaçıb canını qurtardı. Üçüncüsü Ənvər Sadatdı, o da İsraili ərəb torpaqlarına buraxdı və gözlədi ki, əlli dərəcə şaxta düşsün, hələ də şaxta düşmür. İyirmi bir, iyirmi iki ərəb dövlətlərinin başçıları da Ənvər Sadat kimi oturub əlli dərəcə şaxtanı gözləyirlər.

Azərbaycanda belə bir məsəl var, arığın qoruqda nə işi var ki, vurub qılçını da qıralar. İndi HƏMAS-ın İsrail torpaqlarında nə işi vardı ki, qılçını yox ey, vurub gözünü çıxartdılar.

# Polis gücləndirilmiş rejimdə işləyəcək



## Peskov: "Bakı və Yerevan sülh müqaviləsini yekunlaşdırmağa hazırdır"



**"Bakı və Yerevan sülh müqaviləsini yekunlaşdırmağa hazırdır".**

Adalet.az xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Birinci Kanalın efirində bildirib.

"Onlar müharibə edən tərəflər deyil, onlar vahid sənəd əldə etməyə, sülh danışıqlarını yekunlaşdırmağa, vahid sənədə, sülh müqaviləsinə nail olmağa tam hazır olduqlarını bildirirlər. Burada heç bir risk yoxdur", - Kreml nümayəndəsi qeyd edib.Dekabrın 26-da Sankt-Peterburqda Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın şəxsən iştirak etdiyi MDB-nin qeyri-rəsmi sammiti keçirilir.

**Avropa Birliyi Ukraynaya daha 20 milyard dollar pul ayırdı ki, iki qardaş qırın bir-birinizi.**

## BU BİZİM MƏDƏNİYYƏTİMİZ, O DA FRANSIZLARIN...





**Biz Xankəndinin girişindəki məlum erməni abidəsini dağıtmadıq, amma Fransada Azərbaycanın görkəmli şairi, bir vaxtlar mədəniyyətimizin və ədəbiyyatımızın banisi, Pənah xanın nəvəsi, Xan qızı Natəvanın abidəsini özünü dünyanın ən mədəni xalqı sayan fransızlar bərbad hala saldılar və ondan sonra da abidəni sökdülər.**

**İndi dünya görsün vəhşi kimdir?**

## RUSLARIN AMERİKA POLİSİ İLƏ MƏZƏLƏNMƏSİ

***Harvardda oxuyan rus tələbələr üç dənə donuzun üstünə 1, 2, 4 yazıb buraxırlar universitetin həyatinə. Rektor zəng edir polis gəlir. Tezliklə 1-ci, 2-ci və 4-cü donuzu tuturlar, sonra başlayırlar 3-cünü axtarmağa.***

***Hələ də axtarırlar 3-cünü tapa bilmirlər.***

## NƏ BAXIRSAN YETİM-YETİM...

**Sankt-Peterburqda keçirilən sammitdə dövlət başçıları deyib-gülür, zarafatlaşır, bir-birini bağrına basırdı. Prezident İlham Əliyevin şux duruşuna baxanda adamın qəlbi sevincdən sinəsinə sığışa bilmirdi. Paşinyan isə o qədər yetim görünürdü ki, lap adamın yazığı gəlirdi.**

## BİZİMKİLƏR QIRILIB QURTARIB Kİ?

**Qədir Rüstəmovun məşhur bir sözü var. Ustad Seyran Səxavət ondan müsahibə götürərkən soruşmuşdu ki, Qədir, uşaqlara arvad tərəfinin adını qoymusan?**

Qədir Rüstəmov:

**- Niyə, bizimkilər qırılıb qurtarıb ki?**

İndi "Neftçi" komandası yenə xaricdən baş məşqçi gətirdi. Tez-tez məşqçi dəyişməkdə "Neftçi" Ginnesin "Rekordlar kitabı"na düşəcək.

Niyə xaricdən? Qədirin sözü olmasın, bizimkilər qırılıb qurtarıb ki? Allaha şükür, Azərbaycanda kifayət qədər yerli məşqçi var. Tərlan Əhmədov vaxtilə "Neftçi"ni sonuncu pillələrdən götürüb Avropa liqasına daşıdı, Samir Abbasov da çempion elədi.

Yəqin yeni məşqçi də bir altı-yeddi ay atılıb-düşəcək, sonra elə düşəcək və komanda yeni baş məşqçi axtaracaq. Və təbii ki, yenə xarici məşqçi.

Yesenin bir şeirində deyir:

***Atıb abrı-həyanı mən yaxına gələrək,***
***Qucdum ağcaqayını özgənin arvadı tək.***

Yeseninin sözü olmasın, xarici məşqçilər görəsən, AFFA üçün niyə bu qədər şirindir?

Atıb abrı-həyanı, düşüblər xarici məşqci dalınca.

## MİT-dən Suriyada əməliyyat: 50-yə yaxın hədəf vuruldu

**MİT terror təşkilatı PKK-nın Suriyanın Aynularab, Qamışlı və Amude bölgələrində məsul təşkilat ünsürləri də daxil olduğu obyektləri məhv edib, 50-yə yaxın hədəf vurulub.**

Adalet.az xəbər verir ki, Milli Kəşfiyyat Təşkilatı (MİT) ilk növbədə PKK-nın hərəkətliliyini və infrastrukturunu hədəfə alıb. PKK-nın geyimdən silaha, partlayıcıdan gündəlik məişət materiallarına qədər istifadə etdiyi bütün məhsulları Suriyadakı obyektlərində istehsal etdiyi müəyyən edilib.

Bunun üzərinə MİT-in sahə agentləri hərəkətə keçərək Suriyanın Qamışlı, Amude və Ayn Əl Ərəb bölgələrində PKK-nın hərbi, iqtisadi və logistika obyektlərinin mülki görünüşdə fəaliyyət göstərdiyini müəyyən ediblər. Bütün obyektlərin yerləşmə məlumatları mərkəzə ötürülüb.

Təşkilatla bağlı strategiya müəyyənləşdirildikdən və hazırlıqlar tamamlandıqdan sonra əməliyyata başlanılıb.

Əməliyyat zamanı təşkilata məxsus bütün hədəflənmiş infrastruktur obyektləri dəqiqliklə məhv edilib, 50-yə yaxın hədəf vurulub.

## PAŞİNYAN NOBEL MÜKAFATI ALA BİLƏR



**Ermənistanın baş naziri Paşinyanın erməni xalqının qarşısında Qarabağ müharibəsini uduzmasına baxmayaraq, xidmətləri var. Ona görə də Parlament seçkilərində yenidən qalib gələ bildi. Xidmətlərindən biri budur ki, Ermənistanı Qarabağ klanından, Köçəryan-Sərkisyan-Ohanyan klanından canını qurtardı.**

Mütəxəssislərin hesablamalarına görə, Ermənistan Qarabağdakı mühəndis-istehkam qurğularına, yeraltı tunellərə, silah-sursata indiyədək 30 milyard dollar pul xərcləyib. Bu isə Ermənistanın 10 illik dövlət büdcəsi həcmindədir. Təbii ki, bu pulun hamısı Ermənistandan çıxmayıb, xarici havadarlarından da aldığı yardımlar hesabına olub. İndi erməni xalqının Qarabağ dərdi də yoxdur. Daha erməni gəncləri başqa bir ölkənin torpaqlarında həlak olmayacaq və bu gənclərin anaları gözüyaşlı qalmayacaq. Əgər indi Paşinyan Azərbaycanla sülh müqaviləsi bağlasa, kommunikasiya xətləri bərpa olunsa və Türkiyə ilə də sərhədlər açılarsa güman ki, Nobel sülh mükafatına sahib ola bilər. Onsuz da əvvəl-axır Fransanın yuxaqulağı sulamasına baxmayaraq, Ermənistan qüdrətli Azərbaycan dövlətinin qarşısında dura bilməyib sülh müqaviləsi bağlayacaq. Amma əgər indi bu müqaviləni bağlayarsa, tarixə Nobel mükafatçısı laureatı kimi heç olmasa adını yazdıra bilər.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## FƏXRƏDDİN MANAFOV MƏNDƏN NİYƏ KÜSDÜ?



*Ayın 20-də Xalq artisti Fəxrəddin Manafov, Mətbuat Şurasının sədri Rəşad Məcid və bəndəniz "Qarabağ" və "MOİK" komandası ilə birlikdə təyyarə ilə uçduq Füzuliyə. İlk dəfəydi təyyarə ilə Füzuliyə uçurdum. Təyyarəyə minəndə adətən həmişə qorxuram, amma bu dəfə qorxmadım, deyə-gülə, zarafatlaşa-zarafatlaşa bir də gözümüzü açdıq ki, yendik Füzuli aeroportuna. Ordan da avtobuslara əyləşib Qırmızı bazar yolu ilə qalxdıq Şuşaya.*

*Şəhərdə "Şuşa" adlı möhtəşəm yeni bir otel tikiblər. Heç bir Avropa otellərindən geri qalmaz. Şey-şüyümüzü otaqlara qoyandan sonra üç muşketyor düşdük Şuşanı gəzməyə. Şuşaya hər dəfə gələndə gözüm birinci yeni tikintiləri axtarır. Şəhər palıd ağacı kimi, çinar kimi bitir. Və şəhər elə sürətlə tikilir ki, heç Sovet hökuməti BAM-ı belə sürətlə tikə bilməmişdi. Hava da günəşli idi, Şuşanın havasını ləzzətlə ciyərlərimizə çəkirdik.*

Bax:səh-2

## AFTAFA GƏZDİRƏN TROLLAR

**Bir nəfər özündən müştəbehi gətiriblər qoyurlar məscidin önünə, deyirlər ki, sən aftafalara nəzarət elə.**

Kim gəlib bir aftafa götürmək istəyəndə yekə-yekə deyir:

- O aftafanı yox, o birisini götür.

Kənardan izləyən adam görür ki, aftafa götürənlərin hamısına əmr edir, yaxınlaşıb soruşur:

- Ay qardaş, aftafaların nə fərqi var ki, hamıya bunu yox, o birisini götür deyirsən.

Özündən müştəbeh adam:

- Bəs, məni bura niyə qoyublar?

İndi bizdə də aftafa gəzdirənlər özlərini vacib adam sayırlar.

Bu trollara da aiddir.

## GÜNÜN LƏTİFƏSİ

### *TƏKRAR ANEKDOT*
### *BİLİYİN BAYYISI OĞLUDU*

İngilis, fransız, fars və türk oturub hər biri öz xalqının matahından danışır. İngilis fəxrlə deyir:

**- Bizdə şotland viskisi var.**

Fransız:

**- Dünyada ən gözəl qızlar fransızlardı.**

Fars:

**- Bizim xalıların dünyada tayı-bərabəri yoxdu.**

Sonra üzlərini tuturlar türkə:

- Bəs, sizin nəyiniz var?

Türk:

- Bizim də şotland viskisindən vurub, İran xalılarının üstündə fransız qızlarıyla kef eləyən igidlərimiz var.

# Prezident fərman imzaladı



**Prezident İlham Əliyev ”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə fərman imzalayıb.**

Trend xəbər verir ki, fərmanda deyilir:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinin ikinci və üçüncü cümlələrində, 15.1.15-4-cü, 16.1.11-13-cü (hər iki halda) maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 85.11-ci maddəsinin birinci və dördüncü cümlələrində, 102.1.14.33-cü, 111.4-cü, 119.2-ci, 164.1.19-cu, 164.1.19-1-ci, 164.1.25-ci, 164.1.31-ci, 164.1.51-ci, 164.1.62-ci maddələrində və 175.13-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 164.1.51-ci maddəsində ”orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 13.2.82-ci maddəsinin ikinci cümləsində, 15.1.15-4-cü, 16.1.11-13-cü (birinci halda) maddələrində, 85.6.2-ci maddəsinin ikinci cümləsində, 102.1.14.33-cü, 111.4-cü, 119.2-ci, 164.1.25-ci və 164.1.31-ci maddələrində ”orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 175.13-cü maddəsinin ikinci cümləsində ”orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 13.2.82-ci maddəsinin üçüncü cümləsində, 16.1.11-13-cü (ikinci halda) maddəsində və 85.11-ci maddəsinin birinci və dördüncü cümlələrində ”orqan (qurum)” dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 164.1.19-cu maddəsində ”orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 164.1.19-1-ci maddəsində ”orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 164.1.62-ci maddəsində ”orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. fiziki şəxslərin binalara görə ödəməli olduğu əmlak vergisinin ödənilməsi mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması qaydasını və şərtlərini;

2.2.2. həmin Məcəllənin 15.1.15-4-cü maddəsinə uyğun olaraq, vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi qaydasını;

2.2.3. həmin Məcəllənin 16.1.11-13-cü maddəsinə uyğun olaraq, taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməli olan aylıq məlumatların siyahısını;

2.2.4. həmin Məcəllənin 85.6.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydasını;

2.2.5. həmin Məcəllənin 102.1.14.33-cü maddəsinə uyğun olaraq, dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının məbləğini;

2.2.6. həmin Məcəllənin 111.4-cü maddəsinə uyğun olaraq, müflis elan olunmuş bankların vergitutma məqsədləri üçün xüsusi ehtiyatlarının yaradılması qaydasını;

2.2.7. həmin Məcəllənin 119.2-ci maddəsinə uyğun olaraq, nümayəndəlik xərclərinin, işçilərin mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin gəlirdən çıxılması normaları və qaydasını;

2.2.8. həmin Məcəllənin 164.1.25-ci maddəsinə uyğun olaraq, idxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin siyahısını;

2.2.9. həmin Məcəllənin 164.1.31-ci maddəsinə uyğun olaraq, idxalı və satışı əlavə dəyər vergisindən azad edilən mineral gübrələrin və pestisidlərin siyahısını;

2.3. ”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

# Bir qrup vəkil “Tərəqqi” medalı ilə təltif edildi

**Prezident İlham Əliyev bir qrup vəkilin ”Tərəqqi” medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncam əsasən, Azərbaycan Respublikasında vəkilliyin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər ”Tərəqqi” medalı ilə təltif ediliblər:

**Hüseynov Əli Meybulla oğlu**
**Hüseynov Turqay İmanqulu oğlu**
**Hüseynova Esmira Hüseyn qızı**
**Qasımov Telman Abiəli oğlu**
**Quliyev Azər Şahbala oğlu**
**Məmmədova Leyla Polad qızı**
**Mustafayev Muxtar Nağı oğlu**
**Nəhmətov Fazil İldır oğlu**
**Rəsulov Arif Əmrulla oğlu**
**Rüstəmova Natəvan Famil qızı**
**Usub Elçin Arif oğlu.**

# Vilayət Eyvazov əməliyyat müşavirəsi keçirdi

**Daxili İşlər Nazirliyində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında əhalinin təhlükəsizliyinin təminatına dair onlayn formatda əməliyyat müşavirəsi keçirilib.**

Adalet.az DİN-ə istinadən xəbər verir ki, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov əməliyyat müşavirəsində asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhükəsizliklə bağlı qarşıda duran vəzifələri və tapşırıqları diqqətə çatdırıb.

Nazir bayram günlərində daxili işlər orqanlarının şəxsi heyətinin gücləndirilmiş rejimdə xidmət edəcəyini, əhalidən daxil olan bütün çağırışlara dərhal və çevik reaksiya verilməsinin, naryad qruplarının fəaliyyətinin fasiləsizliyi, əhalinin narahatlığına səbəb ola biləcək halların aradan qaldırılmasının, hərəkətin intensiv olacağı küçə və prospektlərdə, magistral yollarda xidmətin nümunəvi təşkilinin vacibliyini diqqətə çatdırıb.



Əməliyyat müşavirəsində 2024-cü il fevralın 7-nə təyin olunan növbədənkənar Prezident seçkiləri ilə bağlı vətəndaşların seçki hüququnun təmin olunması məsələləri də müzakirə edilib. Nazir V.Eyvazov seçki gününədək şəxsiyyət vəsiqəsinin etibarlılıq müddəti bitən, habelə 18 yaşı tamam olan vətəndaşların yeni sənədlərlə təmin olunması, eləcə də vətəndaşların yaşayış yeri üzrə qanunamüvafiq olaraq qeydiyyata alınmaları ilə bağlı zəruri tədbirlərin görülməsinə dair göstərişlər verib.

**Müşavirədə iştirak edən daxili işlər orqanlarının rəhbər heyətindən respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində fəaliyyət nəzarətdə saxlanılmaqla, qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi tələb edilib.**

# Ceyhun Bayramov: "Sülh müqaviləsi hər şeyin 100 faiz həlli demək deyil"



**”Sülh müqaviləsi hər şeyin 100 faiz həlli demək deyil”. Adalet.az xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ”AzTV”yə müsahibəsində bildirib.**

Onun sözlərinə görə, sülh müqaviləsi ilə bağlı bütün əhəmiyyətli təşəbbüslərin müəllifi məhz Azərbaycandır.

”Proses bir tərəfin istəyindən, arzusundan asılı deyil. Burada hər iki tərəfin müvafiq addımlar atması önəmlidir. Azərbaycanın suverenliyi tam bərpa olunduqdan sonra biz Ermənistan siyasi rəhbərliyi tərəfindən səslənən ismarışları diqqətlə izləyirik. Müəyyən pozitiv ismarışları da eşidirik. Ancaq pozitiv sözlərin və ismarışların verilməsi önəmli olsa da, onların real işlərə transformasiya edilməsi daha önəmli məqamdır”.

Nazir bildirib ki, rəsmi Bakı cari ilin noyabr ayının sonunda İrəvandan sülh müqaviləsi üzrə növbəti təkliflər paketini alıb:

”Bir ay ərzində tərəfimizdən işlənmiş təkliflər paketi Ermənistana təqdim olunub. Proses davam edir. Düşünürəm ki, 2024-cü ildə görüşlər keçiriləcək. Biz bu məsələyə real və nikbin baxırıq. Eyni zamanda biz sülh müqaviləsi barədə danışarkən başa düşməliyik ki, bu, hər şeyin 100 faiz həlli demək deyil. Bu, ölkələr arasında münasibətlərin inkişaf etdirilməsinin əsasını qoya bilər.

Bir günün içərisində Azərbaycan-Ermənistan münasibətləri, Azərbaycan-Gürcüstan münasibətləri səviyyəsinə qədər yüksələ bilməz. Ancaq ən azından normal qonşuluq münasibətlərinin əsasının qoyulması və iki ölkə arasında açıq münasibətlərin həllinin prinsiplərini müəyyənləşdirən bir saziş ola bilər və olmalıdır”.

# ABŞ vətəndaşları prezident seçkilərindən narazıdırlar




**ABŞ-da, prezident seçkilərinin təqdim olunması prossesində ədalətliyin qorunması və prezidentin seçilməsi prossesinə şübhə ilə yanaşan vətındaşların sayı artmaqdadır.**

Bu barədə məlumat verən Associated Press agentliyi yazır ki, ”ABŞ-ın yaşlı əhalisinin 46 faizi bildirir ki, ölkə liderinin seçilməsi prossesinə pessimust yanaşırlar”.

Bundan başqa, Respublikaçılar partiyası tərəfdaşlarının üçdə biri və bitərəf seçicilərin 45 faizdən çoxu bu partiyanın inkişafında yalnlş yol tutduqlarlnı bildirirlər. Demokratlar partiyasının tərəfdaşları da analoji fikirdədilər. Demokratların da dördə biri və bitərəflərin 41 faizi onların fəaliyyətindən narazıdırlar.

Aparılan sorğular göstərir ki, hər iki partiyanın irəli sürdükləri namizədlərdən ehtiyat edənlərin sayı getdikcə artmaqdadır. Həm demokratlar, həm də respublikaçılar irəli sürdükləri namizədlərin seçkilərdə qalib gələ biləcəklərinə inanmırlar.

Agentliyin daha əvvəl apardığı araşdırmalardan da görünür ki, amerkanlar hesab edirlər ki, ABŞ -da demokratik institutlar işləmir. Sorğularda iştirak edənlərin 51 faizi məhz demokratik institutların fəaliyyətindən narazılıqlarını bildiriblər.

”Demokratiyanın beşiyində” yaşayanlar bu ölkənin idarə olunmasından narazıdırlarsa, görün qalan dünya bu ”idarəçilikdən” nələr çəkir.

**Rüstəm Hacıyev**

# Deputat: “Mədəniyyət Nazirliyinə ssenari vermişdim, mənasını başa düşmədilər”



**”Tariximiz, mədəniyyətimiz, bizim üçün unudulan bəzi yalançı konsepsiyalara yenidən baxmaq lazımdır”.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Sabir Rüstəmxanlı deyib. O bildirib ki, bu məsələlərə yalnız şifahi formada yox, ciddi addımlar atılmalı, bədii filmlər çəkilməlidir:

”Difai hərəkatı barədə filmin çəkilməsi üçün təxminən 12 il əvvəl Mədəniyyət Nazirliyinə ssenari vermişdim. Deyəsən heç bunun mənasını da başa düşmədilər. Bilmədilər ki, difai nədir, fədai nədir və bu kimi film kimə lazımdır?!”.

# “Yusif Vəzir Çəmənzəminlinin nəşi Azərbaycana gətirilsin”

**”Yusif Vəzir Çəmənzəminli Şuşada anadan olub. Azərbaycan Xalq CümhuriyyətininTürkiyədə ilk səfiri olub. Bir sıra müdhiş romanların müəllifidir, gözəl esseləri var”.**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Fazil Mustafa deyib. Deputat bildirib ki, Çəmənzəminli məzarı Rusiya ərazisində dəfn olunub:

”Onun məzarının yeri təqribən bəllidir. İndi Rusiya ilə münasibətlərimiz normaldır, müstəqil dövlətik. Onun nəşini gətirib Şuşada dəfn etmək olar. Biz Qarabağa yalnız insanları deyil, həm də bizim tariximizdə rol alan, müstəqilliyimiz uğrunda savaşmış insanların ruhlarını qaytarmaq barədə düşnməliyik. Yusif Vəzir Çəmənzəminli kimi böyük şəxsiyyətin nəşinin Azərbaycana qaytarılmasını xahiş edərdim”.

# Tural Gəncəliyev: ”Fransa axırıncı ölkədir ki, Azərbaycana dərs keçsin”



**Ermənistanı yenidən silahlandıranlar revanşist qüvvələri alovlandırmaq məqsədi güdürlər, amma buna nail ola bilməyəcəklər.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin deputatı Tural Gəncəliyev parlamentin plenar iclasda çıxışı zamanı deyib.

O bildirib ki, bu günlərdə mətbuatda yayılan məlumata görə, Fransanın Evian-le Ba şəhərində yerləşən parkda Xurşudbanu Natəvanın irsinə qarşı təhqiramiz hərəkətlərin edildiyi məlumatları yayılır, orada olan yazıların silinməsi ilə bağlı məlumatlar var:

”Təəssüf edirik ki, vaxtilə Ermənistandan manipulyasiya aləti kimi istifadə edən, sonradan xunta rejiminin əli ilə Qarabağda xaos yaratmaq istəyən Fransa indi Azərbaycan mədəniyyətinə qarşı, Qarabağın, mədəniyyətimizin simvolu olan Xurşudbanu Natəvana qarşı belə hərəkətlərə yol verir. İroniya ondan ibarətdir ki, dünyada mədəni və qeyri-mədəni irsin qorunmasına məhsul olan YUNESKO təşkilatına ev sahibliyini Fransa edir. Bu da çox təəssüfedici haldır. Ümumiyyətlə, Fransanın irticaçı siyasətini ifşa edən, ona qarşı rıçaqlarımızı da işə salmalıyıq. Fransa axırıncı ölkədir ki, insan hüquqları, mədəni irslə bağlı Azərbaycana və dünyanın digər ölkələrinə dərs keçsin”.

**Nicat**

# Ekspert: ”O ərazilərdə xoşagəlməz halların baş verməsi qaçılmazdır”

**Xəbər verdiyimiz kimi ”Dəmiryol nəqliyyatının yüksək təhlükəli zonalarında vətəndaşların olması, obyektlərin yerləşdirilməsi və işlərin aparılması Qaydaları” təsdiq edilib.**

Nazirlər Kabinetinin qərarına əsasən qaydalar ümumi istifadəli və qeyri-ümumi istifadəli dəmir yollarında, dəmiryol stansiyalarında, sərnişin platformalarında, dəmiryol hərəkət tərkiblərində, həmçinin dəmiryol nəqliyyatının qatarların hərəkəti və manevr işləri ilə əlaqəli olan digər obyektlərində vətəndaşların olması, obyektlərin yerləşdirilməsi və işlərin aparılması qaydalarını müəyyən edir, fiziki şəxslərə, o cümlədən dəmiryol nəqliyyatı xidmətlərindən istifadə edən sərnişinlərə, habelə fəaliyyətləri dəmiryol nəqliyyatının yüksək təhlükəli zonalarında obyektlərin yerləşdirilməsi və işlərin aparılması ilə əlaqəli olan fərdi sahibkarlara və hüquqi şəxslərə aid edilir. Qaydalarda nəzərdə tutulmuş tələblər dəmiryol



nəqliyyatı infrastrukturu obyektlərində, ”Azərbaycan Dəmir Yolları” QSC-nin portalında, bnunla yanaşı, məqsədəuyğun olan başqa əlçatan və oxunması mümkün olan məkanlarda yazılır.

Nəqliyyat eksperti Aslan Əsədov mövzu ilə bağlı Adalet.az-a danışıb.

Ekspert bildirib ki, mühafizə olunmayan ərazilərdə xoşagəlməz halların baş verməsi qaçılmazdır: ”Hansı ərazilərdən yerüstü qatarlar keçirsə, orda vətəndaşların gediş-gəlişi üçün yerüstü keçidlər tikilməlidir . Dəmir yollarında piyada keçidlərinin salınması daha az vəsait tələb edir. Müvafiq infrastruktur yaradılarsa, insanların təhlükəsizliyi də təmin olunar. Dəmir yollarının kənarları haşiyəyə alınıb, xüsusi dəmir yolları əraziləri müəyyən edilib, insanların keçidi mümkün deyil. Bununla bağlı qeyd edək ki, Bakı-Sumqayıt istiqamətində stansiyalarda da təhlükəsizlik tədbirləri görülüb. Amma açıq və az istifadə olunan dəmiryolu xətlərinin əraziləri və yaşayış ərazisinin daxilindən keçən naqillər ciddi təhlükəyə yarada bilər.

**Əntiqə Kərimzadə**

# Yaxın Şərqdə münaqişənin miqyası genişlənir

**”Bloomberg” yazır ki, ABŞ-ın İraqda mövqeləri bombalaması, hüsi qiyamçılarının Qırmızı dənizdə gəmilərə hücum etməsi, Yaxın Şərqdə münaqişə miqyasının genişləndirilməsindən xəbər verir.**

”Aydın görünür ki, İsrallə HƏMAS arasında müharibə bu intensivliklə davam etdikcə, regionda eskalasiyanın artacağı daha aydın müşahidə olunacaqdır”- deyə ABŞ-ın keçmiş vəzifəli şəxsi Aaron Devid Miller bildirib.

Qeyd olunur ki, artmaqda olan qeyri dövlət hərbi qruplaşmalarının, İsrailin hərbi əməliyyatlarının qeyri müəyyənliyi, həmçinin İranın potensial cavab vermək imkanlarının nəzərə alınması faktları, münaqişının daha da genişlənməsi zamanını proqnozlaşdırmaqda çətinlik yaradır. Dünyaya ”sülh və əminamanlıq” gətirən Birləşmiş Ştatlar isə, İraqda ”Kataib Hizbullah” qruplaşmasının daha üç obyektinə raket zərbələri endirib. ABŞ müdafiə nazirliyindən bildirilib ki, raket zərbələri dünyada ”sülhün carçısı” olmaq iddiasında olan prezident Co Baydenin əmriylə həyata keçirilib.

**Rüstəm Hacıyev**

*Aqil ABBAS*

# FƏXRƏDDİN MANAFOV MƏNDƏN NİYƏ KÜSDÜ?

*Ayın 20-də Xalq artisti Fəxrəddin Manafov, Mətbuat Şurasının sədri Rəşad Məcid və bəndəniz "Qarabağ" və "MOİK" komandası ilə birlikdə təyyarə ilə uçduq Füzuliyə. İlk dəfəydi təyyarə ilə Füzuliyə uçurdum. Təyyarəyə minəndə adətən həmişə qorxuram, amma bu dəfə qorxmadım, deyə-gülə, zarafatlaşa-zarafatlaşa bir də gözümüzü açdıq ki, yendik Füzuli aeroportuna. Ordan da avtobuslara əyləşib Qırmızı bazar yolu ilə qalxdıq Şuşaya.*

*Şəhərdə "Şuşa" adlı möhtəşəm yeni bir otel tikiblər. Heç bir Avropa otellərindən geri qalmaz. Şey-şüyümüzü otaqlara qoyandan sonra üç muşketyor düşdük Şuşanı gəzməyə. Şuşaya hər dəfə gələndə gözüm birinci yeni tikintiləri axtarır. Şəhər palıd ağacı kimi, çinar kimi bitir. Və şəhər elə sürətlə tikilir ki, heç Sovet hökuməti BAM-ı belə sürətlə tikə bilməmişdi. Hava da günəşli idi, Şuşanın havasını ləzzətlə ciyərlərimizə çəkirdik.*

*Fəxrəddin Xankəndində doğulub, Həsənabad kəndində. 14 yaşında Bakıya köçüblər. Sonra isə yaydan-yaya, tətildən-tətilə Həsənabada qohumlarını görməyə, Şuşanı gəzməyə gəlirmiş. Elə həyəcanlı idi ki… Fəxrəddini gəzmək yox, şəkil çəkdirmək yordu. Kim görürdü, onunla şəkil çəkdirmək istəyirdi, heç kəsə də "yox" deyə bilmirdi.*



*Gecə heç kim yatmaq istəmirdi, hətta futbolçular da rejimi pozurdular. Əslində sabah Xankəndində futbol deyildi, bayram idi, futbolun bayramı idi.*

*Möhtərəm Prezident oyundan əvvəl çıxışında da elə belə dedi:*

*- Bu gün qalib Azərbaycan xalqıdır, Azərbaycan ordusudur!*

*Stadiona beş-altı mindən çox adam yığışmışdı. Bakıdan, Ağdamdan, Füzulidən də azarkeşlər gəlmişdi. Əslində hamı, elə mən də futbola baxmağa gəlməmişdik, Xankəndini görməyə gəlmişdik və gördük.*




*Xankəndi əvvəlki Xankəndidi, bir az Ağdamdakı evlərdən söküb apardıqları daşlardan yeni binalar tikiblər.*

*Stadion çox qısa müddətdə təmir-bərpa edilib. Bir əsas odur ki, şəhər müqəddəs bayraqlarımızla alışıb yanırdı.*

*Bu stadionda əvvəllər də bir-iki dəfə olmuşdum. Onda indiki "Qarabağ"ın adı "Şəfəq" Ağdam idi. SSRİ-ni regionlara bölüb futbol çempionatı keçirirdilər. Azərbaycanı da iki-üç komanda təmsil edirdi, onlardan biri "Şəfəq" komandası, biri də Xankəndinin "Qarabağ"ı. "Şəfəq"in Xankəndində "Qarabağ"la oyununa Ağdamdan beş-altı min azarkeş gəlirdi. Xankəndindəki azərbaycanlılar da qoşulurdu bizə, ermənilər qorxusundan heç stadiona da girmirdi. Yadımdadır, axırıncı oyunda 1:0 biz udduq. Sonra "Şəfəq"in futbolçusu, kapitanı və nəhayət, prezidenti olan Adil Nadirovun gərgin mübarizəsindən sonra Ağdam klubu adını dəyişib "Qarabağ" elədi 1987-ci ildə.*







*Ermənilər işğal elədikləri ərazilərdə bir daşı daş üstə qoymayıblar. Biz də istəsəydik Xankəndini şumlaya bilərdik, amma etmədik. Biz dinc əhali ilə savaşmırdıq, həm də bu şəhər bizimkidi, niyə dağıdaq ki? Qısası, biz erməni deyilik.*

*Oyundan sonra yenidən doluşduq avtobuslara, gəldiyimiz yolla üzü güləbədinə- Füzuli aeroportuna. Çox yüngül geyindiyimdən bərk üşümüşdüm. Qəzetimizin əməkdaşı Nicat Rüstəmov maşınla gəlib məni aeroportda gözləyirdi. Avtobusdan düşən kimi özümü saldım maşına. Necə üşümüşdümsə Fəxrəddinlə xudahafizləşə bilmədim.*




*- NİcatI, maşının peçinə bir-iki odun at.*

*Sonra yeni tikilən Füzuli şəhərini bir az gəzdik, tikilən evləri, Füzuliyə qayıdan köçkünləri görəndə ürəyim açıldı, üşüməyim də keçdi. Üz tutduq Ağcabədi və Ağdama.*

*Rəşad Məcid zəng edib dedi ki, Fəxrəddinin bərk xətrinə dəymisən, səndən küsüb ki, niyə onunla xudahafizləşməmisən.*

*Mən də dedim ki, kaş belə şeyin üstündə küssün Fəxrəddən məndən. Bir yaxşı qonaqlıq verərəm barışarıq.*

*Mənə ad günümdə müxtəlif hədiyyələr bağışlayırlar, onları bir xatirə kimi saxlayıram. O hədiyyələrin içinə iki hədiyyə də daxil oldu. Saxlayacam, məndən sonra da nəvələrim saxlayacaq o hədiyyələri. Bu hədiyyə çox qiymətli hədiyyədir, bu hədiyyəni təkcə mənə yox, bütün Xankəndinə gələnlərə Cənab Prezident İlham Əliyev bağışlamışdı. Bu Xankəndindəki ilk futbol oyununun bileti idi.*



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Qazi adından....

**İşğal olunmuş torpaqlarımızın ermənilərdən azad edilməsində şəhidlərimizin və qazilərimizin əvəzsiz xidmətləri var! Onlar 200 ildən sonra yeni bir möhtəşəm tarix yazdılar.**

**Bunu heç kim dana bilməz. Hətta dansalar belə hər şeyə tarix şahiddir! Və bizim hamımızın onlara borcu var! Təəssüf ki, bir çox dələduzlar qazilərin adından istifadə edir, müxtəlif oyunlardan çıxırlar. Bunun da üstü gec-tez açılır. Araşdırandan sonra məlum olur ki, həmin adam heç qazi deyilmiş, nə bilim dələduzun biriymiş. Amma elə dil-dil ötür ki, məəttəl qalırsan ki, bu kimdi?!**

**Bəzi hallarda elə qazi olur ki, qanuna məhəl qoymur, dövlət və hökumət nümayəndələrinə qarşı hörmətsizlik edir. "Mən qaziyəm"- deyib qanunsuz işi həyata keçirmək üçün özünü yandırmaq, lezva ilə doğramaq istəyir. Bu isə cəmiyyət tərəfindən normal qarşılanmır.**

**Çünki heç kimə haqq verilmir ki, qununu tapdasın. Ona görə də kimliyindən asılı olmayaraq qazi adından sui-istifadə etməməli, qanunlara hörmətlə yanaşılmalıdır.**

**Qanuna hörmət etmək hamının borcudur!!!**

# Psixoloq: "O bölgələrdə 18 yaşlı qızlara "evdəqalmış" deyirlər"

*Son zamanlar ölkədə boşanmaların statistik nəticələri heç də ürəkaçan deyil. Əlbəttə, ailə mövzusu cəmiyyətdə mühüm məsələdir. Bütöv bir sağlam cəmiyyətin formalaşması üçün möhkəm təməlli ailələr olmalıdır. Nəticə etibarilə bu möhkəm təməlli ailələrin azaldığına şahid oluruq. Biz də müsahibimiz psixoloq Məlahət Həsənova ilə gündəmi zəbt edən məsələdən yan keçmədik.*

**- Son zamanlar eşitdiyimiz acı xəbərlərdən biri də Azərbaycanda boşanmaların statistik nəticəsidir. Boşanmaların sayının artmasının səbəbi nədir?**

-Bu problemlərin kökü ailə dəyərlərinin yavaş- yavaş itməsidir. Reallıq budur ki, ailə dəyərləri əvvəlki kimi qorunub- saxlanılmır. Əvvəllər sərt bir fikir var idi: "Bu evdən gəlinliklə çıxdınsa, kəfənlə qayıdacaqsan". Bu kimi fikirlər hardasa bizim məsuliyyətimizi artırırdı. Mən demirəm ki, qadınlar hər cür təcavüzə, zorakılığa göz yumsunlar. Xeyr. Bu əsla belə deyil. Əvvəllər bu ifadəyə fikir vermirdim. Ancaq zaman keçdikcə anladım ki, bir çox məqamlarda analar o ifadəni qızlarına işlətməlidir. Bizim mental dəyərlərdə qadın getdiyi evdə hər kəslə yola getməlidir. Oğlanın ailəsini və qohumlarını xoş niyyətlə qarşılamalıdır. Əvvəllər ailələrin bir çoxu çoxuşaqlı ailə idi. Əgər ailədə 4-5 qız varsa, onlar bir- birlərinin paltarları ilə böyüyərdi. Bu addımın özü güzəşt etmək deməkdir. Yəni uşaqlar balaca vaxtdan güzəştə getməyi, bölüşməyi öyrənirdilər. Ancaq indi müasir dövrdə yaşayırıq. Nə çoxuşaqlı ailələr var, nə də bir- birlərinin paltarları ilə böyüyən qızlar. Təbii ki, istisnalar var. Bu qaçılmazdır. Lakin istisnalar qaydaları pozmur.



**- Təəssüf ki, ölkəmizdə hələ də erkən nikah problemi var. Bunun qarşısını almaq üçün hansı tədbirlər görülməlidir?**

-Çox təəssüf ki, hələ də bu mövzu aktualdır. Oğlan anaları 30 yaşlı oğluna məktəbli qız almaq istəyir. Bir sözlə oğlan ailələri oğlanla qızın arasındakı münasibətdən çox yaş fərqinə fikir verirlər. Bu hal çoxluq təşkil edir.Bu kimi hallar daha çox rayon və əyalətlərdə baş verir. Daha çox Gürcüstan azərbaycanlıları və cənub bölgəsində erkən nigaha meyillilik var. O bölgələrdə 18 yaşlı qızlara "evdəqalmış" deyirlər. Bunun da səbəbi odur ki, onlar qızların təhsilli olmasını, dünyagörüşlərinin artmasını istəmirlər. Bir sözlə onların cəmiyyətdə xüsusi bir yer tutmasına icazə verilmir. Bu halların qarşısını almaq üçün ciddi tədbirlər görülməlidir. Hələ illər əvvəl bir qız 16 yaşında uşaq dünyaya gətirir, nigahı olmadığı üçün sənədləri gizli yazılırdı. Bunun real şahidi mənəm.

Erkən nigahların baş tutmasında valideynlərdən əlavə həm də qızların rolu var. Elə qızlar var ki, 15- 16 yaşında oğlanla qaçır. Və qeyri-rəsmi yaşayırlar. Ata- ana isə "özü gedib" fikri ilə məsələni bağlayırlar.

**- Xüsusən, rayon və əyalətlərdə qızlara kitab almaq əvəzinə cehiz alırlar. Yalnız maarifəndirməklə bu problemi aradan qaldırmaq olar, yoxsa praktik tədbirlər də görülməlidir?**

-Düşünürəm ki, bu, birbaşa qızların özlərindən aslıdır. Valideyn qızının erkən nigaha meyilli olmasını görən kimi, sanki sevincli halda cehiz yığmağa başlayır. Qızlar var ki, kitab oxumaq əvəzinə sosial şəbəkədə digər işlərlə məşğul olurlar. Bundan xəbər tutan qız anası istər- istəməz narahat olur. Və qızını tez ərə verməyə can atır. Gənc qızların vaxtından əvvəl "ayılmasında" şou-proqramların və serialların da rolu böyükdür.

**- Bir çox qızların təhsil ala bilməməsinə səbəb həm də həmin ailənin maddi durumudur...**

-Bilirsiniz, belə bir qanun yoxdur ki, hər kəs ali təhsilli olmalıdır. Düşünürəm ki, hamı uşağına görə davranmalıdır. Əgər uşağın oxumaq həvəsi varsa və həm də sənin maddi durumun buna imkan verirsə, nə gözəl. Uşaq təhsil alsın. Yox əgər saydıqlarımın heç biri yoxdursa, nə uşağı incitmək, nə də özünü yormaq düzgün deyil. Bir övladın ödənişsiz təhsil alacaq qədər biliyi yoxdursa, imkanlı valideynlərlə bəhsə girib uşağı məşğələyə göndərmək olmaz.

**- Evlilikdən sonra qadınların bir çoxunda ciddi psixoloji dəyişikliklər baş verir. Bunun səbəbi nədir?**

-Ciddi psixoloji dəyişikliyin ilkin səbəbi ailə quran gənc qızın öz evlərindən başqa evə köçməsidir. Evliliyə psixoloji cəhətdən hazır olmur. Birdən- birə ailə dəyişir, həmin dəyişikliyi asanlıqla qəbul edə bilmir. Ən çox belə problemlər böyük ailəyə gəlin köçən qızlarda baş verir.

Təəssüf ki, bəzi qaynanalar gəlini evin sakini yox, qulluqçusu kimi görürlər. Onlar düşünürlər ki, kiminsə 18-19 yaşlı uşağı gəlib mənim evimi silib- süpürsün, yuyub- təmizləsin mən də gedim gəzməyə. Bu düşüncə heç bir əxlaqi- normaya sığmır. Ancaq təəssüf ki, günümüzdə belə ailələr hələ də var. Məktəbli çantasını yerə qoyan kimi ailəsi tərəfindən evləndirilən bir qız üçün ,bu, dəhşətli psixoloji zərbədir.

**- Sosial rifahın ailənin mənəvi məsələlərinə təsir etməsini normal hesab edirsiniz?**

-Hər bir ailənin mənəvi bir qanunu var. El arasında buna yazılmamış qanunlar deyirlər. Eləcə də hər bir ailənin maddi və mənəvi rifahı var. Ancaq sosial rifahın mənəvi məsələlərə təsir etməsi normaldır. Düşünürəm ki, ailə bunu faciəyə çevirməməlidir. Xüsusən də qadınlar bunu faciəvi hal kimi qəbul edirlər. İnsanların baxış bucağı birtərəfli deyil. Hər kəs məsələyə öz prizmasından yanaşır. Qısacası, hər kəsin öz həqiqətləri olduğu bir məqamda ər-aravad arasında anlaşılmazlıq baş verir. Lakin bunları anlayışla həll etmək olar.

**- Bu kimi mövzuların dərsliklərə salınması sizcə məqsədə uyğundur?**

- Bu kimi mövzuların dərsliklərə salınması olduqca məqsədəuyğundur. Arzulayıram ki, hər bir təhsil ocağında maarifləndirici tədbirlər keçirilsin. Psixoloji seminarlar olsun. Düşünürəm ki, bu mütləqdir. Məktəblərdə psixoloji vəsaitlərin olması bu kimi problemlərin qismən həllinə yol tapmaq deməkdir. Psixoloqa getmək dəlilik yox, özünə zaman ayırmaqdır. Psixoloqa qarşı baxışımız dəyişsə, çox problemləri həll edə bilərik. İnsanlar psixoloqa getməyi gizlədirlər. Psixoloqa getmək pis iş və ya utancverici hərəkət deyil ki, bunu gizlədirsiniz.

**Əntiqə Kərimzadə**



***AYDIN CANIYEV***
***müstəqil jurnalist***

# Fərqli müstəvilərdən seçkin baxış bucaqları

## və yaxud Empatidən məhrum kütlənin topluma təsir mexanizmi

**Ciddi, məsuliyyət tələb edən çıxışlar, bəyanatlar, araşdırma yazılar, faktiki olaraq, az rast gəlinir, motiv rəsmi mövzular deyilsə.**

Cəmiyyətin müəyyən kontingentinin sosial şəbəkə aludəçiliyi informasiya təminatından çox avaragunalığın təzahürünə çevrilib. "Azərbaycan" qəzetinin baş redaktoru, MM-in deputatı Bəxtiyar Sadıqov haqlı olaraq hələ ilyarım əvvəl onları "baltaçılar dəstəsi" kimi təqdim etmişdi. Və... məntiqlə də gözəl izah etmişdi baltanın yaranma tarixiylə ondan istifadə metodlarını. Zamanın müəyyən mərhələləri var ki, ayrıca dönəm kimi təyini olur!

### *Düşündürən düşüncələr*

Məsələn, ötən əsrin 60-cı illərində Tarantinonun çəkdiyi filmlərə baxan italyanlar əməlli-başlı oğurluğa qurşanmışdı! Dediyimizə sübut üçün şahid dalınca İsfahana getməyəcəyik, qısaca iki faktla kifayətlənəcəyik.

İnternet məkanı Rusiyada ümumişlək olanda 11 yaşlı şagird bu sosial şəbəkə resurslarından yararlanaraq, bir çox ölkələrin banklarına müdaxilə edib onların pullarını Rusiya Bankına köçürmüşdü!

Bizdə... hansısa "mavi balina" oyununu öyrənib özlərini asmağa başladı uşaqlar - hətta Göyçayda!

Ən pisi də odur ki, bizdə sosial şəbəkə linçlə məşğuldur - diplomlu-diplomsuz, savadlı-savadsız, meydan sulamaq, haqqı kreditlə bir androidə, aylığı da cüzi bir məbləğə başa gələn İnternet... dönüb olub əllərdə avtomat Kalaşnikov, Steçkin tapançası, "Qrad" qurğusu (trol şəbəkəsinin timsalında), "Bayraktar".

### *Və hamı da unudur ki...*

2001-ci ildə "Millətin səsi" qəzetində işləyirdim - ölkədə təzə dəb düşmüşdü qıcıqlandırıcı başlıqlarla-manşetlərlə oxucu cəlb etmək! Ki... qəzet alınsın! Onda qəzetin növbəti nömrəsi çapa gedəndə Sabir Rüstəmxanlının gözü təsadüfən manşetə sataşdı: "Filankəs xərçəngdir!"

Həmin filankəs də ölümə layiq biri olsa da, çox böyük bir klanın adamı idi, nəsil-tayfasının qarşısında Azərbaycan zağ-zağ əsirdi, ancaq Sabir Rüstəmxanlı görün nə dedi:

***- Siz indi ikicüt-birtək artıq oxucu qazanasınız deyə, bu nə əxlaqsızlıqdır edirsiniz?***

Adamın anası var, bacısı var, xanımı var, qohum-qardaşı var, nə psixoloji zərbə vurursunuz adama? Hətta həkimlər adamdan gizlədir xərçəng xəstəsi olmağını, siz niyə aləmə car çəkirsiniz, bəlkə adamı sağalda biləcəklər, bəlkə Allah qoruyacaq adamı? Hansı qardaşımın-bacımın, oğlumun-qızımın xoşuna gələr qəzetlərin hansısa biri yazsa ki, Sabir Rüstəmxanlı xərçəngdir?

Doğrusu, mən Sabir Rüstəmxanlını o cür kükrəyən yalnız meydanda görmüşdüm... azadlıq uğrunda mübarizədə!

Yeri gəlmişkən, elə Sabir Rüstəmxanlıdan başlayım. Hələ çıxışının mətninin mənbəyi bəlli olmadığı halda, hansısa fikri sətiraltı anlamda cəmiyyətə sosial şəbəkə vasitəsiylə

çıxarılıb, linç etməkdən çəkinmirlər!

Anarı da həmçinin!

Siyavuş Novruzovu da eləcə!

Elman Nəsirovu deyiləsi deyil!

Aqil Abbas artıq lağlağıya çevirir Brejnev kimi, özü haqqında danışılanları özü axtartdırır, tapdırır!

Misir Mərdanovun alimliyi, ağsaqqallığı qalıb bir yanda, hardasa kimləsə rəqs etməyi konuya çevrilir!

Akademik İsa Həbibbəyli, dünya şöhrətli Zeynəb Xanlarova, Çingiz Abdullayev sanki bunlar üçün "əl uşağı"dır!

Əslində, bu məqamları gözə alıb, icmallaşdırıb yazmağa məni vadar edən həm də uzun illər şəxsən tanıdığım, haqqında olan hər yazını oxuduğum, tərcümeyi-halını kitab və memuar, xatirə və real əməllər şəklində dəqiq bildiyim Hadı Rəcəbli barədə bu yaxınlarda ard-arda qarşıma çıxan müsahibələr, sanballı faktlara malik yazılar oldu!

### *Ucalarsan pillə-pillə...*

Hadı Rəcəbli, şəxsən tanıdığım biri olaraq, onun haqqında yazılmasını istəməyən biridir o şagird ola-ola təməldən işləyən adamdır. Boş-boş sözlər, yazılar onun həyat kredosuna daxil deyil! Jurnalist işləmiş adamdır, 19 yaşından lider olmuş adamdır, 30 il parlamentdə olub, kitablar müəllifidir, pedaqoqdur, bir az daha tünd desək, sıravi jurnalistin yazısı onu çətin tərpədər - Hadı müəllimin sanbalında, ranqında, rütbəsində olan adamdan, ən azı, danışanda Anar, Nəriman Həsənzadə, nə bilim, daha kimlər söz salsa, deyərsən, hə, bu, yarayar!

Adamın ən azından 3 tələbəsi artıq ali məktəbdə rektordur, onlarca tələbəsi xarici işlər nazirliyi sistemində işləyir, dünyanın gəzmədiyi ölkəsi, görüşmədiyi siyasi xadimi qalmayıb!

Şəki kimi iri bir rayonda birinci katib işləyib, Lənkəran kimi bir rayonda Komsomolun əvvəl ikinci, hərbi xidmətdən qayıtdıqdan sonra birinci katibi seçilib, Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri olub, Bakı Ali Partiya Məktəbini fərqlənmə diploma ilə bitirib! Ölkənin siyasi bomonduyla dostluq-tay-tuşluq müddəti orta nəslin yaşı qədərdir!

Ölkə Prezidentlərinin şəxsən tanıdığı adamdır və sədaqəti, doğruculluğu ilə etimadı itirməyən biridir!

Komandada olmağın nə demək olduğunu bilməyən qaragüruh üçün bunları anlatmaq qeyri-mümkün: elementar bir səhv siyasi Olimpdən zindan zirzəmisinə aşırdar!

Adam düz 40 il əvvəl Şəki Şəhər Partiya Komitəsinin birinci katibi seçilib!

Ona qədər Lənkəranda komsomolun birinci katibi və Sovet Sədri olub!

Üstəlik də bu uğurlara lap gənc - 32 yaşında nail olub!

İndi 75-i adlayıb - gördüyü işlərin sayı 50 illik ömrü olanın ömrünün günlərinin sayından çoxdur e!

Elə təkcə sovet dövründə Lənkəranda böyük bazar məscidini təmir etdirib istifadəyə verməsi adamın özünün və sözünün ötkəmliyini bəyan edir!

Şəhərin şimalını cənubuyla, şərqini qərbiylə, məhəllələrini bir-biriylə birləşdirən naviqasiya və kommunikasiya xətlərini qaydaya salması və istifadəyə verməsi nəyə desən dəyər!

Söhbət 80-ci illərdən gedir - İsa Məmmədov Lənkərandan gedəndən sonra dediyi bir fikri səsləndirmək istəyirəm:

**- Mən 70-ci illərin əvvəlində bura gələndə qəbula 20 ağsaqqal gəlmişdi. Birindən soruşdum nə istəyirsən, dedi qaloş, ikincisindən soruşdum, dedi qaloş, üçüncüsündən soruşdum dedi qaloş, iyirmincisindən soruşdum, dedi qaloş, amma bu gün maşın növbəsinə durmaq üçün xahişə gəlirlər!**

### *Unutsaq unudularıq*

Bəli, biz xidmətimizdə olmuş partiya və dövlət xadimlərinin əməyini unutmamağı bacarmalıyıq: necə unutmaq olar ki, Həzi Aslanov meydanını Hadı Rəcəbli açdırıb, əzəmətli heykəlini qoydurub Şəhər Sovetinin Sədri olanda!

Necə unutmaq olar ki, Lənkəranda kitab bayramlarını təşkil etməyini?

Necə yaddan çıxaraq ki, məhz onun vaxtında komsomol xəttiylə nə qədər Lənkəranlı gəncin Azərbaycan miqyasında tanınmasını!?

Problemlərini həll etməyə nə qədər "kəççi" ürəklənib üz tutub icra hakimiyyətinə ki, bəs Hadı Rəcəbli kənd uşağıdı, bizi nəzərə alar!?

Komsomolun ikinci katibi olanda adamı götürüb hərbi xidmətə aparıblar - icra başçısıyla hərbi komissarın arasında intriqa olub, əvəzini belə çıxıblar! Hətta Heydər Əliyeviçə məruzə olunub - Hadı müəllim 23 yaşında, rayon komsomolunun ikinci katibi olsa da, sıravi əsgər kimi hərbi xidmətə yollanıb!

Adam Moskva Yeyinti Sənayesi İnstitutuna qəbul olunub - ailə vəziyyətinə görə qiyabi oxumalı olub! Buna baxmayaraq, qırmızı diplom alıb:

Ordudan qayıdandan sonra birinci katib seçilib - əlbəttə ki, Heydər Əliyevin xeyir-duası və qayğısıyla! Etimadı qazandığına görə!

Unutmaq lazım deyil axı, hər bir təyinat qazanılan etimada görədir, sərgilənən sədaqət qayğıya çevrilir!

Müəllim ailəsinin övladı başqa neyləmişdi ki, bu qədər üstün tutulurdu - əlbəttə ki işgüzarlığı, çalışqanlığı, doğruculluğu, bacarıqlı lider və səriştəli rəhbərlik keyfiyyətləri!

"Ölülər elə bilir dirilər halva yeyir" məsəlidir e - "İsa Məmmədov gənc kadrlara qayğı göstərirdi", düzdür, bəs bu gənc kadrların savadı, elmi, intellekti nəzərə alınmırdımı, layiq olub-olmadığı hesabdan deyildimi? Bəs Heydər Əliyev Mərkəzi

Komitəyə məsul vəzifəyə təyin edəndə ölçüsüz-biçisiz götürürdümü?

Anlamağa birinci bundan başlamaq lazımdır: yüksək vəzifəyə təyin olunmaq üçün Heydər Əliyevin rəğbətini, etimadını qazanmaq qədərincə böyük olmalıydın!

İstər sovet dövründə olsun, istərsə də müstəqillik dönəmində!

### *Xalqa və dövlətçiliyə sadiq siyasətçi*

Mən Hadı Rəcəblinin Milli Məclisdəki çıxışlarını həmişə izləmişəm - yeni Bakı-Astara yolunun çəkilməsi təklifini Milli Məclisdə ondan başqa kim qaldırıb ki?

Qanun layihələrində bütün incəliklər barədə kim onun qədər müzakirələrdə aktiv çıxış edib, problemləri nəzərə çatdırıb, uzlaşan və uzlaşmayan məqamlara aydınlıq gətirib müqayisəli şəkildə?

Və... sosial şəbəkələrdə, rus demiş, "komu ne len", durub ağzına və ağlına gələni yazıb, paylaşıb, ittiham edib!

Adama deyərlər, Hadı Rəcəbli daha sosial siyasət komissiyasının sədri və həm də deputat deyil, bəs hanı o problemlərin həlli ki, onların mövcudluğunda Hadı Rəcəblini ittiham edirdiniz?

Harda deyib Hadı Rəcəbli müəllim daş daşısın, uşaqpulu verilməsin?

Hadı müəlllim Lənkəranın ən xanım-xatın müəllimələrindən birinin - bəy nəslinin qızı Firuzə Bəylərovanın ailəsində dünyaya göz açıb, xanımı, bacıları, qızı, oğlu gəlinləri müəllimədir, özü professordur, dörd övladından ikisi elmlər namizədidir, dövlət imtahan buraxılış komissiyasının sədridir Prezident yanında İdarəçilik Akademiyasında!

Bəs adam haqqında söz deməyə cəsarət edəndə adam durub bir özünə baxar, bir özünün söz deyə bilmək haqqına baxar, bir nəyi necə deməyinə fikir verər də!

Deputat yeganə statusdur ki, rüşvət almaq lüksü yoxdur - ancaq və ancaq üz-göz olmaq üçün şərait var: seçicinin probleminin həlli ilə bağlı məmurlarla qarşıdurmaya getmək!

Hadı Rəcəbli o nüfuzlu simalardandır ki, qarşıdurmaya ehtiyac yaranmayıb: bütün icra və hüquq-mühafizə orqanları nümayəndələri bilir ki, Hadı müəllimdə "volçiy sxvatka" var!

Deməz, ağız açmaz, dedisə, ağız açdısa, əl qoydusa, problemin həllinə nail olmayınca əl çəkməz! Ən yüksək tribunadan və ən ali məclisdən problemi qabardar - kimdənsə gözükölgəli deyil, hansısa qrup və komanda marağını ifadə etmir, Dövlətə və Prezidentinə sadiq, sədaqətli bir xadimdir!

Arada görürəm ki, götürüb yazırlar "Hadı Rəcəblinin obyektləri"-filan, gülməyim gəlir və gülə-gülə də deyirəm, yalançının...

O iddiada olanların hər birini Hadı Rəcəblinin əvəzinə götürüb Lənkəranda qariş-qarış gəzdirərəm və sübut edərəm hansı obyekt kimindir, hansı mağaza, restoran, kafe-bar, yanacaqdoldurma məntəqəsi, torpaq sahəsi, bağ, park kimə məxsusdur!

### *Böyük və ulu nəslin nümayəndəsi*

Hadı Rəcəblinin Lənkəranda şəcərəsinin nümayəndə sayı elə 4500-ə qədərdir - "detdom uşağı" deyil e sizin üçün, əsli-nəsli, şəcərəsi ta Şah İsmayıl zamanının bəylərinə gedib çıxır! İndi neyləsin Hadı Rəcəbli, qohum-əqrəbasına qoymasın mal-mülk yiyəsi olsun?

Bəs 4500 nəfər zirək adam necə yaşasın, nə ilə dolansın?

Nəzərə alaq ki, 26 lənkəranlı tanınmış jurnalist var - içində əməkdar olanı, president sərəncamına layiq görüləni, ev veriləni var! Hansını dindirsən, minnətdarlıq edəcək Hadı müəllimə!

Lənkərandakı olaylardan hətta deyərdim ki, düşməncəsinə yazan tək mənəmsə, mən də indiyə qədər dişə dəyəsi, qələmə alınası bir fakta rast gəlməmişəm! Olsaydı, elə mən yazardım da!

Hadı Rəcəbli icra başçısı olsaydı, o ayrı məsələ!

Düzdür, Hadı Rəcəbli icra başçısı olub, 40 il qabaq!

Mən 38 ildir jurnalistikadayam, Şəkidən də ən azı 38 dəyərli, sözübütöv, Şəkini Azərbaycan, Azərbaycanı Şəki qədər sevən vətənpərvər insan tanıyıram, həmsöhbət olmuşam, Şəkinin özündə, kəndlərində qonaq olmuşam illər qabaq, danışıblar, xatırlayıblar, bircə nəfər də dilinə gətirməyib ki, raykom idi də, alırdı da, pulla vəzifəyə qoyurdu!

Olmayıb elə şey! Deyilməyib! Əzazil "balaca padşah"lardan olmayıb Hadı Rəcəbli! İlk işlərindən biri elə qədim Şəkidə "Rəhil" kitab evini açmaq olub-adam naturaca maarifpərvərdir!

Şəkinin ağsaqqal jurnalistlərindən Akif Salamovun çıxışına rast gəldim, diqqətimi bircə möhür fikir çəkdi: "Elə həmin Hadı Rəcəbli!"

40 il keçib Hadı Rəcəblinin Şəkiyə icra başçısı təyin edilməyindən.

30 il keçib Hadı Rcəəblinin Şəkidən Nazirlər Kabinetinə məsul işə çəkilməyindən!

Aradakı 30 ildən sonra əgər rayonun ağsaqqal jurnalisti (özü də Şəki kimi adama ayama qoşan, həqiqəti qıpqırmızı üzə deyən, yalanla-yaltaqlıqla arası olmayan, qədimdən tarixi xanlıq statusu, təkcə qızlar məktəbində oxuyan qız şagirdlərinin sayı ölkədəki cəmi oxuyan qızların sayından çox olan (ötən əsrin əvvəlində 300!)) deyirsə ki, "elə həmin

Hadı Rəcəbli", onda gərək Qələm səcdə edə, Söz salam verə!

Şəkidə oxşarı olmayan bir icra başçısı olaraq, Hadı Rəcəblinin izi-imzası məscidlərin bərpasında, mənzillərin tikilməsində, qəbristanlıqların abadlaşdırılmasında unudulmazdır.

Şəkililər heç nəyi, o cümlədən də yaxşılıqları unutmayan insanlardır. Üstündən 40 il keçib, 10 il ərzində görülən işlər bu gün də hörmətlə xatırlanır!

Niyə yazdım:

Mən bu yazını Anar haqqında da,

Çingiz Abdullayev haqqında da,

Aqil Abbas haqqında da,

Siyavuş Novruzov haqqında da,

Misir Mərdanov haqqında da,

Hüseynbala Mirələmov haqqında da

bu şövqlə, bu ürəklə yaza bilərdim!

Hadı Rəcəblidən yazdım - dəpdəqiq tanıdığım üçün!

Yazdım ki, anladım: əzizlərim, empati hissiniz olsun, fərqli müstəvilərdən seçkin baxış bucağına malik olun, İnsanların xidmətlərini nəzərə alın, əməllərinə qiymət verin, sözlərini dəyərləndirin!

Nə edirlərsə, nə deyirlərsə, yüz ölçüb bir biçirlər, onların sizlərdən - qaragüruhun kütlə düşüncəli qaramat adamlardan başqa da dəyərləndirən nəinki dostları, rəhbərləri, üstəlik düşmənləri də var!

Düşmənlər isə heç vaxt yatmır!

Əgər adlarını sadaladıqlarımın, mahiyyətindən asılı olmayaraq, cüzi və kiçicik bir səhvi olsa, həmən onu ölkənin

Prezidentinə çatdırarlar, zindan zirzəmilərində çürüdərlər!

Şəkidə işləmək və şəkililərin dostu olaraq qalmaq... böyük bir erudisiya, qənirsiz bir idarəetmə səriştəsi tələb edir - istənilən bir yanlışı bu gün elə həmin şəkililər ittihama çevirərdilər!

Lənkəran kimi həssas bir yer - kiçikbazarlı-böyükbazarlı, dağlı, "kəççi"-şəhərli kontingenti heç imkan verməzdi iş başqalarının ümidinə qalsın: anındaca, yerindəcə ölüm hökmü çıxarardılar!

Əlbəttə ki, bunlar olmayıb Hadı Rəcəbliyə qarşı! Çünki Hadı Rəcəbli heç vaxt qarşı-qarşıya durmayıb, konfrontasiya yaratmayıb - həmişə adamlarla yan-yanaşı durub!

Əlbəttə ki, Heydər Əliyevə və onun komandasına, İlham Əliyevə və onun komandasına xidmətdə, sədaqətdə!

Bu yazını həm də ona görə yazdım ki, bəlkə nəticə çıxaraq, sağlığında qiymət verək insanlara, Dövlət tərəfindən və o prizmadan yanaşaq, dəyərlər və tələblər məcəlləmiz bayağı və lağlağı sosial şəbəkə statusunda olmasın! "Baltaçı dəstəsi"ndə olmayaq, Dövlət və Vətəndaş, Ölkə və Əxlaq prizmasından performans yapaq!

Empati qarşı tərəfin yerində qoymaqdır özünü - Sabir Rüstəmxanlının 23 il qabaq dediyi möhtəşəm fikrə qayıdıram: hansı birinizin əzizlərinin xoşuna gələr hədyan, böhtan, dezinformasiya yazılsa?

Bu adamlar ölkə və dövlət idarəetməsi tarixinin tam 50 ilini əhatə və təmsil edən dövlət xadimləridir e!

Fəhləlikdən, Müəllimlikdən, Jurnalistlikdən, Yazıçılıqdan, Mühəndislikdən, Siyasi liderliyə mərhələ-mərhələ adlayıb Dövlət Ərkanına Ədəblə yüksəliblər!

Tənqid əlbəttə ki, yaxşıdır, tənqidçilər cəmiyyətin ağacdələnləridir, elə edək ki, "ağacdələn, döy qapımı" desinlər, ağacdələn taqqıltısını bayquş ulartısına çevirməyək!

YAZIYA SÖZARDI: Hadı Rəcəbli ilk qaçqın dəstəsini Şəkidə olanda qarşılayıb yerləşdirib! Nazirlər Kabinetində Qaçqınlarla İş üzrə Şöbənin ilk müdiri olub - qaçqınlar haqqında BMT-nin beynəlxalq qurumları səviyyəsində müzakirələr aparıb, bu mövzuda ən son yazısı bir həftə əvvəl dərc olunub rəsmi mətbuatda, repatriasiya məsələlərini bütün incəliyi ilə çözüb! Sosial siyasət komissiyasının ilk və əvəzolunmaz sədri seçilib 25 il ərzində!

"Vicdan min şahidə bərabərdir", - deyirdi Stefan Sveyq! İnsanları, illah da ki, Dövlət Ərkanında, Ziyalı Korpusunda, Məmur Arsenalında, Elm Cəbhəsində təmsil olunan İsimləri qoruyaq, onlara qarşı həssas olaq - onlar təkcə bizim deyil, həm də Dövlətin Sifətidir, Sərvətidir, biz onları nə qədər iyrəncliklərə dartsaq da, onlara heç nə olmaz, ancaq Xalqımızın Əxlaq

Kodeksinə ləkə düşər: düşmənlər baxıb, görüb, "qırın bir- birinizi, köpəyuşağı!" deyib, sevinər!

Və... ömür əbədi deyil, əmanətdir, Tanrının Dövlət Ərkanı üçün ayırdıqlarına sağlığında sevgi bəsləyək!

Kim yanlış edərsə, bu Ölkənin, bu Dövlətin nəyi nə vaxt etməyi dəqiq bilən Müzəffər ABK-sı var!

Kim Ona və Dövlətə sədaqətlidir, kim haçan harda olmalıdır, artıq iftixar yerimiz olan Ölkə Başçısı 20 ildir gözəl nümayiş etdirir ki, Özü hamıdan yaxşı bilir!

Biz, sadəcə, Ölkənin Müzəffər Prezidentini Ona sadiq adamlardan məhrum etməyək - öz gic-gic ittihamlarımızla, dezinformativ statuslarımızla çərlətməyək onları!

Elə adamlar var ki, etdikləri unudulur!

Elə adamlar da var ki, nə etdikləri unudulur, nə də unudan adamlar onlara dəyər verir!

**Etdikləri unudulmayanlar haqqında, olunan xidmətləri dəyərləndirən, unutmayanların əvəzinə yazdım yazını!**

# Ermənistan dilini dinc qoysa, Azərbaycan ona nəinki 90 min avro ödəyər, hətta...

**Ataların bir sözü var. Deyir, bal tutan barmağın yalar. Qonşumuz Gürcüstan Azərbaycanın layihələrindən "bal da tutur, barmaqlarının beşini də yalayır.**

Yəqin bilirsiniz ki, 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisi və fəaliyyətə başladı. Belə ki, həmin ilin mayında həmin neft kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsi istifadəyə verildi. Bu kəmər vasitəsilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqlarından Türkiyənin Ceyhan limanına, oradan isə Aralıq dənizi vasitəsilə Avropa bazarlarına neft nəql edilməkdədir. BTC boru kəməri, regiondan hasil edilən nefti dünya bazarlarına çatdırmağa im-kan verməklə yanaşı, çoxşaxəli beynəlxalq iqtisadi əməkdaşlığın inkişafına da zəmin yaradıb. Kəmərin ümumi uzunluğu 1768 kilometrdir. Bunun 443 kilometri Azərbaycanın,249 kilometri Gürcüstanın,1076 kilometri isə Türkiyənin ərazisindən keçir.

Boru xəttinin diametri Azərbaycan və Türkiyə daxilində 42 düym, Gürcüstanda isə 46 düymdür.Azərbaycan, həmçinin Gürcüstana ən çox investisiya yatıran ölkələr sırasındadır. Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) timsalında dövlətimiz Gürcüstana 1.5 milyard ABŞ dollarından çox sərmayə yatırmışdır. Əlavə olaraq, SOCAR Gürcüstanın ən böyük vergi ödəyicilərindən biri hesab olunur. Şirkət şimal-qərb qonşumuzun sosial sahə üzrə layihələrinə təkcə 100 milyon ABŞ dolları dəyərində yatırımlar etmişdir. Bu addımlar iki ölkə arasındakı strateji əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan, həmçinin Gürcüstana ən çox investisiya yatıran ölkələr sırasındadır. Azərbaycan Dövlət Neft



Şirkətinin (SOCAR) timsalında dövlətimiz Gürcüstana 1.5 milyard ABŞ dollarından çox sərmayə yatırmışdır. Əlavə olaraq, SOCAR Gürcüstanın ən böyük vergi ödəyicilərindən biri hesab olunur. Şirkət şimal-qərb qonşumuzun sosial sahə üzrə layihələrinə təkcə 100 milyon ABŞ dolları dəyərində yatırımlar edib. Bu addımlar iki ölkə arasındakı strateji əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə şərait yaratdıb.

Bir az əvvəl Ermənistanın "Hraparaq" nəşri sevinclə paylaşdığı bir xəbərlə rastlaşdıq Naxçıvana və əks istiqamətdə uçuşlar üçün Ermənistana təxminən 90 min avro ödəyib.

Məlumatı Ermənistan Mülki Aviasiya Komitəsi yayıb:"Nəzərinizə çatdırırıq ki, 2023-cü ildə Azərbaycan aviaşirkətlərinin Ermənistanın hava məkanında aeronaviqasiya xidmətlərindən əldə etdiyi gəlir 90 018,71 avro təşkil edib", - məlumatda deyilib.

Qeyd edək ki, "Azərbaycan Hava Yolları" 2021-ci il oktyabrın 6-dan Bakıdan Naxçıvana sərnişin reysləri həyata keçirmək üçün Ermənistanın hava məkanından istifadə etməyə başlayıb.

2022-ci ildə Azərbaycanın milli aviadaşıyıcısı AZAL eyni marşrut üzrə uçuşlar üçün Ermənistana təxminən 112 min avro ödəyib.

***P.S.*** ***Dilinizi Gürcüstan kimi dinməzcə özünüzdə saxlasaydınız, indi 90 min avroya sevinməzdiniz, Azərbaycanın iqtisadi layihələrindən "bal tutub, barmaq yalayardınız".***

**Əntiqə Rəşid**

# ARAZ TALELİ ARAZ....!

**1933-cü il 14 oktyabr, tikanlı məftillərin bağrımızı deşdiyi, körpülərin talelərimizi ayırdığı bir məmləkətin kiçik bir kəndində böyük bir şair doğuldu. O şair ki, Sovetlərin, istibdadın, təzyiqlərin tüğyan etdiyi bir zamanda Arazı qibləgah seçib, Arazın mənəvi, coğrafı taleyini təxəllüsündə, dərdini çiyinlərində daşıdı.**

***Ərizə yazıb, dedim:***
***- Dəyişin iş yerimi!***
***Daha dözə bilmirəm,***
***Araz yadıma düşüb.***
***Hər teli min havalı -***
***O saz yadıma düşüb...***
***Vətən - hər yerdə vətən,***
***Hər yerdə də, daş, torpaq...***
***Üstəlik Araz üstə***
***Təsəllim də olacaq:***
***Baxacağam Araza -***
***O dağlar yaran çaya.***
***Altdan birləşən yeri***
***Üstən ayıran çaya.***

Şairlərin yazdıqları onların tərcümeyi-halıdır deyirlər. Şeirlərinin birində isə elə Araz bunu təsdiqləyir:

***Məni - şerimdə gəz bir insan kimi,***
***Qəlbimdə nə varsa ona demişəm.***
***Anadan, bacıdan gizlətdiyimi,***
***Kağızdan, qələmdən gizlətməmişəm.***
***Uzaqdan-uzağa xoşuna gəlsəm,***
***Məni dindirməyə tələsmə hələ.***
***Tanımaq istəsən məni, əzəl sən***
***Tanış ol bu kiçik nəğmələrimlə...***

Vətən, təbiət, insanlıq, Türk qadını, millət, qaya motivi, Cənub, Araz həsrəti, tarixə qayıdış, Arazın qələmi - Azərbaycanın tərcümeyi-halıdır. Məhz buna görə də Araz nəğməsini oxumaq, anlamaq, yalnızca onun tərcümeyi halını oxumaq yox, Azərbaycanın tərcümeyi halını oxumaq, özünü tanımaqdır. İnsanı yazdıran dərd, daxilində rahatlıq tapmağa qoymayan, daxilinə sığışmayan düşüncələrdir. Azadlığı isə bu dərdi, duyğuları ifadə edə bilməsidir. Bəlkə də, şairlərin xoşbəxtliyi bundadır elə duyğulardan ibarət dünyada onları ən yaxşı vəsf edən onlardır. Məhz elə ölməzlikləri də bundadır. Sağlam bədəndə, sağlam ruhda sağlam düşüncə olurlar deyirlər. Araz qələmi, əyilməzliyi bunu təkzib etdi. Narahat olduqları mövzuları dilə gətirə bilməyib, qələmləri incik düşəndə, susanda əsl o zaman ölür şairlər. Faciəvi Araz taleyi onun qələmini heç vaxt dindirə, öldürə, susdura bilmədi.

***Dərd eləmə desəm ki,***
***Yazı masam, ölürəm.***
***Ölə-ölə yazmıram,***
***Yaza-yaza ölürəm...***

Şairlər, yazarlar xalqın ruhunda, hissində, duyğularının ən dərin nöqtələtində əbədi yaşayırlar, onlar xalqın ruhunun əbədi əksidirlər. Araz yaza-yaza əbədiyyətə çevirildi, Vətənə çevrildi. Bu qədər yüklə necə yaşamaq olardı bilmirəm. Bəlkə də, elə buna görə bu qədər ölməz idi. Faciəvi taleyi, haqsızlıqlar, Vətən dərdi də elə Araz kimi oldu. Təsadüfü deyildi onun qibləgahı, ruhunun Araz olması, Arazı seçməsi. Araz kimi də heç vaxt susmadı, boyun əymədi.

***Mən əyilməz ata adı saxladım***
***Vicdanımı ovuclara sağmadım***
***Bu dünyanın mehvərini laxladın,***
***Sizə yetim deyən olsa qızlarım.***

Təxəllüsündə, çiyinlərində milyonların kədərini daşıyan, həsrət körpülərini qırıb, qələmindən Şimalından Cənubuna ümid körpüsü salan Arazın qələmində Azərbaycan birləşirdi. Vətən məfkurəsini hər şeydən üstün tutan, o adda əsarətimizə, ayrılığımıza hissi ilə üsyan edən şair qələmi yaralı vətənin Güneyini, Qüzeyini yatmış vulkanı oyanmağa səsləyirdi. Elə azadlığın sədası Araz qələmindən, misralarından duyulurdu.

***Ölüm istəyirəm. Qəfil bir ölüm.***
***Bir kibrit ölümü.***
***Barıt ölümü.***
***Bir anda bir ovuc dumana dönüm,***
***İstədiyim səmtə tutum yönümü.***
***Görüm, hər qonanda dağlar qaşına,***
***O dağdan, o çəndən necə yazmışam.***
***Görüm, hər enəndə bulaq başına,***
***Çiçəkdən, çəməndən necə yazmışam.***
***Görüm dumanlara qoşula bilmək,***
***Ayrılıb didərgin olmaq, necədir.***
***...Bəli duman olum.***
***Duman. Bir çəngə.***
***Mənim öz yağışım,***



***Öz qarım olsun.***
***İstədiyim yerə yükümü çəkən***
***Hökmüm, ixtiyarım, qərarım olsun.***

Vətəninə duman ömrü arzu edib, Sovetlərə bir üsyan bəstəsi yazan, ordusunu ruhlandıran bir komandan idi, onu müstəqilliyə səsləyirdi. Məhz buna görə də Araz azadlıq, istiqlalın sədası idi.

Bu dönəmdə onu deyə bilmək böyük bir cəsarət tələb edirdi. Vətənin dərdindən, taleyindən uzaq yaşaya, yazmaya bilməzdi. Araz Azərbaycanın poeziya simvoludur. Həyatı, yaradıcılığı, daşlı qayalı yollardan keçərək, qayalaşan Məmməd İbrahim Araz oldu.

***Sahilində küləklər***
***Gəzməyib mənim qədər;***
***Sularında ördəklər***
***Üzməyib mənim qədər.***
***Gündüzlər aynam olub,***
***Gecələr laylam olub.***
***Qamışından kəsilib***
***Mənim çaldığım tütək.***
***Mən ondan su içmişəm***
***Anamdan süd əmən tək.***
***Sudan çıxan balıq tək***
***Ölərəm mən Arazsız.***
***Tayı itmiş ceyran tək***
***Mələrəm mən Arazsız.***
***O mənim mürəkkəbim,***
***Mən onun qələmiyəm.***
***O mənim telli sazım,***
***Mən onun Dilqəmiyəm,***
***Yox, Araz deyəndə mən***
***Yalnız çay düşünmürəm.***
***O, tarixdir, baxıram:***
***Ağlayır da, gülür də;***
***"Avesta"nın külündən***
***Bulanıqdır hələ də.***

Şair hər misrasında ilmə-ilmə, addım-addım Arazı gəzir, körpü salır yaralı qəlbərimizə. Məmməd İbrahim ruhu ilə bağlı idi Araza, ona görə də onun qədər Arazı mükəmməl tərənnüm edən ikinci şəxs ola bilməz, o Arazın şairi idi. Vətəninə dərindən bağlı olan şair onu ən yüksək zirvəyə - söz zirvəsinə qaldırmış, Məmməd Araz dünyasından dünyaya çatdırmışdır. Azərbaycanı qayalarda bitən bir çiçəyə bənzədən şairin qələmində qaya simvolunun özünə məxsus yeri olmuşdur: Şairin qələmində qaya motivi dəyişilməzliyin, mənəvi sığınmanın, qüdrətin, möhkəmliyin, dayanıqlılığın, simvoludur. Elə Məmməd Araz da qayalaşan bir tarix, bir ruhdur. Hansı ki, əsrlər ötsə də dəyişməyəcək, kimlərinsə ruhunu tapdığı, kimlərinsə mənəvi sığınma nöqtəsi olaraq qalacaq qayalaşan bir tarixdir! Arazın Yurdunun gəzməyi, vəsf etmədiyi yeri qalmadı, Məmməd İbrahimi minlərlə ittihamlar, repressiya dolu həyatlar sonda isə xəstəlik Araz ruhunu qorxuda, zəiflədə bilmədi.

***Bəs şikayətini gizlətməyin necə?***
***Şerim imtahandan necə çıxacaq?***
***Əsrin küləkləri çox möhkəm əsir.***
***Özünü ittiham, ittiham ancaq,***
***Şairin ədalət məhkəməsidir...***

Sovetlərə belə boyun əyməyən, sınmayan Araz ruhunu yalançı tərifler qorxurdu. Şairin xoşbəxtliyi, əsl dəyəri də onun saf oxucusunda, ruhunu əks etdiyi insanların saf sevgisində görməkdir, yalançı təriflərdə yox, buna görə də şair "Tərifdən qorxuram, yaman qorxuram" deyirdi.

Tərifdən qorxuram, qorxuram yaman,

***Onun fitnəsindən bac almalıyam.***
***Yoluma gül səpən tərif yanından***
***Saymazca keçməyi bacarmalıyam.***
***Arabir gözümə qonmayır çimir,***
***Tərifin nə qədər behişt bağı var.***
***Tərifin şirindil müsahib kimi***
***Yolçunu yolundan saxlamağı var...***

**Tərifdən qorxuram deyən Araz sınmaz, əyilməz bir ruh idi! Yalançı təriflərə, kəslərə tuşlanan misralar yox, xalqın taleyinə fəda edilən ömürdən misralar idi Araz, oxucusunun bu saf sevgisinə səbəb. Mən Arazı onun şəcərəsindən bir budaq olduğum üçün sevməmişəm. Hər kəs kimi məni mənə tanıtdığı üçün sevmişəm. Mən Arazı "Quzu", "Kuklamı sındırmışam", "Şanapipik" şeirlərində, Araz həsrətində, Azərbaycan adında sevmişəm. Mən ana dilimlə birgə Araz dilini öyrənərək sevmişəm. Araz qayalaşan tarix, əbədiyyətdir. Kimləri-kimləri, tarixin qanlı səhifələrindəm itib-batan, kəsləri özündə qonaq edən heç kimə qalmayan dünyada bizə bir əbədiyyət-Araz şeirləri qaldı.**

**Abbaslı Nəzrin Namiq qızı**
**NDU, "Tarix və filologiya" fakültəsi. "Jurnalistika" ixtisası üzrə II kurs tələbəsi.**
**Şairin bacısı nəvəsi.**
**Naxçıvan, 14.12.2023**

# YAŞANAN TARİX



**Bu günlərdə Bakıda Cəlil Məmmədquluzadənin ev muzeyində Ulu Öndər Heydər Əlieyvin 100 illiyinə həs olunmuş "Yaşanan tarix" adlı möhtəşəm tədbir keçirilib. Öncədən onu qeyd edək ki, Heydər Əliyev 1994-cü ilin dekabrın 28-də bu ev muzeyinin açılışında iştirak edib və Cəlil Məmmədquluzadənin yaradıcılığına çox yüksək qiymət verib.**

Həmin tədbiri giriş sözüylə muzeyin direktor əvəzi Yeganə Məmmədova açaraq, Ulu Öndər Heydər Əliyevin dünya siyasətindəki yerindən danışmış, bu dahi şəxsin müstəqilliyimiz və ərazi bütövlüyü yolunda apardığı məqsədyönlü siyasət barəsində öz fikirlərini səsləndirmişdir. Yeganə xanım demişdir ki, Heydər Əliyev elə bir dünya şöhrətli siyasətçi idi ki, o, hər şeyi öncə görür və onu uğurla həyata keçirirdi. Ona görə də bu xalq, bu millət Ulu Öndəri həmişə yad etmiş və bundan sonra da yad edəcəkdir. Çünki Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin memarıdır.

Tədbirdə Bakı Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Məti Osmanoğlu, professor Məhərrəm Qasımlı, Mədəniyyət və İncəsənət Universitetinin dosenti Altay Məmmədli, dosent Hafiz Kərimov çıxış edərək, Ulu Öndərin fəaliyyətindən danışmış, onun apardığı məqsədyönlü siyasətin uğurlu tərəfini qeyd etmişlər. Eyni zamanda, bu möhtəşəm tədbirdə 150 nömrəli tam orta məktəbin şagirdləri İradə Vəliyevanın Ulu Öndər Heydər Əliyevə həsr etdiyi şeirləri səsləndirmişlər. Bununla yanaşı, Mədəniyyət və İncəsənt Universitetinin tələbələri Heydər Əliyevə yazılmış mahnı və nəğmələri sazda ifa etmiş və gözəl mahnılar oxumuşlar. Onların səsləndirdiyi mahnılarda Ulu Öndərin istedadı, ömür yolu və Azərbaycan xalqına xidmətləri əks olunmuşdur. Bir daha həmin tədbir göstərmişdir ki, Heydər Əliyevin adı Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb və bu heç vaxt xalqımız tərəfindən unudulmayacaqdır.

Onu da qeyd edək ki, bu möhtəşəm tədbirdə Abdulla Şaiq adına muzeyin direktoru Ülkər xanım, Məmməd Səid Ordubadi adına muzeyin direktor əvəzi Rasimə xanım da iştirak edib və Ulu Öndərlə bağlı ürək sözlərini söyləyiblər.

Bir sözlə, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Cəlil Məm**mədquluzadənin ev muzeyində keçirilmiş, "Yaşanan tarix" adlı möhtəşəm tədbir həmin görüşdə iştirak edənlərin yaddaşında əbədi iz qoymuş və bir daha təsdiq etmişdir ki, xalq üçün çalışan, onun yolunda mücadilə və mübarizə aparan insanlar heç vaxt unudulmayacaqlar.**

**EMİL FAİQOĞLU**



*Eminquey*

## *"Bütün atasız uşaqların atası - Allah imiş"*

***Köhnə videolara baxırdıq axşam,***
***Dizinin üstəydi başım anamın.***
***Gördüm, silkələyir çiyinlərini,***
***Kiprik ucundadır yaşı anamın.***
***Qəfil danışmağa başladı atam,***
***Uzağa gedirəm, məni çək belə.***
***Səsini eşidib "can" deyəcəkdim,***
***Elə boğuldum ki...***
***O gülə-gülə…***
***...qəfil əl yellədi ekrandan bizə,***
***Elə düyünləndi söz boğazımda,***
***Elə təzələndi xatirələrim,***
***Elə gileyləndim alın yazımdan!***
***Dizimə büküldüm lap körpə kimi,***
***Elə ağladım ki...***
***Anam unutsun,***
***Kəssin göz yaşını, hönkürtüsünü,***
***Başımı bağrına basıb ovutsun..***
***Bəs hanı telefon? Bəs hanı video?***
***Bayaq ağlayanda əlimdən itib.***
***Tapdım telefonu divanın üstdən,***
***Baxdım video bitib...***
***Atam da gedib...***

***

***Bütün bayraqlar yellənir***
***göyərçin qanadları kimi pır-pır.***
***Hər uşağın göz yaşları bir buluddur,***
***Qan-qadayla savaşar tarix boyu min kərə,***
***Necə ki buludlarla savaşan yerə***
***göyqurşağı sülh gətirir rəngbərəng,***
***Qalxıb iki düşmən arasında körpü olur,***
***Bir başında gözüyaşlı,***
***O biri başında üstü-başı toz-torpaq***
***bir körpə olur.***
***Bayraqlar da hərəsi bir göyqurşağıdır,***
***Göz yaşları olmasa solur, ay Allah bəndəsi,***
***solur!***
***İlk dəfə insana qarğamı***
***öyrətmişdi öldürüb basdırmağı,***
***yoxsa göyərçin?***
***Məndən olsa,***
***Kitaba and içib öpməzdim bayrağı,***
***Bir körpənin göz yaşlarına and içib***
***ayaqlarından öpərdim!***

***

***Niyə axtarırsan? Axtarma! Yoxdur!***
***Bu evin səması, Günəşi, quşu.***
***Bütün pəncərələr baxır bayıra,***
***Amma ya divardı, ya da ki qonşu.***
***Bu evin Günəşi o qonşu evin***
***Tez-tez yanıb-sönən pəncərəsidir.***
***Belə Günəş olar? Belə Gün olar?***
***Nə işığı çatır, nə də isidir.***
***Pəncərə dil açıb danışır hərdən,***
***Gah bərkdən qışqırır, gah söyüş söyür.***
***İşığı göz vurur, görəsən kişi***
***Arvadı yoxsa ki işığı döyür?***
***Saat üçü keçir, soyuyur kişi,***
***Kəsilir qadının kəlməsi, sözü.***
***Saat üçü keçir, çökür qaranlıq,***
***Pəncərə utanır, qaralır üzü.***

***

***göz yaşı hamıdan məsumdu, safdı,***
***göz yaşı hamıdan kövrək, insaflı,***
***yuyur sözlərimin hərflərini:***
***mə...***
***mə...***
***döz...***
***bbb..m...əm...***
***çə...t..di..***
***axı.***
***öl....m... kkk...***
***ist... əm...***
***olmur, alınmır,***
***bir də hıçqırıq tək yolumu kəsir,***
***gah anam qoymur,***
***gah Allah baxır...***

***

***hamı həsrətini çəkəndə torpağının,***
***təsəllim vardı,***
***Şuşa türməsində əsirlikdəyəm,***
***yəni öz vətənimdə...***
***hamı həsrətini çəkəndə torpağının,***
***təsəllim vardı,***
***axır ki içirəm Şuşamın bulanıq suyunu,***
***az da olsa, söndürürəm yanğılarımı bədənimdə.***
***hamı həsrətini çəkəndə torpağının,***
***təsəllim vardı,***
***nə Azan oxunur,***
***nə də görmürəm Yuxarı Gövhər Ağa***
***məscidinin minarəsini;***
***əllərim əsə-əsə qalxsa da təkbirə hərdən,***
***bir gözüm qalsa da qazamatın qapısında,***
***alnım,***
***dizlərim,***
***barmaqlarım Şuşaya toxunur,***
***divarlarından dəstəmaz alıb***
***namaz qıldığım günlərin birində,***
***əllərim yaxalandı "Allahu Əkbər"də.***
***hamısını kəsdilər,***
***saxladılar cəmi iki barmağımı,***
***göstərmək üçün zəfər işarəsini.***

***

***həyat taleyimizi qəfil keçirtdi çarmıxdan,***
***sonra atamızın şəklini,***
***gödəkcəsini, papağını asdı***
***əllərimizdəki, ayaqlarımızdakı o mıxdan***

***sonrası,***
***qəfildən uşaq kimi yox,***
***kişi kimi oyandığın sabah olur...***

***atasız uşaqları incitməyin,***
***Allahın xətrinə dəyir,***
***günah olur!***

***əslində,***
***İsanın yox,***
***bütün atasız uşaqların atası - Allah imiş,***
***biz xoşbəxt olanda***
***Allah - baba olur...***

# *Küçə ticarətinə niyə göz yumurlar?*

**Yeni ilin ölkəmizə qədəm qoymağı ilə əlaqədar olaraq Bakıda küçə ticarəti də tüğyan edir.**

Hara gedirsən küçələrdə nizamsız və səliqəsiz halda ərzaq və kənd təsərrüfatı məhsulları satılır. Suraxanı rayonunun Yeni Günəşlı yaşayıs sahəsinin , dəqiq demiş olsaq " Ballı" marketin yanında küçə ticarəti baş alıb gedir. İki nəfərdə həmin marketin yanındakı avtobus dayanacağında göy-göyərti satır. Üstəlik də onlar camaatla kobud rəftar edirlər. Guya qazidilər nə istəsələr edə bilərlər. Sanki onlardan ətrafda içtimai asayişi qoruyan vəzifə sahibləri də çəkinirlər. Hansı ki, küçə ticarətinə qarşı mübarizə polisə tapşırıb. Həmin yerdə xidmət aparan Əlahiddə Çevik Polis Alayının əməkdaşları öz vəzifə borclarını icra etmək əvəzinə, seyirçi mövqey tutur, qətiyyət göstərmirlər. Belə nöqsanlar Nəsimi rayonu ərazisində də mövcuddur. "20 yanvar" metrostansiyasının çıxışında, eləcə də " 20 yanvar" küçəsində göy-göyərti, mer-meyvə, balıq satanların əlindən tərpənmək olmur.

Qəribə də olsa, Çevik Polis Alaynın əməkdaşları bu yerlərdə xidmət aparır, hər qanun pozuntusuna göz yumur, öz vəzifə borclarını yerinə yetirmirlər. Görəsən, niyə?! Bu sualın çavabını qoy Çevik Polis Alayının bölük komandirləri versin!

**Emil Faiqoğlu**

# " Heydər Əliyev" Prezidentlik xronikası (1993-2003)" təqdim edildi

**Dekabrın 28-də Milli Elmlər Akademiyasının Mərkəzi Kitabxanasının Akadmik zalında maraqlı bir tədbirin iştirakçısı oldum. Təbii ki, bütün tədbirlər bu və ya digər səbəbdən hər zaman diqqət çəkir, amma iştirakçısı olduğum tədbirin ən önəmli tərəfi o idi ki, iştirakçılar həm ictimai nüfuz və elmi dəyərləri ilə, həm də həyat təcrübələri ilə ayrı-ayrılıqda çox diqqətçəkən insanlarımız, ziyalılarımız idi. Və bu insanları da bir araya gətirən həmkarım, tanınmış qələm adamı Aynur Bəşirli ,daha dəqiq ifadə etsəm, onun tərtibatçısı olduğu Heydər Əliyev "Prezidentlik xronikası (1993-2003)" kitabı idi.**

Belə ki siyasi elmlər üzrə fəlsəfə doktoru Aynur Bəşirli ideya müəllifi və tərtibatçısı olduğu bu kitabla Azərbaycan oxucusuna, Heydər Əliyev irsi ilə maraqlanan hər kəsə çox möhtəşəm bir hədiyyə etmişdi.

Şəxsən mən bu kitabla tanış olarkən qarşılaşdığım qeyri-adi məqamları, fotoları, həm də tarixi silsilənin necə deyərlər, günbəgün zərgər dəqiqliyi ilə qələmə alınmasını izləyəndə əmin oldum ki, həqiqətən bu iş çoz böyük əməyin bəhrəsidir. Elə ona görə də kitabın Ön sözündə yazılmış bir məqamı diqqətə çatdırmaq istəyirəm. Burada yazılıb ki: "Heydər Əliyev, Prezidentlik xronikası. 1993-2003 kitabını 11 il əvvəl tamamlasam da onun çapı yalnız indi 2023-cü ildə gerçəkləşir. Xoşbəxtəm ki, 27 il əvvəl Ulu Öndərə verdiyim sözə əməl edirəm. Deyirlər ki, söz vermə, borcdur. Bu kitab mənim bir vəfa borcumdur.

Ruhunuz şad, məkanınız cənnət olsun, Ulu Öndər!

Axar çaylarımız hər zaman çağlasın, ocaqlarımız gur yansın, Azərbaycanın müstəqilliyi əbədi olsun!

***Daha Ərimgəldidə gözü yolda qalan yox,***
***Köhlən atlar belində ərənlərin qayıtdı.***
***Azərbaycan bayrağı Tanrının xoş günündə***
***Haqqın öz əlləriylə Şuşada dalğalandı.***




***Vətən, gözlərin aydın!***
***İlhamlı gündüzlərə açılsın sabahların,***
***Körpə gülüşləriylə qoy oyansın torpağın,***
***Əbədi dalğalansın Qarabağda bayrağın!"***

Bu sözlərin müəllifi olan Aynur xanımın bizə təqdim etdiyi kitabı gözdən keçirdikcə mənim diqqətimi bir şəkil də çəkdi. Həmin şəkil Ulu Öndərin 80 illiyi ilə bağlıdır. May ayının 10-da bu gün Türkiyənin cümhurbaşkanı olan Rəcəb Tayyib Ərdoğan qardaş ölkənin baş naziri kimi Ümummilli Liderimizi təbrik etmək üçün Bakıya gəlibdir. Onların sadə bir şəraitdə divanda əyləşib söhbətləşməsi həqiqətən tarixin yaddaşının nə qədər güclü olduğunu və bir də elə həmin illərdə bünövrəsi qoyulan bir dostluğun -. qardaşlığın da göstəricisidir.

Kitabxananın Akademik zalında keçirilən keçirilən möhtəşəm tədbirdə giriş sözü ilə çıxış edib iştirakçıları salamlayan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli vurğuladı ki, biz Heydər Əliyev ilində çoxlu sayda tədbirlər keçirmişik.

Bugünki tədbir isə xüsusilə önəmlidir. Çünki biz Ulu Öndər ömrünün xronikası ilə bir daha tanış oluruq.

Kitabla bağlı fikirlərini bildirən Aynur Bəşirli öz təəssüratını bölüşərkən bir məqamı qabartdı. Bildirdi ki, o, vəfa borcunu yerinə yetirib, bir jurnalist, bir tədqiqatçı, bir alim kimi tariximizə töhfəsini veribdir.

Mən qonaqlar arasında şair-publisist Sona xanım Çərkəzlə də qarşılaşdım. O, mənə bildirdi ki," Aynur məqsədinə çatmaq üçün hər zaman inadkar olub, qarşısına qoyduğu məqsəddən onu çəkindirmək mümkün deyil. Bax, elə bu inadının bəhrəsidironun indi bizə təqdim etdiyi kitab."

**Bəli, tədbir təkcə qonaqların yox, həm də onu təşkil edənlərin bir-birinə olan və bütövlükdə isə Ulu Öndərimizə yönələn sevgisinin təntənəsi kimi də mənim yadımda qaldı. Düşünürəm ki, bu tədbirdə iştirak edən hər kəs, söz söyləyən akademik Yaqub Mahmudov, YAP-ın Ağsaqqallar Şurasının sədri Arif Rəhimzadə, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin sektor müdiri Tahir Kərimov və digərlərinin fikirləri uzun zaman yaddaşlarda qalacaq.**

**Əbülfət Mədətoğlu**



# Bakı Metrosundakı qatarlarda yazılan «Mıtişi» nədir?

**Metro mənim gündəlik qayğılarımdan biridir. Basabas, 15 dəqiqəyə gedə biləcəyim yolu bu basabasın sayəsində bəzən 1 saata getdiyim, xalqımızı daha çox bu basabaslarda tanıdığım nəqliyyat vasitəsi.**

Açıq desəm, bezmişəm, amma üç gün metroya minməyəndə darıxmağa başlayıram. Çox vaxt eyni adamlarla eyni vaxtda qarşılaşırıq. Onlara özlüyümdə metro yoldaşlarım deyirəm.

Mən simvollara ilişib qalan adam olduğum üçün uzun müddətdir vaqonun başında "Mıtihi" yazısına ilişib qalmışam. Nədir bu Mıtişi? Kimdir bu Mıtişi? Bəlkə hər gün mindiyimiz bu vaqonları yaradan odur?

Elə basabasdaca telefonu açıb axtarmağa başladım. İlk çıxan yazıda Mıtişçinin şəhər olduğunu bildim. Mıtişi Moskva vilayətinin ən dinamik inkişaf edən rayonlarından biridir, sənayesi maşınqayırma və metal emalı, cihazqayırma, tikinti və bitirmə materiallarının istehsalı, yüngül və yeyinti sənayesi və s.



kimi iqtisadi əhəmiyyətli sahələrlə təmsil olunur. Rayonda 4500-dən çox müxtəlif formalı sahibkarlıq subyekti fəaliyyət göstərir ki, onlardan 30-dan çoxu iri və orta sənaye müəssisələridir. Bunlar şəhərin ümumi məlumatlarıdır. Amma şəhərlə bağlı qarşıma çıxan nəhəng Samovar abidəsi məni təəccübləndirdi. Deyirəm axı, nəsə bir doğmalıq olmalıdır bu şəhərlə. Vasili Perovun "Moskva yaxınlığındakı Mıtışidə çay süfrəsi" rəsm əsəri də haqlı olaraq Moskva vilayətinin incisi adlandırıla bilən şəhərin simvollarından biri imiş. Sən demə, burada Kamil Bayramovun rəhbərlik etdiyi Mıtişi Azərbaycanlıları Milli-Mədəni Muxtariyyəti də mövcuddur.

İosif Stalinin Mıtişidə "Lipki-Alekseevskoye" malikanəsi var imiş Bu malikanə 19-cu əsrdə inşa edilib. İosif Stalin bu malikanədə 1932-1934-cü illərdə yaşayıb. Sonralar isə obyekt dövlət daçası kimi istifadə olunmağa başlanıb, 1989-cu ildə isə bu ərazidə ağır xəstəlikləri olan uşaqlar üçün reabilitasiya mərkəzi yerləşdirilib. 2023-cü ildə isə 403,5 milyon rubla şirkətlərin birinə satılıb. Qarşıma çıxan kri-



minal xəbərlərdən anladım ki, bu şəhərin başı o qədər də dinc deyil. Azərbaycanlı bir iş adamının (ki, ona "pomidor kralı" deyirmişlər) adı rüşvət qalmaqalında hallanıb. Nə isə, bunun üstündən keçirəm, başım ağrımasın. Xülasə, bu qatarlar Mıtişidən gətirilirmiş. Rayon ilk dəfə 1460-cı ildə Mıtişe kəndi kimi xatırlanırmış (19-cu əsrdən - Bolşiye Mıtışi). Adı Yauzadan Klyazmaya qatarla səyahət edən treyderlərdən alınan gömrük rüsumundan gəlir. 266 minə yaxın da əhalisi varmış.

Belə...

**Hər gün gözümüzə sataşan, amma fikir vermədiyimiz adlardan biri haqqında bu yazını oxudunuzsa, növbəti yazılarımı gözləyin. Məncə, artıq qatara minəndə "Mıtişi" yazısını görəndə nə laqeyd qalacaqsınız, nə də çaş-baş.**

**Eminquey**



*Əbülfət MƏDƏTOĞLU*

# HƏR YAŞIN ÖZƏLLİYİ

## Onun , yəqin ki 65-də dəxli var...

*Yəqin sizdə də belədi, yola saldığımız və yaxud arxada qalan hər şey üçün bir qəribsəməkhissi yaşayırıq. Yəni mən ömrümün demək olar ki, son illərində daha çox qəribsəməyə başlamışam. Xüsusilə doğulduğum torpaq üçün... dünyasını dəyişmiş dostlarım, doğmalarım üçün... görə bilmədiyim yerlər üçün... ələqə qura bilmədiyim həmfikirlərim üçün... bir də təbii ki,itirdiyim zaman üçün... Bax, bu mənada dostlardan, doğmalardan, oxuculardan 65 yaşımla bağlı eşitdiyim, aldığım,oxuduğum bütün xoş sözlər məni bir az da çox kövrəldib, məni bir az da çox qəribliyə çəkibdir...*

*Hələ orta məktəbdə oxuyanda kəndimizdə yaşca özümdən böyüklərə bir qəribə maraqla, nəzərlərlə baxırdım.Düşünürdüm ki, filankəsin 60 yaşı var, 70 yaşı var, 90 yaşı var... Vədüşünürdüm ki, bu 60-ı, 70-i, 80-ni necə yaşayıblar, necə yaşamaq olar? İndi həmino düşüncəmə, o münasibətimə görə, daxilən özümdən utanıram, öz sadəlöhvlüyümə görə özümü qınayıram. Sən demə, yaşamaq olurmuş. Doğrudur, kəndimdə barəsində düşündüyüm adamlar həqiqətən yaşayıblar o illəri. Mən isə bu 60 ilin düz 28ilini ağrı-acıyla, xatirələrlə, həsrətlə, nisgillə, necə deyərlər, tikan üstündə yaşadım, daha doğrusu, mövcud oldum. Çünki gözümü açanda gördüklərimin hamısından uzaq düşdüm. Özü də könüllü yox, silah gücünə... yaralarımdan qan axa-axa... Və indi bütün bunları düşünə-düşünə 65-in necə gəlib keçdiyindən xəbərsizəm deyə bilmirəm. Çünki dediyim həmin zaman kəsiyi səhəri mənə kipriklərimlə açmaq,gecəni dağı arana daşımaq işgəncəsi yaşadıbdı. Hətta elə anlar olub ki, "bu gün sondu, bu gün hər şey bitər!" - deyə düşünmüşəm. Lakin Tanrı iradəsi hər şeydənvə hər kəsdən güclü olduğuna görə, mənim çıxardığım qərar, mənim inandığım nəticə havada qalıbdı...*

*Və mənindi hələ 60 yaşın notları üzərində nə qədər özümü kökləsəm də 60-ın içərisindəki 28 daha güclüdür. Onun səsi daha bərk çıxır... onun ötkəmliyi daha çox hiss olunur. Ona görə ki onda Qarabağ azad olunmamışdı! Onda Şuşa, Xankəndi, doğulduğum TUĞ kəndinə SƏN AZADSAN!!! - deməmişdi Ali Baş Komandan! Bu səbəbdən də yazmışdım ki:*

*İndi*
*əlim çənədə,*
*gözlərim pəncərədə,*
*xəyalım uzaqlarda...*
*səhərdən*
*çıxıb getmişəm*
*lap yaxşı etmişəm -*
*bu şəhərdən...*
*Tuğdayam*
*qurşağa qədər*
*qarın içində -*
*dağdayam...*
*istəyirəm*
*qar kimi*
*xışmalayam zamanı...*
*saxlayam*
*barmaqlarımın arasında!*
*İstəyirəm qayalardan sallaşan*
*buz sırasında*
*yer tutmaq,*
*unudulmaq*
*səndən başqa*
*hamını!*
*Amma*
*bir Allah görür*
*bir də sən*
*harda olduğumu*
*bu qarın içində*
*hıçqırıqlara boğulduğumu...*
*... şəhərdə*
*əslində*
*dörd divardan ibarət*
*dibçəkdə yaşamaq*
*mövcud olmaqdı...*
*Tuğda -*
*qurşağa qədər*
*qarın içində*
*buz-daş olmaq*
*yaşamaqdı, yaşamaq...*
*İndi əl çənədə*
*göz pəncərədə*
*ad günümdə*
*süfrə başında*
*oturub*
*geri qayıtmağımı*
*gözləyir*
*sakitcə uşaqlarım*
*hələ də...*

***

*Yeni il... Əslində bu təqvim dəyişməyidi. Yenə həmin işləri görürük... yenə həmin yollardan keçib gedirik... yenə əlimizdə bazar zənbili,meyvə- tərəvəz köşkünə, çörək dükanına üz tuturuq... Deyəcəksiniz ki, min illərdibu belədi, belə də olacaq. Amma səbrli olsanız, mənim də, sizin də bildiyiniz həmin o gerçəyə iynə ucu boyda bir əlavə edərdim. Deyərdim ki, min illərin həqiqətinin zamana, cəmiyyətə uyğunlaşması bizə belə bir fikir söyləmək imkanı verir ki,guya heç nə dəyişməyib tarixin təqvim səhifəsindən başqa. Yox, gəlin razılaşaqki, bu təqvim əhvalımızda da, səhhətimizdə də, lap elə bazar zənbilimizdə də özünü göstərir. Sadəcə, biz eyni harmoniyanın, eyni hadisələrin içərisində yaşadığımızdan bunu hiss etmirik, ya da hiss etmək istəmirik. Bax, ona görə dəbiz hər birimiz ayrı-ayrılıqda və yaxud toplum halında "nə dəyişib?" sualını etinasızlıqla qarşılayır və yola da veririk... Bütün bu dediklərimi, bu yazdıqlarımı özüm-özümə bir sual olaraq zaman-zaman ünvanlamışam. 65 yaşın tamamında isə onu daha kəskin bir şəkildə özümə tuşladım. Və onda birmənalı şəkildə dərk etdim ki, sən demə, təqvimlərin yuvarlaq olan məqamları, yəni onun insana ötürülməsi həmişə düşündürücü məqamlar qoyur qarşıya. Bax, şəxsən mən 65 illiklə bağlı qurduğum xəyalı, etdiyim duaları, yaşadıqlarımı, gözləntilərimi və bütövlükdə mənə olan münasibəti məhz bu zaman kəsiyində, məhz bu doğumgünündə yetərincə gördüm, duydum, yaşadım. Çevrəmdə olanların çevrəsində olduğunu və yaxud olmadığını da gördüm.Diqqət, sevgi yönəltdiyim kəslərin mənadiqqət və sevgilərin olub-olmadıqlarınıda aydınlaşdırdım. Ümumiyyətlə, dayandığım müstəvidə cəmiyyət üçün, ailəmüçün, dostlarım üçün, Allah üçün, həm də sənin üçün kim olduğumu dərk etdim.Gördüm və qəbul etdim ki, mənim bu məmləkətdə, bu cəmiyyətdə, bu camiyədə, bukollektivdə yerim hardadı... mənə olan münasibətin ölçüsü nə qədərdi... vəümumiyyətlə, mən bu dediklərim üçün kiməm?! Hər halda, sualın və yaxud dafikrin yozumu hər kəsin öz ixtiyarındadı. Mən tam mənada anladığım isə odur ki,iki ayağın ola-ola bir ayağımın üstündə dayanmaq həm özünün özünə, həm də sənibu formaya, bu şəklə salanlara acı bir gülüşündü, istehzandı. Sən demə, bu həyatın ən böyük mükafatı elə onun istehzası imiş. Ona görə də 65 yaşın şeirini yazanda ağlıma bu fikir gəldi:*

*Döyür ağır-ağır, döyür aramla*
*Həm addım səsiylə, həm nəfəsiylə...*
*Əlimi sıxmağa qərar veribdi -*
*Daha açıq-aşkar bəy həvəsiylə-*
*65...*

*Yolun düzdən salıb, dağdan enibdi*
*Duman da bürünüb, arada çən də...*
*Yerimi görəsən hardan bilibdi -*
*Durub görüşümə gəlibdi kəndə -*
*65.*

*Ağır taxtalıdı, baxanda belə*
*Dillənib söyləmir bir kəlmə "yox, hə"!*
*Maraqdan girincəm özüm də elə -*
*Məndə bəyənməli nə görübdü, nə -*
*65?*

*Gəlibdi, qoy olsun Allah qonağı*
*Durram qulluğunda bir il də onun!*
*Var mənim ömrümdə qonaq otağı -*
*Orda qarşılayar özünün sonun -*
*65!..*

*Bəli, həyatın gerçək üzü heç nəyin geri dönməyəcəyidi..*

*Hər kəsə bəllidir ki, bu günün real mənzərəsi iqtisadi və sosial problemlərdi. Biz o qədər bu problemlə yüklənirik ki, mənəvi aşınmamız hiss olunmur. Bizə elə gəlir ki, hərşey yerindədi. Sadəcə çatmayan maddi ehtiyaclardı. Amma...*

*Amma düşdüyümüz şərait, qarşılaşdığım həmsöhbətlər bəzən səviyyə baxımından maddiyyatı üstələyə bilir. Və onda maddiyyat uğrunda çarpışmamızdan sıxılırıq,özümüzü qınayırıq. Hətta nələri unutduğumuzu, nələrdən yan keçdiyimizi yaddaşımıza yazıb onlarla məşğul olacağımızı düşünürük. Təəssüf ki, bu da bir an çəkir... təəssüf ki, yenə çax-çax öz işini görür. Mən də elə bu 65 illik məqamın vərəqlərini çevirdikcə həmin o unutduqlarım, yanından keçdiklərim önündə susdum.Bu da bir növ üzrxahlığım idi özümün-özümdən.Nə isə...*

*Hə, bütün olanların və yaşananların içərisində həran mənimlə çiyin-çiyinə dayanan, məni tərk etməyən və daha çox sığındığım hisslərvar ki, onları mən özüm də zaman-zaman sözə, misraya çevirmişəm. Və beləcə, dərdimi,sevincimi özümlə, qələmimlə bölüşmək istəmişəm. Hətta 65 yaşımın ilk şeirində də o dərdləri, o qəmləri unutmaq ağlıma gəlməyib.*

***

*Bəli,2023-lə VİDA və təbii ki , 2024-ə " Xoş gəldin!" ... Bütünlüklə bunları üz-üzə gətirib bir müstəvidə görüşdürəndə ilk ağlıma gələn bu oldu ki, yaşadıqlarım alın yazımdı, taleyimdi. Və mən bu alın yazıma, bu taleyimə əsir düşmüşəm. Onun nazıyla oynamaq, onun yükünü çəkmək boynumun haqqıdı. Və deməli, bu taleyin, bu yazının işığı da, zülməti də qaçılmazdı. Və bir də yaşadığım 60 ilin heç olmasa bir həftəsi, lap elə bir günü insanlığa, ətrafımda olanlara yaxşı nəsə veribsə, deməli, 65-ın alın yazısı olması sevindiricidi.*

*O ki,qaldı sənə... Sən də düşün ki, bu 65 ilin kinoversiyasının baş qəhrəmanı sənsən!!!*

*Və birdə , etiraf edim ki, , mənim 65 yaşımın oxuculara, "Ədalət"ə nə verdiyini, oxuculara və "Ədalət"ə nə qədər gərəkli olduğumu bilmirəm. Bəlkə də bu barədə düşünməyim də yersizdi. Amma mən əlimi ürəyiminüstünə qoyub deyirəm ki, oxucuları da, "Ədalət"i də çox sevirəm. Qarşı tərəf , həmişəki kimi öz seçimində sərbəstdi...*

# FLORA QASIMOVA:

# XANKƏNDİNƏ QAYIDIŞI GÖZLƏYİRƏM

*Onunla görüşümün əsl səbəbkarı tanınmış jurnalist Vasif Quliyev oldu. Sözarası dedi ki, ilin sonu Flora xanımın doğum günüdür, bəlkə , onunla bir söhbət edəsən. Ağzım nəydi ki, Vasifin sözündən çıxım, təbii ki, razılaşdım.*

*Ertəsi günü elə Vasifin rəhbərlik etdiyi "Şuşa" qəzetinin redaksiyasında Flora xanımla öncə otuz il əvvələ getdik, eyni ağrını paylaşdığımızdan xeyli dərdləşdik. Sonra 44 günlük müharibəyə gəldik və nəhayət, Xankəndində "Qarabağ"ın stadiona çıxmasından və futbol bayramından danışdıq.*

*Burda bir məqamı xüsusi qeyd etməliyəm. Flora xanımı Azərbaycanın Milli Qəhrəmanı, hər birmizin yaddaşına köçmüş Şirin Mirzəyevin ömür-gün yoldaşı kimi tanıyırlar. Mən də Şirin Mirzəyevlə həmsöhbət olmuşam, hətta ondan müsahibə də almışam. Hətta komandiri olduğu hərbi hissənin həyətində onun necə qaynarlıqla, az qala çılğıncasına baş verənlərə reaksiyasını da izləmişəm. Ona görə də Flora xanımla söhbət etmək, məni həm də o müqəddəs ruhun ziyarətinə aparırdı və deməli...*

***Haşiyə: Flora Qasım qızı Qasımova 1947-ci il dekabrın 27-də Xankəndi şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olub. Və təhsilini başa vurduqdan sonra da bir vaxtlar oxuduğu məktəbə müəllim kimi qayıdıb. Öncə Xankəndi rayonunun Badara kənd orta məktəbində, sonra vilayət mərkəzindəki 4 nömrəli orta məktəbdə müəllim, tədris hissə müdiri və sonra da ictimai vəzifələr. Yəni, dövlət qurumlarında çalışıbdı. Həyat elə gətirib ki, Flora xanım 1977-ci ildən Bakı şəhərində müəllim kimi fəaliyyət göstərməyə başlayıb.. Lakin doğulduğu torpaq və bir də təbii ki, həyatın qanunları onu yenidən Xankəndinə qaytarıb və o, burda Şirin Mirzəyevlə ailə həyatı qurub. Və bir də 1994-cü ildən sonra Flora xanımın qaçqın həyatı Bakı ilə bağlanıb. Yəni, o, 4-cü və 5-ci çağırış Milli Məclisin deputatı olub. İki övladı var.***

***Bəli, mən Flora xanımla söhbətə təbii ki, onun doğulduğu şəhərlə bağlı xatirələrdən başladım:***

**- Otuz il bundan öncəni necə xatırlayırsınız, Xankəndi yuxunuza girirdimi?**

- Təbii ki, hər kəs doğulduğu ocağa, elə-obaya bağlı olur, kimi az, kimi çox. Amma mən Xankəndinə həm doğulduğum yer kimi, həm ilk iş yerim kimi , həm də ailə həyatımın ünvanı kimi bağlıyam. Ona görə də Xankəndində oxuduğum illər, sinif yoldaşlarım, müəllimlərim, daha sonra birlikdə çalışdığım insanlar demək olar ki, bütün xatirələrimin baş qəhrəmanlarıdır. Doğrudur, qaçqınlıq bizləri bir-birimizdən uzaq saldı, pərən-pərən düşdük. Lakin mənim bəxtim onda gətirdi ki, Parlamentə seçiləndən sonra təmsilçisi olduğum Xankəndi dairəsinin sakinləri ilə, deməli, həm də öz doğmalarım ilə tez-tez görüşmək imkanı qazandım. Onların şən və kədərli günlərində yanlarında oldum. Bu da xatirələrimi diri saxladı, onları həmişəyaşar elədi. İndinin özündə də həmyerlilərimlə görüşəndə mütləq hansısa bir hadisəni xatırlayır, hansısa bir yaddaşımızı təzələyirik. Ən çox məni üzən Xankəndinin işğalı oldu...





**- Niyə məhz Xankəndinin?**

- Bilirsiniz, mən müəlliməm, şagirdlərimin yaşadığı həyəcanlı anlar, onların qorxudan hədəqəsindən çıxan gözləri indi də mənim üçün çox dəhşətli bir mənzərədir. Şükürlər olsun ki, biz otuz illik həsrətə son qoyduq. Dəmir yumruq nəhayət ki, əyilmiş qəddimizi düzəltdi, çəkdiyimiz həsrətə, yaşadığımız acılara nida qoydu. Ali Baş Komandanımızın dediyi kimi, "Qarabağ Azərbaycandır!". Burda onu da qeyd etməliyəm ki, Azərbaycan xalqı üçün Xolcalı faciəsi müdhiş bir ağrıdır. O yaranı əsrlər də bizə unutdura bilməz. Sadəcə mən Xankəndində o ağrıacını yaşadıqdan sonra Ağdama köçüb orda qrad yağışının altında baş verənləri izlədiyimdən Xankəndindəki şagirdlərimin yaşantıları məni heç vaxt tərk etməyib.

**- Flora xanım, siz əfsanəvi qəhrəman, unudulmaz Şirin Mirzəyevin həyat yoldaşı olmusunuz. Bu xalq qəhrəmanı ilə bağlı nəyi yada salmaq istərdiniz?**

- Bilirsiniz, mən Şirinlə bir məktəbdə, bir sinifdə oxumuşam. Həmin illərdə şagirdlərin əlindən kitab düşmürdü. Məktəbin, şəhərin kitabxanası ən gür yer idi. bizim kitabxanada Qənirə xanım adlı yaşlı bir qadın çalışırdı, o bizi görəndə "təzə kitab gəlməyib" deməklə bizi artıq vaxt almaqdan bir növ xilas edirdi. Onsuz da əl çəkmirdik, təkrar oxuduğumuz kitablara qayıdırdıq. Şirin orta məktəbdən sonra arzusunda olduğu hərbi məktəbə üz tutdu, siyasi hərbi akademiyanı bitirdi, mən də riyaziyyat müəllimi oldum. Qarabağ hadisələri başlayanda Şirin Moskvada xidmətini yarımçıq qoyub Vətənə qayıtdı. Və onun sonrakı taleyi, həyatı da xalqımıza məlumdur. Bircə onu demək istəyirəm ki, Şirin baş verənləri sanki öncədən görürdü, ona görə də təcili olaraq milli ordunun yaradılmasını istəyirdi. O da bunu az-çox öz gücünə etdi.

**- Flora xanım, siz bir pedaqoq kimi bugünki təhsilinizdən, ümumiyyətlə, məktəblərimizdə baş verənlərdən yəqin ki, xəbərdarsınız. Bu məsələyə münasibətiniz necədir?**

- Doğrusu, mən təhsildə aparılan islahatları alqışlayıram. Amma bəzən elə şeylərin şahidi oluram ki, onunla barışmıram və yaxud da bunun niyə baş verdiyini qəbul etmirəm. Sanki təhsil ikinci plana keçib. Düzdür, bizim üçün bir nömrəli vəzifə torpaqlarımızın azad edilməsi idi, amma millətin gələcəyi təhsildən, məktəbdən keçdiyi üçün ona da çox ciddi yanaşmaq lazımdır. Çünki şagirdlərin məktəbdən, sinifdən kənarda müəllim yanına getməsi, yalnız bir ixtisasa aid olan fənləri öyrənməyə, hətta əzbərləməyə maraq göstərməsi heç də yaxşı hal deyil. Ona görə mən bugünki müəllimlərimizin vəziyyətini anlayıram, onlara münasibəti başa düşürəm. Lakin bu sahədə mütləq ciddi addımlar atılmalıdır. İnanıram ki, ölkə prezidenti mütləq bu sahəyə diqqət yetirəcək. Və təhsilimiz öz istədiyimiz səviyyəyə qayıdacaq. Bəzilərinin dediyi kimi, aparılan eksperimentlər nəhayət ki, sona çatacaq. Unutmamalıyıq ki, bizim təhsilimizin möhkəm bünövrəsi, gözəl ənənələri olub.

**- Flora xanım, artıq bütün Azərbaycan Qarabağda keçirilən futbol bayramının şahidi oldu. "Qarabağ" öz meydanında oynadı. Və siz təbii ki, həmin oyunu da elə Xankəndinin özündə seyr etdiniz.**

- Bəli, Şuşa işğaldan azad edildikdən sonra Qarabağda olmaq, o uzun ayrılığın acısından qurtarmaq xoşbəxtliyini mən də yaşadım. Cıdır düzündən Xankəndinə baxdım, onda daxilimdə sevincim tam deyildi. Elə bil ki, yarımçıq bir məqamda ilişib qalmışdım. Şükürlər olsun ki, antiterror əməliyyatı mənim sevincimi bütövləşdirdi. Televiziya kanallarında Xankəndinin bugünki mənzərələrini izlədim. Elə Ali Baş Komandanımız Xankəndinə bayraq sancanda yaşadıqlarımı sözə çevirsəm , onda necə xoşbəxt olduğumu yəqin ki, siz də qəbul edərsiniz. Bax, bu mənada keçirilən oyun da, Xankəndində görülən işlər də mənim və bütövlükdə Xankəndinə, onun ətraf kəndlərinə qayıdacaq adamlar üçün bir növü açılan qapı idi. Mən şəhəri ekrandan seyr etdikcə uşaqlığımı, gəncliyimi o küçələrdə, o yerlərdə təkrar gördüm, təkrar xatırladım. Sağ olsun Ali Baş Komandanımız ki bizi bu xoşbəxtliyə qovuşdurdu.

**- Son olaraq, bir məqama da sizdən münasibət öyrənmək istərdim. Xankəndinin sabahını, ordakı həyatı necə təsəvvür edirsiniz?**

- Bilirəm nəyə işarə edirsiniz. Aldığım məlumatlara görə, ermənilər qapılarını bağlayıb , üz tutublar İrəvana. Amma bu . heç də o demək deyil ki, biz onların qayıdışını gözləyəcəyik. Biz evlərimizə, şəhərimizə qayıdacağıq. Onlar bizimlə necə yaşayacaqlar, qoy özləri düşünsünlər. Bizim ağrılarımız, itkilərimiz nə qədər böyük olsa da, biz torpağımızı geri almışıq, evimizi geri qaytarmışıq. Ona görə də heç nəyi gözə almadan mütləq öz evlərimizin işıqlarını yandıracağıq. Orda yeni istehsal sahələri, iş yerləri, ali məktəblər fəaliyyət göstərəcək. Dalğalanan bayrağımızın altında biz özümüz dayanacağıq. Kim qanunlarımıza sayğı göstərsə, vətəndaşlığımızı qəbul etsə, onunla gələcək həyatın müzakirəsini etmək olar. İndiki halda isə bir gerçəklik var, onu birmənalı qəbul etməliyik. Bu da Ali Baş Komandanın Dəmir yumruğu və bir də Qarabağın Azərbaycanın olmasıdır.

... Biz Flora xanımla bir çox mətləblərə toxunan söhbətlər etdik. Amma mən o söhbətlərin fonunda əmin olduğum bu oldu ki, Flora xanım da bütün qaçqınlıq həyatı yaşayan soydaşlarımız kimi Xankəndinə qayıtmaq növbəsini gözləyir. Yolunuz açıq olsun, Flora xanım!

**Müsahibəni apardı:**
**Əbülfət Mədətoğlu**



*İbrahim YUSİFOĞLU,*
*AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı*

ASİM YADİGAR - 70

# Bəndəsi olduğu sözün önündə Həmişə ucadı Asim Yadigar

**Hər bir yubiley tədbiri, hər bir görüş yeni səs, yeni nəfəs deməkdir. Yeni nəfəs isə bahar ətrili, bahar qoxulu olur, qəlbləri oyadır, istəkləri təzələyir, xoş əhval-ruhiyyə, ovqat yaradır.**

Yaradıcılığına 50 ildən artıq bir dövrdə bələd olduğum, şeirlərini əlyazmaları halında, qəzet və jurnalların səhifələrində, toplu və kitablarından oxuduğum Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin Sədri, Naxçıvan MK Ali Məclisinin deputatı, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi, "Tərəqqi" medallı, prezident təqaüdçüsü, "Azərbaycan" jurnalının redaksiya heyətinin üzvü şair-publisist Asim Yadigarm 70 illik yubileyi qış günündə qəlbimizi yaz havasına köklədi.

Mən bunu çoxdan, lap çoxdan hiss etmişəm ki, Asim Yadigar üçün poeziya ömrünün ən kövrək çağlarında ülvi duyğularıyla onu görüşdürən ilahi quvvədir!

Poeziya... Üzdə duyğulu-kədərli, düşüncəli; daxildə dağ çayı kimi üsyankar ömür dostudur Asim Yadigarın!

Şam kimi yanıbdır bu ilahi qüvvəni qoruyub saxlamaq üçün. Səmasında dahi Nizami ulduzu yanan, Füzuli günəşi nur saçan, Məmməd Araz şeriyyəti səslənən bir dünyaya ucuz söz gətirmək istəməyibdir Asim Yadigar!

Şair qəlbinin dərinliklərindən süzülüb gələn, "bir bala ceyranın gözündən duru" misralı şeirlərin müəllifi olan Asim Yadigar nədən yazırsa-yazsın Vətəndən, anadan, təbiətdən, kövrək baxışlı balaların pıçıltılarından onun şeirlərinin mayasını təmiz və ülvi məhəbbət təşkil edir.

Bu məhəbbət isə tükənməzdir, sonsuzdur. Bu tükənməyən məhəbbəti, bu sonsuz qayğını onun sevinli oxucuları, biz qələm sahibləri daha çox görmüş, daha çox duymuşuq.

Asim Yadigar Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (indiki Naxçıvan DU)Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə bitirdikdən sonra 7 il kənd məktəbində müəllim işləmiş, 1982-ci ildən 1989-cu ilə kimi Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan bölməsində məsləhətçi, televiziya və Radio verilişləri komitəsində baş redaktor vəzifələrində çalışmışdır. 2007-ci ilin yanvar ayından bu günədək Naxçıvan Yazıçılar Birliyinin sədridir. Naxçıvan Yazıçılar Birliyinin bazasının möhkəmlənməsində, rayonlarda əbədi birliklərin yaranmasında, fəaliyyətində xüsusi yeri olan Naxçıvan Yazıçılar Birliyinin sədri kimi Asim Yadigarın əməyi əvəsizdir. Naxçıvan MR-də yaşayan, yazıb-yaradan qələm sahiblərinin əsərlərindən ibarət nəşr olunan "Araz" seriyalı almanaxlarda, "Dünyanın bəzəyi", "Dostluq tövhəsi", "Uşaqlar və günəş", "Naxşıvanım-göz nurum" adlı kitablarda birliyinin üzlərinin yaradıcılıqlarından nümunələrə Asim Yadiyar səxavətlə yer ayrır. İstedadlı gənclərə "Uğurlu yol" yazır, kitablarına redaktorluq edir, yaradıcılıq gecələrini təşkil edir. Hətta, vaxt tapıb əbədi-birlik məşğələlərində iştirak edir, oxunan bədii yazılara münasibətini bildirir, tövsiyələrini verir.



Şair dostumuzun yaradıcılıq yollarında ilk böyük uğuru 1988-ci ildə "Yazıçı nəşriyyatında çap olunan "Zirvə yolu" kitabıdır. Bu kitabdan sonra Asim Yadigarın 20-dən artıq şeirlər, poemalar kitabı işıq üzü görübdür. "Seçilmiş əsərləri"nin 3-cü cildi ilə tezliklə oxucuların görüşünə gələcəkdir.

Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin "Azərbaycan dünyaya Günəş kimi doğacaq" müdrik kəlamını öz şeirinə epiqraf seçən A.Yadigar sabaha inamla, dahi rəhbərə tükənməz məhəbbətlə yazır:

***Dalğalanır bayrağım, köksümə sığmır ürək,***
***Qəlbim toy libasında, bu toyu çaldıran var.***
***Öz-özünə qalxmayıb, ucalmayıb o Bayraq,***
***O bayrağı bayraqtək ucaldan, qaldıran var.***

"Azərbaycan bayrağı", "Bir bayraq altında...", Fəxri xiyabanda düşüncələr", "Hücum əmri ver mənə" kimi şeirlərində ulu rəhbərimiz Heydər Əliyevə, Azərbaycan xalqının dövlət atributlarına, Vətənə, onun hər qarış torpağına böyük səmimiyyət duyulur.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Ali Məclisin deputatı, istedadlı şair-publisist Asim yadigarın 70 yaşı tamam olur. Özünün yazdığı kimi çiçək zərifliyini, çiçək kövrəkliyini bayraq kimi başı üzərinə qaldırıb, könül varı ilə - şeirləri ilə bundan sonra da hələ neçə-neçə kitablarıyla görüşümüzə gələcəkdir. Hər bir şeiri könlümüzü ovudacaq, hər bir misrası, hər bir bəndi dodaqlarımızda səslənəcəkdir.

Bir daha qeyd etmək istəyirəm ki, Asim Yadigar şairdir. Ulu Tanrı tərəfindən tükənməyən ilham bəxş olunan şair! İstedadı və şeriyyəti ilə poeziya dünyasında özünəlayiq yer tutan şairin misraları ləl, şeirləri sərvət, kitabları ən qiymətli hədiyyədir. Ad gününü qeyd etmək isə ən böyük sevinc, fərəhdir. Belə bir sevincli gundə ürək sözlərimi yubilyara həsr etdıyim şeirlə bıtirirəm:

## SÖZÜM ÇİÇƏKLƏYİB

***Şərur mahalında gəldin dunyaya,***
***Həyatda ilk izin bu yerlərdədi.***
***Sığmadın günlərə, sığmadın aya,***
***Ömrünün hər anı şeirlərdədi.***

***Döndü xatirəyə məktəb illəri,***
***Qovuşdun sevimli tələbəliklə.***
***Dindi urəyinin kövrək telləri,***
***Ötüşdii günlərin qələbəliklə.***

***Sən sözlə oynadın, bəşəri sözlə,***
***Sözə ürək dostu, sirdaş söylədin.***
***Kozlü sözlərinlə, sozlu gozünlə,***
***Koksünu nəfsindən uzaq eylədin.***

***Talenin aramsız zərbələrindən,***
***Qapın döyəcləndi yağış, doluyla.***
***Qorxmayıb zamanın hərbələrindən,***
***Yol etdin zirvəyə "Zirvə yolu"yla.***

***Yay kimi gərildin, körün alışdın,***
***Sözə, söz deməyə dəyisdi yönün.***
***Yeni kitabında sözlə barışdın,***
***"Unut bu sevdanı...", başına dönüm.***

***Qanınla yazdığın "Torpaq davası",***
***Əsgərtək döyüşdü acgoz yağıyla.***
***Şəhid atasının şəhid balası,***
***Qayıtdı evinə "Oğul dağı"yla.***

***"Hər şeyin sonu var" - son qoydun qəmə,***
***Arazdan adlayıb Təbrizə getdin.***
***Gözlərin sevincdən bələndi nəmə,***
***Ulu Şəhriyarı ziyarət etdin.***

***Çiçək kimi kövrək, zərif seirlər,***
***Sənin sərvətindi, sənin varındı.***
***Bunu mən demirəm, bunu deyirlər,***
***Əldən-ələ gəzən kitablarındı.***

***Sözüm çiçəkləyib bu qıs giinündə,***
***Hələ ətir saçan arzularım var:***
***Bəndəsi olduğun sözün önündə,***
***Həmişə uca ol, Asim Yadigar!***

# Məşhurlar üçün bu il necə yadda qalıb?

**Bildiyimiz kimi bir neçə gündən sonra 2023-cü ili geridə qoyub, 2024-cü ili qarşılayacağıq. Əlbəttə hər il olduğu kimi bu ilin də öz xatirələri var. Bu il kiminin yadında xoş, kiminin də yadında pis xatirələrə qaldı.**

Biz də "Ədalət" qəzeti olaraq aktyor və rejissorlardan bu illə bağlı xatirələrini soruşduq. Onlar da 2023-cü illə bağlı maraqlı fikirlərini bizimlə bölüşüblər:



**Rejissor Gümrah Ömər** 2023-cü ili bol yaradıcılıq uğurları əldə etdiyi il kimi qeyd edir:

"Teatr forumu keçirilməsi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi həmin təhsil ocağının müəllimi kimi məni də çox sevindirir. Ağdam Dram teatrı ilə yaradıcı əməkdaşlıq etməyi yaradıcılığımın ən maraqlı və məhsuldar hissəsi hesab edirəm. Mersin Beynəlxalq teatr festivalına qatılmağımız da xüsusi bir uğurdur."



**Əməkdar artist Elman Rəfiyev** də bu ili özü və kollektivi üçün uğurlu il hesab edir: "Bu il çox əlamətdar hadisələrlə yadda qaldı. Pantomima teatrı üçün uğurlu il oldu. Teatımızda hazırlanan Qoqolun "Şinel" əsəri "4.4 qısa tamaşalar" festivalında birinci yerə layiq görüldü. Hüseyn Cavidin doğum günü ərəfəsində teatrımız ədibin "İblis" əsərinə müraciət etdi. Düşünürəm ki, "İblis" böyük uğurla nümayiş olundu və tamaşaçılar tərəfindən sevildi. Qırğızıstanda keçirilən Çingiz Aytmatovun 95 illiyi ilə əlaqədar Çingiz Aytmatov festivalında "Gün var əsrə bərabər" əsərin əsasında hazırlanmış "Manqurt" əsəri ilə çıxış etdik. Ən gözəl plastik həll və ən gözəl tamaşaya görə diplomla təltif olundu.

Bu il Mədəniyyət nazirliyinin xətti ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Dövlət Pantomima Teatrı uğurlu tamaşaları ilə bölgələrdə tamaşaçıların qarşısına çıxdı"



**Əməkdar artisti Səbinə Hacıyeva** isə ili məişət problemləri ilə yola salsa da, yaradıcılıq uğurlarından danışmağı unutmadı:

"Bu il məişət qayğılarım olduqca çox oldu. Yəni mən bir aktrisa olmaqdan əlavə bir övlad və bir anayam. Yaradıcılığımla yanaşı bu məsələləri də həll etməliyəm. Lakin bütün bunlar bizi ruhdan salmır. Çünki mən sənətimi sevirəm. Bu il mənim üçün maraqlı, yaddaqalan anlardan biri Şuşaya səfərimiz oldu. Unudulmaz anlar idi. Qırğızıstanda "Manqurt" tamaşası ilə çıxış edib , qalib gəldik."



**Aktrisa Aygün Fətullayeva** isə bu illə bağlı səmimi fikirlərini bizimlə bölüşdü:

"2023-cü il yaşadığım ən gözəl illərdən biri idi. Təşəkkür və şükranlıq hisləriylə sağollaşıram bu illə. Həm də bir çox mövzularda təcrübə qazandığım illərdən biri kimi yaddaşımda qaldı."

**Əntiqə Kərimzadə**

# Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 50 (2374) 29 dekabr 2023-cü il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi


# SÖZÜN İŞIĞINDA...

**Biz dəfələrlə bu mövzuda yazılar qələm almışıq. Yazmışıq ki, sözdən qüdrətli, güclü və qüvvətli heç bir şey yoxdur. Əgər buna şübhə eləyənlər varsa, sadəcə olaraq dönüb keçmişə, tarixə baxsıınlar, görsünlər ki, söz qürətlidir, yoxsa hansısa bir dünyanı dağdan və altını üstünə çevirən nüvə silahı? Əlbəttə, dərindən düşünəndə o dəqiqə arif insan biləcək ki, bütün dünyanı silahla yox, yalnız sözlə fəth eləmək mümkündür.**

Heç şübhəsiz, hər hansı bir ölkədə hüquqi və dünyəvi dövlət qurulanda onun ilk atributları demokratiya, söz, mətbuat azadlığı, fikir pülrealizmidir. Bura düşüncə azadlığını da əlavə etsək, təbii ki, cəmiyyətin daha sağlam və daha yetkin olmağına kiminsə inamsızlığı qalmır. Bir çoxları elə təsəvvür edir ki, demokratiya dedikdə, hər şey nərzarətdən çıxmalıdır. Yəni, başqa sözlə demiş olsaq, demokratiya və fikir azadlığı o demək deyil ki, kimsə qanunları pozmalı, dövlətə və dövlətçiliyə zərbə vurmalı, bir sözlə, öz bildiyi kimi addım atmalıdır. Çox təəssüf ki, bizim cəmiyyətdə uzun müddət demokratiya və söz azadlığı olmadığına görə, bir çoxları bunu özbaşınalıq və anarxiya kimi anlayıblar. Amma demokratiya və söz azadlığı odur ki, orada qanunların aliliyi qorunur, cəmiyyət birmənalı olaraq, qanundan kənara çıxmır və özünü daha rahat və daha azad hiss edir.

Bir vaxtlar SSRİ dönəmində deyirdilər ki, Sovet rejimi də demokratik bir quruluşdur. Təbii ki, bu sözdə belə idi. Amma əsl həqiqətə gələndə, o dövrdə demokratiyadan, fikir azadlığından söhbət belə gedə bilməzdi. Hər hansı mətbuat dövləti, hököməti və yüksək vəzifəli bir məsul şəxsi icazəsiz tənqid etsəydi, təbii ki, onları çox böyük cəza gözləyə bilərdi. Ən azından ona görə ki, mətbuata, söz və fikir düşüncəsinə Mərkəzi Komitədə çox ciddi nəzarət var idi. Hətta həmin dövrdə çoxtirajlı qəzetlərə belə, nəzarət edilirdi. Belə ki, "qlavlitin" möhürü olmadan həmin qəzetlər heç vaxt çap edilməzdi. Çünki sistem belə qurulmuşdu və hər bir mətbuat orqanına nəzarət olunurdu.




Ancaq Azərbaycan müstəqililk dövrünə qədəm qoyduqdan sonra demək olar ki, 1990-cı illərdən başlayaraq, ölkəmizdə söz, mətbuat, fikir və düşüncə azadlığına münbit şərait yaradıldı. Başqa sözlə demiş olsaq, insanlar 70 ildə çəkdikləri sıxıntının və gərginliyin zaman-zaman geridə qaldığını gördülər.

Onlar gördülər ki, ölkəmizdə çox şəffaf bir abı-hava, mühit yaradılıb. Bu mühitdə isə hər bir müstəqil dövlətin vətəndaşı azad, sərbəst və rahat yaşayır. Müstəqil dövlətdə onlar söz, mətbuat və fikir azadlığına nail olublar. Bu isə o deməkdir ki, hər bir insan öz düşündüyünü heç nədən çəkinmədən, sərbəst şəkildə mətbuatda, yığıncaqda və digər kütləvi informasiya vasitələrində istifadə edə bilər. Bir zamanlar bir çox çətinliklər və bir çox problemlər yaşansa da, artıq illər keçdikcə cəmiyyət bu demokratik azadlığa alışdı.

Ulu Öndər Heydər Əliyevin hakimiyyət gəlməsindən sonra demək olar ki, ölkəmizdə bu sahədə çox böyük demokratik şərait yaradıldı. Ulu Öndər özü istər iqtidar, istərsə müxalifət qəzetlərinin əməkdaşlarını qəbul etdi, onlarla fikir mübadiləsi apardıı, demokratik mətbuatın inkişafı yolunda öz məsləhət və tövsiyələrini verdi. Tək Ulu Öndər Heydər Əliyev məsləhət verməklə öz işini bitmiş hesab etmədi, həm də dünya şöhrətli siyasətçi Azərbaycan mətbuatına maddi və mənəvi dəstək verdi. Eyni zamanda, uzun illər "Azərbaycan" Nəşriyyatına çap üçün borcu olan çoxlu sayda qəzetlərin borcları ləğv edildi. Bu isə o deməkdir ki, can verməkdə olan mətbuatımıza Prezident Heydər Əliyev tərəfindən yeni bir nəfəs verildi. Əgər bu nəfəs vaxtnda verilməsəydi, indi dövlət tərəfindən maddi dəstək görən çap mətbuatının hamısı nəşrini dayandırmışdı.

Yazıçı-publisist, Prezident təqaüdçüsü, 50 ilə yaxın pedaqoji sahədə çalışmış Səməndər Məmmədli deyir ki, mən bir oxucu olaraq, həmişə Azərbaycan mətbuatını izləmişəm, xüsusən də ictimai rəyə təsir edən, dövlətə və dövlətçiliyə xidmət göstərən qəzetlərimizi hər vaxt alıb oxumuşam. Görmüşəm ki, nə qədər sosial şəbəkə olsa, sayıtlar fəaliyyət göstərsə və televiziyalar həyatımıza təsir etsə də, onların heç biri qəzetin yerini verə bilmir.

Bu gün televiziyalara baxanda adam iyrənir. Sosial şəbəkələr və sayıtlar da bir o qədər ürəkaçan deyil. Amma yenə gözüm qəzeti axtarır. Bəzən istədiyim qəzeti yaşadığımız Yeni Günəşli sahəsindən tapa bilmirəm. Nə qədər çətin olsa da, gedib onu metronun "Xalqlar dostluğu" stansiaysının yanındakı köşklərdən alıram. Bilirsiniz niyə? Çünki qəzetlərdə yazılan çox şeylər dəqiqləşdirilir və ondan sonra qələmə alınır. Ancaq təəssüf ki, televiziya və sayıtlarda bəzi hallarda demokratiyadan istifadə olunaraq, dezinformasiya yayılır. Bu isə oxucunu aldadır. Ümumiyyətlə, mən bir ziyalı olaraq deyirəm ki, bir çoxları demokratiyadan, fikir azadlığından və düşüncə sərbəstliyindən sui istifadə edir. Bu yaxınlarda bir neçə jurnalistin həbs edilməsi onu göstərir ki, xaricdən maliyyələşdirilən həmin adamlar dövlətin və xalqın əleyhinə işləyir. Bayaq ediyim kimi, demokratiya və söz azadlığı o demək deyil ki, bundan bir çox halda Vətən xəyanət kimi də kimlərsə istifadə etməlidir.




**Bu gün Azərbaycanda mətbuat və söz azadlığına Prezident İlham Əliyev tərəfindən çox böyük qayğı və diqqət göstərilir. Onunla yanaşı, hər bir mətbuat orqanının demokratik və azad şəkildə fəaliyyət göstərməsi üçün çox münbit bir şərait vardır. Əlbəttə, belə bir şəraitdə nəinki mətbuat işçiləri, eləcə də hər bir Azərbaycan vətəndaşı özünü daha rahat və daha sakit hiss edir və cəmiyyətə öz xidmətini göstərir. Onu da qey edək ki, bu gün ölkəmizə xarici dövlətlərdən çoxlu sayda rəsmi şəxslər və qeyri-hökümət təşkilatlarının nümayəndələri gəlirlər. Onlar əlbəttə, ilk növbədə cəmiyyətimizdə gedən demokratik proseslər, söz və mətbuat azadlığı ilə maraqlanırlar. Əlbəttə, bu gün ölkəmizdə yaranmış sağlam mühiti əcnəbilər də yüksək dəyərləndirir və bu proseslərə müsbət qiymət verirlər. Gərək biz də bir vətəndaş olaraq demokratiyadan, söz və mətbuat azadlığından və fikir plürealizmindən sui istifadə etməyək. Nə ediriksə, qanun daxilində addım ataq və bunun da müsbət nəticəsini görək!**

**FAİQ QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Şahmar Əkbərzadə: "Yer altından göy ot kimi baş qaldırıb vergül-vergül bitəcəyəm"

**Azərbaycanın tanınmış şairi, Müəllimim qədər çox sevdiyim, Azərbaycan ədəbiyyatında, publisistikasında, poeziyasında öz yeri, öz sözü, öz nəfəsi, fərqli yaradıcılıq üslubu olan gur səsli, şimşirin ləhcəli şair-publisist ŞAHMAR ƏKBƏRZADƏnin doğum günüdür.**

Hörmətlə, ehtiramla xatırlayaq.

Əziz Şahmar müəllim!

Yəqin ki, ruhunuz şaddır!

Çox sevdiyiniz, nəfəsinizi ondan aldığınız Qarabağınız, ana yurdunuz Ağdamınız, Üzeyirbaycanım dediyiniz Şuşamız, gözəl Kəlbəcərimiz, dağ vüqarlı Qubadlımız, yamyaşıl Zəngilanımız, Xudafərin yurdu Cəbrayılımız... artıq azaddır!

Qarabağ Azərbaycandır!

Kaş ki, bu günləri görəydiniz, Şahmar müəllim!

Kaş ki!...

O bu dünyada öz ömrünü, öz qismətin

yaşadı. Cəmi 59 baharın içində yazdı, yaratdı, sevdi, sevildi, ucaldı, duydu, düşündü, kövrəldi, yandı...

*Ona yanıram ki, xeyiri şərdən*
*Ayıra bilmirik, qana bilmirik.*
*Mən ona yanıram, ona yanıram,*
*Ona yanıram ki, yana bilmirik...*

"ONA YANIRAM Kİ, YANA BİLMİRİK..."

Tələbəlik illərində ən çox oxuduğum şairlərdən biri. Yanar ürəkli gözəl İnsan.

"Azərbaycan gəncləri"nin ŞAHMAR ƏKBƏRZADƏSİ...

Məğrur, boy-buxunlu görkəminin arxasında tərtəmiz, məsum bir uşaq gizlənmişdi sanki. İşıqlı gözləri, gülər siması vardı. Elə bil həmişə nə haqqındasa düşünürdü. Hətta səninlə danışanda da. Yəni əsil Şair idi!...

Gur səsi, şimşirin ləhcəsi, özünəməxsus danışıq tərzi hələ də qulaqlarımdadır.

O vaxtlar "Azərbaycan gəncləri" qəzetində publisistika şöbəsinin müdiriydi. Təcrübəçi tələbə kimi hər həftənin ikinci günü həmin qəzetin redaksiyasında olurdum. Xətrimi çox istəyirdi. Niyəsə, adımı deməzdi. Görən kimi zarafatla soruşurdu: "Telmanqızı, necəsən?"

Bir neçə ildən sonra indiki "AZƏRTAC"ın binasında yerləşən "Kommunist" qəzetində şöbə müdiri işləyirdi. Yenə görüşdük. 2-ci mərtəbədən məni görən kimi eyni sualı verdi...

Sonrakı illərdə, "Mədəniyyət" qəzetinin redaktor olduğu vaxtlarda "Azərbaycan" nəşriyyatında rastlaşardıq. Yenə də üzündə eyni təbəssüm, eyni şirinlik...

Qəribə, heç kəsə bənzəməyən adam idi Şahmar müəllim! Özünəməxsus müraciətləri vardı: dədə, nənə... Lap çox istədiklərinə, ürəyinə yatanlara belə deyirdi...

Onun şeirlərində də həmin şirinlik, təmizlik, uşaq saflığı, kövrəklik vardı.

Anasını erkən itirmişdi Şahmar müəllim. Bu ağrı onu yaman təsirləndirmişdi:

*Geyimlər görəndə Ana hər dönə*
*48 ölçüdə qalar gözlərim,*
*Cibim pullarımın qəbrinə dönər*
*Titrəyər dizlərim, ağlar gözlərim.*

Ana sevgisini, itkinin ağrısını bundan yanğılı daha necə ifadə etmək olardı ki?!...

Və ya:

*Tufandım, bir əsim yelə dönmüşəm,*
*Suları səngiyən selə dönmüşəm,*
*Sonası perikən gölə dönmüşəm,*
*Sonam ol, sonam ol, ay Bəyim xala!...*
*Dilimdən var gəlmir dil acib dinəm.*
*Əcəlin əliylə dağlanib sinəm.*
*Anasi ölmüşün biri də mənəm,*
*Anam ol, anam ol, ay Bəyim xala!...*

**Qısa arayış:**

Şahmar Əkbər oğlu Əkbərzadə 1941-ci il 28 dekabrda Azərbaycan Respublikası Ağdam rayonunun Çəmənli kəndində ziyalı ailəsində anadan olmuşdur.

1958-ci ildə Mahrızlı kənd orta məktəbini bitirdikdən sonra həmin il Şuşa Pedaqoji Texnikumuna daxil olub və 1960-cı ildə texnikumu bitirmişdir. Elə həmin il M.F.Axundov adına Dillər İnstitutunun Rus dili və ədəbiyyatı şöbəsinə daxil olmuş, 1960-cı ildə Rus dili müəllimi ixtisasını bitirmişdir.

Bir neçə il Çəmənli kənd orta məktəbində müəllim işləmiş, 1968-ci ildə Bakı şəhərinə köçüb "Azərbaycan gəncləri" qəzetində jurnalist kimi fəaliyyətə başlamışdır. Sonralar həmin qəzetdə şöbə müdiri vəzifəsində çalışmışdır. "Kommunist" qəzetində müxbir və şöbə müdiri olmuşdur.

1990-cı ildə "Mədəniyyət" qəzetini təsis etmiş və ömrünün sonunadək qəzetin baş redaktoru olmuşdur.

Şahmar Əkbərzadə 2000-ci il avqust ayının 30-da Bakı şəhərində dünyasını dəyişmişdir.

10 fevral 2014-cü ildə adını daşıyan "Şahmar Ədəbi Məclisi" (ŞƏM) təsis olunmuşdur.

"Anama layla" (Yazıçı, Bakı 1978), "Sevgi borc verilməz" (Yazıçı, Bakı 1982), "Ona yanıram ki" (Yazışı, Bakı 1988), "Haqqa pəncərə" (Dünya, Bakı 1998) kitablarının müəllifidir.

***"Şahmarlardan secən olsa Şahmarı***
***Bu dünyanin qara daşi göyərər..."***

Dəyərli publisist, vaxtilə "Azərbaycan gəncləri" qəzetində Şahmar müəllimlə çiyin-çiyinə çalışmış HİDAYƏT ELVÜSALın bir sözünü xatırlayıram:

"Biz həmişə közdə isinməyə adət etmişik. Közü öz qabağımıza çəkmişik. Və ağlımıza gəlməyib ki, bu köz nə vaxtsa bizi üşüdə bilər. Bəlkə elə buna görədir ki, Şahmarın ruhu qarşısında titim-titim titrəyirik". - Hidayət müəllimin dediyi bu sözlərin istisi elə məni də üşütdü. Və Şahmar müəllimin gerçəkdən yoxluğu içimi ağrıtdı...

"Doğru insanlığın, doğru dostluğun, doğru poyeziyanın, sözün, sirrin, vətənsevərliyin, gülüşün, göz yaşının... sahibi ŞAHMAR.

**Səni unutmamışıq !**
**Yaşayırsan !"**

- Bu sözləri də Hidayət müəllim dedi.

İsti, yanımcıl ürəyi şeirlərinə çökən Şahmar Əkbərzadə cəmi 59 il ömür yaşadı... Amma ona verilən bu ömür qismətində həm ədəbiyyatda, publisistikada, həm də poeziyada bacardığını əsirgəmədi.

*Qızıl zəmilərin həzin səsini,*
*Şirin laylasını öpüb gedirəm.*
*Yerlərin, göylərin rayihəsini,*
*Gözümə, könlümə təpib gedirəm,-*

dedi və getdi...

O, məşhur "Dağdağan" adlı məşhur bir şeirində yazırdı:

*Sərhəd kənarında cavan yaşımda,*
*Həsədim utanıb yerə girirdi.*
*İki quş dimdiyi ağac başında,*
*Vətəni Vətənə birləşdirirdi.*

Bu, Şahmar Əkbərzadə yanğısı idi və bu yanğı ömrünün sonunacan səngimədi. Şairin bu mövzuda "Tüstümüz", "Eşmə", "Bu sənsən?", "Tikan, gəl öpüşək", "Salam de", "Dayanın", "Əlvida" və başqa şeirlərində qəlb titrədən, düşündürən poetik sualları, nidaları var. Elə bu həyəcan və üzüntülər də Şahmar Əkbərzadə ömrünü yarımçıq qırdı...

Onun "Mərkəzi poçtxana", "Göyərər", "48 ölçülü qadın paltarı" kimi şeirlərini xatırlayıram. Bu şeirlər zamanında dillər əzbəri idi.

*Dərin-dərin dəryalardan dərd dərin,*
*Bükə bilər dizlərini dərd nərin.*
*Kəsə bilsək yollarınl dərdlərin,*
*Bu dünyanin qara daşı göyərər...*
*Dağ başinda arxa bilib qar qarı,*
*Zirvələrə yaxın qoymaz baharı,*
*Şahmarlardan secən olsa Şahmarı*
*Bu dünyanin qara daşi göyərər.*

Bir məsələni də qeyd edim ki, Şahmar müəllimin öz səsi, ifası çox gözəl idi. Bu baxımdan onun öz səsində həmin şeirləri özü qədər heç kəs bu qədər yanıqlı, səmimi, təbii deyə bilməzdi.

Özü Bakıda yaşasa da, fikri-zikri ana yurdu Qarabağda, Ağdamda, o yerlərin dağında-düzündə qalmışdı Şahmar müəllimin. Şeirlərinin çoxunda da bu nisgilin həzinliyini duyulurdu:

*Payız sularının layla səsini*
*Anamın ətrini hardan alım bəs?*
*O yerə burnumun göynərtisini*
*Teleqraf telləri apara bilməz*

Və ya:

*Ovut bircə hovur məni,*
*Əcəl yaman qovur məni.*
*Mən öləndə çevir məni,*
*Üzü dağlara-dağlara.*

Vətən həsrəti onu didib-parçalayırdı və öz kövrək hisslərini belə ifadə edirdi:

*Bu payız küsəcək məndən Qarabağ,*
*Yollarda qalacaq gözü yolların,*
*Payım budaqlardan özün asacaq,*
*Bağrı çatlayacaq gülöyşə narın.*

Çəkdiyi əzablar, Vətən həsrəti Şahmar Əkbərzadənin şair ömrünü elə atəşlərə tuşladı ki, sözü yaşadı, özü kül oldu...



Sanki hər şeyi əvvəlcədən bilirmiş, "Anam Azərbaycana" adlı bir bəndlik şeirində görün nə yazıb:

*Ölüm ayağının altında,*
*İtim ayağının altında.*
*Bir qom bənövşə olum -*
*Bitim ayağının altında.*

Şahmar Əkbərzadə sanki özü yandığı kimi geridə qalanlarını da öz qəfil ölümü ilə yandırıb yaxıb gedəcəyini bilirdi.

Amma əzizlərinə, yaxınlarına, onu sevənlərə bir təsəlli də verirdi:

*Qorxum yoxdur*
*Ömrün son nöqtəsindən!*
*Nöqtələşib torpaq içrə*
*İtəcəyəm.*
*Yer altından*
*Göy ot kimi baş qaldırıb*
*Vergül-vergül bitəcəyəm-*
*deyirdi...*

Kaş ki, bu günləri görəydiniz, Şahmar müəllim!... Kaş ki!....

Oğlu Elşən Əkbərzadə: "Əsir çiçəklər dediyin məzarın üzərində daşlaşmış xarı bülbüllər artıq azaddır DƏDƏ... Kaş ki, bizlərlə olaydın doğum gününü bərabər qeyd edəydik...

Doğum gününü, Qarabağda süzən ruhunu təbrik edirəm, ATA..."

Elşən Əkbərzadənin xatirələrindən:

- Atam şair olduğuna görə, digər atalardan bir qədər fərqlənirdi. Düzdü, evdə çox olmurdu, amma imkan daxilində tərbiyəmizlə, təhsilimizlə məşğul olurdu.

Olduqca mehriban insan idi.

Ailəsini, bizi çox sevirdi. Anam Mələk xanımla böyük məhəbbətlə ailə qurmuşdular. "Bitməsin", "Kipyimi qədəminə sərim qoy" şeirlərini anama həsr edib...

Ən yaxını dostları Məmməd Araz, Bəxtiyar Vahabzadə, Məmməd Aslan idi. Mənim görüb, tanıdığım şairlərin, demək olar ki, hamısında bu xüsusiyyət vardı. Onlar yazdıqları yeni şeiri çapdan əvvəl bir-birinə oxuyurdular. Atam da istisna deyildi. Yeni şeir yazanda mütləq qələm dostları ilə məsləhət edirdi. Məmməd Arazın "Dünya sənin. dünya mənim..." şeirinin ilk oxucusu atam olub. Bir gün evə gəldi, dedi, uşaqlar, Məmməd əminiz qeyri-adi bir şeir yazıb. Görüm hansınız onu tez öyrənəcəksiniz. Yadıma gəlir, mən beşinci sinifdə oxuyanda "Dünya sənin, dünya mənim..." şeirini əzbərlədiyimə görə, atam mənə ən xoşuma gələn idman ayaqqabısını almışdı...

Məmməd Arazla o qədər doğma münasibəti var idi ki, ona həmişə "dədə" deyirdi. Türk dünyasının məşhurları ilə atamın çox yaxın münasibətləri vardı. Oljas Süleymanovla həddindən artıq yaxın dost olublar. Qazaxıstanın Xalq yazıçısı Muxtar Şaxanovla, Rəsul Həmzatovla, 20-ci əsrin ən məşhur şairlərindən olan Yevgeni Yevtşenka ilə dostluq edirdi.

Çingiz Aytmatovla çox yaxın dostluqları olub. Çingiz Aytmatovla atamın dostluq münasibətlərinin təməli Moskvada qoyulub. O illərdə Moskvada, səhv etmirəmsə, kitab müsabiqəsi keçirilirmiş. Atam həmin müsabiqədə iştirak edib. Həmin müsabiqədə tanış olublar. Bu tanışlıq sonralar çox böyük dostluğa çevrildi. Bu gün bəzi ziyalılar Çingiz Aytmatovla yaxın münasibətlərinin olduğunu deyirlər. Bunu qısqanclıq kimi qəbul etməyin, sadəcə olaraq, bu, bir həqiqətdir ki, Azərbaycanın bütün üzdə olan yazıçılarının çoxu Çingiz Aytmatovla atamın vasitəsiylə tanış olub. Çingiz Aytmatovu 1985-ci ildə ilk dəfə Azərbaycana atam gətirib. Bunu bütün yaşlı ziyalılar bilir. Bəxtiyar Vahabzadənin yubileyində iştirak üçün atam şəxsən özü gedib Çingiz Aytmatovu gətirmişdi.

Bu münasibət dostluqdan keçib qardaşlığa çevrilmişdi".

O, atası ilə bağlı son günləri belə xatırlayır:

- Atam məclis adamı idi. Amma içki sevməzdi. Bizim evdə Bəxtiyar Vahabzadənin, Xudu Məmmədovun evində tez-tez şair məclisləri olardı. Dərdləşirdilər, şeir oxuyurdular.

Amma həddindən artıq siqaret çəkirdi. Hətta deyərdim ki, onu ölümə yaxınlaşdıran amillərdən biri də siqaret oldu. Çünki infarktdan sonra çəkməməli idi. Elə bir dövr idi ki, özünə yer tapa bilmirdi. Qarabağ hadisələri ona çox pis təsir etmişdi.

Elə-obaya çox bağlı insan idi. Hər il avqust ayında məzuniyyətə çıxırdı. İstirahət üçün ilk getdiyimiz yer Ağdamın Çəmənli kəndi olurdu. Orda ən az bir həftə qaldıqdan sonra ailəvi yığışıb Şuşada məşhur istirahət evinə gedərdik. Laçında Şəlvə dərəsi adlanan bir yer var idi, ora aparardı bizi. Atamın Laçına həsr etdiyi "Laçın dağlarına məktub", "Mərkəzi poçtxana" şeirləri var.

1988-ci il mitinqləri zamanı atam infarkt keçirtdi. Böyük qardaşım Tibb İnstitutunda oxuyurdu, orda aktiv tələbələrdən olduğu üçün iki günlük həbsə salmışdılar. O zaman infarkt keçirtdi. 1992-ci ildə Xocalı faciəsi baş verəndə ürəyi dözmədi, ikinci infarktı də onda keçirtdi.

Atam dünyasını dəyişən günü mən Bakıda deyildim. Həmin gün qardaşımın böyük qızının ad günü idi. Uzun müddət idi uşaq velosiped istəyirdi. Atam almağa qoymurdu ki, özüm alacam. Həmin gün, avqustun 30-da atam gedib velosiped alıb gətirib qardaşımın qızına verib. Bir stəkan çay içib, anamı da qardaşımgildə qoyub evə qayıdıb. Dəhlizə girər-girməz ürəyi tutub, yıxılıb. Elə dəhlizdəcə dünyasını dəyişib...

***P.S:*** Şahmar Əkbərzadə gözəl şair idi. Onun təkrarsız ruha malik ürək dağlayan şeirləri hələ də dillər əzbəridir. Amma, nədənsə çox təsirli, məzmunlu və bitkin poeziyası, eləcə də publisistikası ilə seçilən Şahmar Əkbərzadənin yaradıcılığı nə sağlığında, nə də vəfatından sonra yetərincə dəyərləndirilmədi.

Böyük şair öz haqqı barəsində incə eyham, zərif və haqlı iradla hələ 1977-ci ildə, Allah dərgahına qovuşmazdan 33 il əvvəl yazdığı "Göyərər" adlı şeirində deyir:

*Dərin-dərin dəryalardan dərd dərin,*
*Bükə bilər dizlərini dərd nərin.*
*Kəsə bilsək yollarını dərdlərin,*
*Bu dünyanın qara daşı göyərər.*
*Arzu sonsuz, ömür qısa, gün qısa,*
*Nahaq yerdən qoy batmasın göz yasa.*
*Daşürəkli insafsızlar olmasa,*
*Bu dünyanın qara daşı göyərər.*
*Təpərini taleyinə açar san,*
*Tilsimləri kamalınla açarsan.*
*Ağlar gözü güldürməyi bacarsan,*
*Bu dünyanın qara daşı göyərər.*
*Dağ başında arxa bilib qar qarı,*
*Zirvələrə yaxın qoymaz baharı.*
*Şahmarlardan seçən olsa Şahmarı*
*Bu dünyanın qara daşı göyərər.*

Nə yaxşı ki, xalqımız, onun yetirmələri, poeziyasevərlər Şahmar Əkbərzadə imzasını heç unutmadı. Unutmayacaq da! Çünki Çəmənlinin Şahmar tacı, Şahmar Əkbərzadə nəfəsi, Şahmar Əkbərzadə yanğısı, Şahmar Əkbərzadə ürəyi, Şahmar Əkbərzadə poeziyası bir də olmayacaq!

Şahmar Əkbərzadə söz adamı idi.

Gözəl şair olmaqla bərabər həm də çox istedadlı, mükəmməl qələmə malik jurnalist idi, kamil publisist idi...

**Zaman dəyişsə də, neçə on illər keçsə də, Şahmar Əkbərzadə poeziyası yaşayacaq, özü demiş "nöqtələşib torpaq içrə İtəcək, yer altından göy ot kimi baş qaldırıb vergül-vergül bitəcək", ürəklərdə, könüllərdə özünə yuva quracaq, həmişə yaşayacaqdır...**

**Nurlana Telmanqızı**
**28 dekabr 2020**



Tərlan Əbilov

*Onun təklifi*
*Yanındayamsa*
*sil beynindəki qadınları;*
*bir əlçim qum bəs edər ayaqlarımı yandırmağa,*
*bir hovur günəş bəs edər dənizi canlandırmağa,*
*bir ovuc külək yetər saçlarımın rəqsinə...*
*Sənindir*
*saçlarım,*
*sinəm,*
*düz və hamar ayaqlarım...*
*Tələsmə...*
*əllərimdən tut,*
*dünyanı unut,*
*cəhənnəm olsun sahil...*

* * *

*Sevda nə olduğunu*
*dualarının dimdiyindən vurulan*
*quş daha yaxşı bilər,*
*yol nə olduğunu ayağı olmayan adam*
*daha yaxşı anlayar,*
*ümid nə olduğunu şamsız qalan...*
*Götür bir ovuc dən səp o quşa,*
*ayağı olmayan o adamın*
*çiynindən sal bu yolu,*
*bir şam yandır şamsız qalana...*
*İnan, gördüyün bu səhranın*
*nə vaxtsa dəniz olduğuna...*

*Sonuncu pərdə*
*Yorub məni uzaqlara yol çəkmək,*
*uzaqlara göz dikmək.*
*Bekarçılıqdan qollarım*
*çiyinlərimə ağ olur,*
*əllərim qollarıma...*
*Üzümə ağ olur sənə*
*ünvanladığım sətirlər.*
*Əvvəlində özümə*
*bir yer saxlamadığımdan*
*sonumda çox sıxlıqdır indi;*
*sağa dönürəm işsizlik,*
*sola dönürəm huşsuzluq,*
*yumruqlayır kürəyimi*
*arxada asılan şəkillər,*
*önümdə yamaqdır*
*pəncərədən asdığın pərdə...*
*Yorub məni yer,*
*yorub məni göy,*
*bezdirib məni yaxınlar,*
*bir qədərdir uzaqlar.*
*Yer üzündə nə qədər adam var,*
*o qədərdir uzaqlar...*
*Keçdi*
*Keçmədim səndən, könlümdən*
*nə keçdisə yalnış keçdi.*
*Dolu gəlmədin ömrümə,*
*sən də bu ömrü boş keçdin.*
*Düşdü sevgin iş qapımda,*
*Dedim göydən düş qapımda.*
*Duan keçməmiş qapımdan,*
*canımdan yüz qarğış keçdi.*
*Hürdü, adamlar hürüşdü,*
*Baxtın ayağı sürüşdü.*
*Ovcumda quraqlıq düşdü,*
*gözlərimdən yağış keçdi.*
*Qırıldım, səni qırmadım,*
*Bir addım geri durmadım.*
*Məni özgələr vurmadı,*
*üstümdən dost-tanış keçdi*
*Qalereya*
*Varaq olmadığından*
*yuxumuzu ərşə çəkir*
*yoxluq.*
*Yoxa çıxıb*
*quşların çəkildiyi göy üzü,*
*yoxa çıxıb*
*pərdəsi çəkilmiş pəncərələr.*
*Damımızın altında*
*su basmış döşəmədir yer.*
*Sulu boyadır gözlərin...*
*Sabah-sabah*
*ən gözəl rəsm əsəridir*
*çəkdiyin ah...*

*Sən eşqsən*
*Sən eşqsən;*
*zərifliyinin içində*
*qırılmazlıq,*
*güc,*
*dözüm gizlədilmiş eşq...*
*Saçlarından dəniz,*
*gözlərindən günəş damcılayır,*
*dodaqlarından La İlahə İlləllah...*

*Sən eşqsən,*
*harda varsan,*
*ora qiblədir mənə, qadın...*

*Çıxırsan*
*Bu oddu, atəşdi, sevgi?*
*Laləsi yanan dağda sən*
*başıma duman gəlirsən,*
*başımdan çən çıxırsan.*
*Necə yanmaqdı bu? - özüm*
*yanıram, cızdığım çıxır,*
*məntək cəhənnəm odundan*
*günəştək şən çıxırsan.*
*Qarışır yanıq iyimə,*
*ağacdan tökülən payız.*
*Mən adamlıqdan çıxıram,*
*sən özündən çıxırsan.*
*İçimdə iki böldüyün*
*bir adamsan tək-tək ayrı;*
*yadıma düşən kimi sən,*
*yadımdan sən çıxırsan...*
*Axar*
*Səhər günəş doğur,*
*axşam ay.*
*Pəncərəmdə dalğalanır dəniz,*
*qapımda ləpələnir qağayılar.*
*Şəhəri yuyub aparmaq istəyən*
*leysandan sonra*
*közərir ulduzlar.*
*Heç nə olmamış kimi*
*küçəmizdən keçən adamlarla*
*işə tələsir gələn gün.*
*Heç elə bil çıxıb getməmisən,*
*heç elə bil sevməmişəm səni...*

**Lənkəran**

# Yaxşılıqla pisliyin 55 illik mübarizəsi: "Qanun naminə" incisi

**O günü bir lətifə oxudum: Deyir, 2 nəfər oturub filmə baxırmış, filmdə əli silahlılar baş qəhrəmanın arxasınca düşüb onu izləyir, fürsət düşəndə isə güllə ilə vurub öldürmək istəyirmiş. Filmə baxan biri başlayır qışqırmağa, "ayə arxadan gəlirlər, ayə ayıq ol, səni vuracaqlar, arxaya dön,, arxaya dön, əəəə vurdular eee, səni..."**

Onunla film izləyən əsəbləşir.Deyir, ə, yekə oğlansan, azca qışqır də! Hər dəfə bu filmə baxanda elə hey bağırırsan, çığırırsan, o heç səni eşitmir, yenə axırda güllələnir. Bitir də bu qaraqışqırığı!

"Qışqırıb-bağıran" halın pozmadan dönür dostuna tərəf: "Sən narahat olma! O arxaya dönənə qədər çığırıb-bağırıb onu xəbərdar edəcəyəm! Bu qədər çığırmağım havayı yerə getməyəcək ki.. axır bir gün eşidəcək, arxaya dönəcək!Ölməyəcək".

Uşaqlıq, yeniyetmə vaxtlarımızda ən çox baxdığımız filmlərdən biri də Azərbaycanin kino incilərindən olan hamımızın "Mehman" dediyimiz , elə bu adlada sevdiyimiz "Qanun naminə" filmi idi.

Yəni, hər dəfə filmə baxanda Mehmanın tələyə salınıb qolçomaqlar tərəfindən tutulduğu məqamda bəlkə də ən çox çığırıb-bağıran", sonra da Mehman öləndə ağlayanlardan biri olduğumu deyə bilərəm.

Bu il bu maraqlı və baxdıqca baxımlı olan filmin yaranmasından 55 il keçir.

Adalet.az xəbər verir ki, 1968-ci ildə yazıçı Süleyman Rəhimov "Mehman" əsəri əsasında rejissor Muxtar Dadaşov film çəkməyə başlayır.

Sənədli filmlər rejissoru kimi tanınan Muxtar Dadaşovun bədii kinoda ilk işi olduğu üçün bir çoxları rejissorun bu işin öhdəsində gələcəyinə çox da inanmırdılar. Film 1969-cu ildə tamamlanır və "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş bu film elə ilk baxışda tamasaçılar tərəfindən sevilir. Film sovet rejiminin təbliğatına uyğun olaraq povestdəki kimi "Mehman" yox " Qanun naminə" adlandırılması prokuror Mehmanın simasında vicdanlı sovet məmurunu qəhrəmanlığını tamaşaçıya aşılamaq idi.

Həm tamaşaçı Mehman kimi dövlətinə sədaqətli vətəndaş , həm də dürüst məmur kimi tanıyıb, onu özünə kumir seçməsi, ona oxşamağa çalşması filmin əsas qayəsidir.

Filmin mövzusu 1930-cu illərdə Azərbaycan rayonlarının birində cərəyan edir, o dövrün hüquq-mühafizə orqanlarının gərgin fəaliyyətindən danışır. Rayonların birinə işləməyə gəlmiş prokuror qatı cinayətlər törədənlərə qarşı mübarizədə öz həyatını qurban verməli olur.

Janrına görə dram, kriminal, triller elementlərini özündə ehtiva edən bu film haqqındakı söhbətimizə elə Mehmandan başlayaq: sovet və rus teatr və kino aktyoru, RSFSR xalq artisti Bimbulat Zaurbekoviç Vatayev 15 mart 1939-cu ildə Şimali Osetiyada anadan olub. Osetindir! İstedadı və yaradıcılığı ilə yaddaşlarda qalıb. Azərbaycanlılar onu heç vaxt Binbulat yox, "bizim Mehman" kimi xatırlayıb. Çünki Azərbaycan kinomatoqrafiyasına yeganə çəkildiyi "Mehman"la adını həkk etdirdi. Sevilən aktyor 9 may 2000-ci ildə vəfat edib.

Filmin 2-ci və ən nifrətoyadıcı obrazı (ən çox ölməsini arzuladığımız) Qaloşdur. Bu obrazın ifaçısı isə kino və teatr rejissoru, aktyor və pedaqoqu, Azərbaycan SSR xalq artisti Rza Təhmasib idi. Təsəvvür edin, dəyərli aktyor Rza Təhmasib bu personajın daxili aləmini bizə elə ustalıqla göstərmişdi ki, o filmdən sonra aktyoru başqa filmdə görəndə də əsbləşirdik. Qaloşun məkr, hiylə, ikiüzlülük, qorxaqlıq kimi sifətlərini maraqlı jestlərlə tamaşaçıya çatdıran R.Təhmasib bəlkə də həmin vaxt bilmirdi ki, sonradan insanlar ən zəhləleri qaçdığı, nifrət etdikləri insanları məhz "Qaloş" deyə xarakterizə edəcəklər.

**Rza Təhmasibin filmlə bağlı xatirələrində yazır:**

"1969-cu il idi, "Mehman" filmi ekranlara təzə çıxmışdı. Bir gün axşamüstü kinostudiyadan çıxıb piyada gəzirdim. Qəfildən bir dəstə qadın mənimlə üz-üzə gəldi. Deyəsən yas yerindən qayıdırdılar, çünki hamısı qara geymişdi. Qadınlardan biri məni tanıyıb digərləri ilə pıçıldaşmağa başladı. Sonra məni dövrəyə aldılar. Məni tanıyan qadın düz gözlərimin içinə baxdı.

***- Sizə dedim odur!***
***Çaşıb qalmışdım.***

***- İndi səni bizim əlimizdən kim alacaq?***

***- Üzr, istəyirəm, amma sizi başa düşmədim. Nə olub axı?***

***- Özünü tülkülüyə vurma, Qaloş. Başına panama qoyub, boynuna qalstuk taxmaqla deyil ey, sən necə qıydın Mehmana, onu de.***

Hər şeyi başa düşüm. Gülümsündüm. Qadınlardan biri mənə diqqətlə baxıb dedi:

***- Əşşi, bu o deyil. Oxşayır, ancaq o deyil. Qaloş belə gülə bilməz. Düz demirəm, ay qardaş, sən Qaloş deyilsən .***

***- Düz deyirsən, oxşatmısız, mən Qaloş deyiləm.***

Məni oxşadan qadın bir də tərs-tərs baxıb uzaqlaşdı. Bir-iki addım atandan sonra anidən geri çevrildim, qadın hələ də geri boylana-boylana qalmışdı".

Filmdə nəfəsimi tutub seyr etdiyim obrazlardan biri də Kamilovdur. Əynində mundir, başında papaq əllərini qaldırıb köhnə kişilərə xas "Çal, mənim havamı çal, heyvagülü" deyir və ağır-ağır oynamağa başlayır.

Baxa-baxa gözümün qarşısına ömrünün sonuna kimi əynindən mundirini, başından buxara papağını çıxartmayan kəndimizdimizin ağsaqqallar gəlirdi.Gəray baba, Kamil baba, Abdüləzim baba, Zülfüqar baba...

Bəlkə bu Kamilov obrazının daxili dünyası ilə Adil İsgəndərovun iç dünyası arasında bir doğmalıq olub? Həm obrazda, həm aktyorda bir ağsaqqallıq adamı məftun edirdi.. Bəlkə, o oxşarlıq bizi o obraza nifrət etməyə, o ağsaqqallıq imicinə görə imkan verməyib. Bəlkə içi saflıqla, səmimiyyətlə dolu Kamilova möhlət verilsəydi, əvvəlki həyatından fərqli olaraq yalnız xeyirxah əməllərlə məşğul olardı. Çünki onun daxili dünyası saf olsa da, sadəcə şeytan əməlinə qalib gələ bilməyib.

Mehmanın həyat yoldaşı, bir az qızıl-pul pərəst, bir az "xəyanətkar" hesab etdiyimiz Züleyxa- Azərbaycanın xalq artisti Flora Kərimovanın yaratdığı obraz. Bu haqda jurnalist-tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əlisəfdər Hüseynovun obraz haqqında fikirlərini bəyənməmək mümkün deyil: "Züleyxanın öz ərinin həyat və məhəbət fəlsəfəsinə uyuşmayan bu hərəkətləri onun içindən gələn naqislik yox, nə qədər qəribə olsa da, prokuror ərinin diqqətsizliyi və səhvi ucundan düşdüyü tələnin yaratdığı fəsadlardır. Buna inanmaq üçün Züleyxa - Mehman tandeminə bir qədər geniş planda baxmaq lazım gəlir.





Gəlin, birlikdə baxaq.Mehman hər şeyə - hətta ər-arvad münasibətlərinə, sevgi kimi incə, həssas məsələyə də öz vəzifə və sosial statusunun prizmasından baxır, ritorik, pafoslu cümlələrlə elə danışır ki, sanki evində, ailəsinin içində deyil, universitet auditoriyasında mühazirə oxuyur. Bu isə onun xarakterindəki olan-qalan təbiiliyi də soldurur, əvəzində bədii portretinə plakat cizgiləri gətirir.

Mehman sosial statusları uyğun gələn Altayın yanında arvadının fədakar və istedadlı olmamasından hətta gileylənir də (!)

Züleyxanın isə davranışı da, dediyi sözlər və replikalar da təbiidir, bir qadın kimi içindən gələn inersiyanın püskürüb çölə atdığı istəklərdir - o, ərindən ritorik, pafoslu cümlələr yox, səmimi münasibət, diqqət gözləyir, istəyir ki, Mehman onu məhz bu uzaq dağ rayonunda, öz ailəsinin içində sevsin.

Züleyxanın "Nə olar mənim də boynumda bir şey parlasa..." kimi təbii qadın istəyini görün Mehman necə qarşılayır: "Sən özün dünyanın ən qiymətli zinyətisən". Bu, ürəkdən yox, sadəcə yaddaşdan, yaxud beyindən gələn sözlərdir, Füzuli demişkən, hər sözü yalan olan şair intonasiyasını yamsılamaqdan başqa bir şey deyil.

Mehman anlamır ki, Züleyxanı bu quru sözlərlə ovundurmaq (və aldatmaq) ona görə mümkün deyil ki, bu sözlərin arxasında əməl, hərəkət yoxdur.Bakıda doğulub boya-başa çatan Züleyxanın kənddən fərqlənməyən uzaq dağ rayonunda darıxması təbii, real hisslər deyilmi? Hansı qız "Ah, mən bunu bütün ömrüm boyu arzulamışam" - deyib bu "töhfəni" çırtıq çala-çala qarşılayar, bununla da hissiz, duyğusuz müqəvvaya çevrilməsi ilə razılaşardı? Yaxşı ki, peşəkar aktrisa olmasa da, bu obrazın açarını tapa bilən Flora Kərimova Züleyxanı məhz bu ladda - təbiiliklə səmimiliyin sintezində yarada bilib. Ona görə də çağrılmamış qonaqlar onların evinə soxulanda çiçək kimi açıb ətrafa işıq saçan sadəlövh Züleyxanın halına həm də acıyırsan, ona yazığın gəlir. Züleyxa dünyaya yalnız öz pəncərəsindən baxan Mehmanın ən zəif yeridir. Düşmən isə həmişə rəqibinin ən zəif yerini nişan alır. Elə belə də olur. Amma buna görə Züleyxadan çox Mehmanın özü məsuliyyət daşıyır, günahın böyük hissəsi onun üzərinə düşür".

Əslinə anbardar Məmmədxan- Əliağa Ağayev, Murtuzov- Mustafa Mərdanov, Zərrintac-Nəcibə Məlikova, Şəhla xanım - Qarı nənə , Nəsibə Zeynalova və başqaları filmə sevmədiyimiz mənfi obrazlar kimi yaddaşımızda qalıb.

Filmin musiqisini isə görkəmli bəstəkar Qara Qarayevin oğlu, Azərbaycan xalq artisti Fərəc Qarayev yazıb. Filmin rəssamı isə Azərbaycan SSR Əməkdar rəssamı Cəbrayıl Əzimov olub.

**Film Bakının Zığ kəndində çəkilib. Filmdəki prokuror Mehmanın evi haqqında təxminən 10 il əvvəl reportaj hazırlayan Faiq Balabəyli yazırdı ki, evin 200-ə yaxın yaşı var:Haqqında bəhs etdiyimiz ev qədimliyi ilə yanaşı arxitektura baxımından maraqlı görüntüsü ilə də diqqəti çəkir. "Qanun naminə" filminin bəzi hissələri burada, bu həyətdə oynanılıb. Kənd camaatı bununla fəxr edir. Söhbətlərində bunu hiss etdim. Lakin evin bərbad hala salınmasına ürəkləri ağrısa da, yığışıb bir iş görmürlər. Axı artıq bu ev Azərbaycanın tarixinin kiçik bir parçasını özündə saxlayır. Keçmişimizə sahib çıxmağın vaxtı isə çoxdan keçib. Mövzu ilə bağlı Mədəniyyət Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Xidmətin müdüri İntiqam Hümbətov bizimlə söhbətində dedi ki, Zığ kəndində 4 tarixi abidə qeydə alınıb. Onların içərisində bu ev yoxdur.**

**Ümid edirik, o evə bir çarə tapılıb.**

**Əntiqə Rəşid**

# "Uzaq sahillərdə" filmi: 26 yaşlı Mixayloya 105 illik sevgi, 65 illik ehtiram

**Bu il Sovet İttifaqı Qəhrəmanı, adı dillərdən düşməyən azərbaycanlı, xalqımızın cəsur və mübariz oğlu Mehdi Hüseynzadənin - Mixaylonun anadan olmasında 105, onun haqqında çəkilən "Uzaq sahillərdə filminin ekran üzü görməsindən 65 il keçir.**

Bəli, Sovet Rusiyasının, o cümələdən, qaniçən Stalinin türklərə olan qərəzli mövqeyi, total nifrəti M.Hüseynzadəyə münasibətdə də öz əksini tapıb. Beləki, ona Sovet İttifaqı Qəhrəmanı adı ölümündən on üç il sonra-1957-ci ildə verildi. O cümlədən, əfsanəvi partizanın adının əbədiləşdirilməsi üçün Azərbaycan kinomatoqrafçıları "Mixaylo" haqqında kinonu məhz bu hadisədən sonra çəkməyi qarşılarına məqsəd qoyur. Bir qəhrəmanın həyat hekayəti olan "Uzaq sahillərdə" Azərbaycan filmi 1958-ci ilin yayında artıq kinoteatrda nümayiş olundu .

Tammetrajlı bədii film olan bu ağ-qara sənət əsəri 89 dəqiqəni əhatə edirdi.Film elə ilk baxışdaca ictimaiyyətin sevgi və marağına səbəb olur. İndi soruşsanız ki, niyə məhz "Uzaq sahillərdə" dünyanın 100-dən çox ölkəsində nümayiş etdirilib, mən də cavabında deyərəm ki, səbrli ol və məqaləni sona qədər oxu, biləcəksən!

Deməli, müharibə dövrü də, müharibədən sonra da Mixaylo haqqında gerçəyi yansıtan əfsanələr dillər əzbəri olmuşdu. Mehdinin döyüş yoldaşlarının, onun qəhrəmanlığının şahidlərin bu cəsur bakılı oğlan haqqında danışdıqlar real hadisələr hər bir azərbaycanlıda qürur hissi yaradırdı. Beləliklə 50-ci illərin əvvəllərində İmran Qasımovla Həsən Seyidbəylinin birgə qələmə aldıqları "Uzaq sahillərdə" əsəri nəşr olunur və az vaxt içərisində geniş oxucu kütləsinin rəğbətini qazanır. Kitab əldən-ələ gəzir və xalqımızın qəhrəman oğlu Mehdi Hüseynzadənin Böyük Vətən müharibəsində (1941-1945) əfsanəvi igidlikləri barədə oxuculara geniş məlumat verirdi. Həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adı aldıqdan dərhal sonra əsərin filmə çevrilməsi reallaşdı.

İstedadlı yazarların meydana qoyduğu bu təkrarsız əsər , bu dəfə istedadlı rejissor Tofiq Tağızadənin əlində təkrarsız bir ekranəsərinə çevrilir. Yeri gəlmişkən , Xalq artisti Tofiq Tağızadəyə qeyri-rəsmi "Azərbaycan kinosunun patriarxı" da deyirdilər.Tağızadə filmin sevilməsi və seçilməsi üçün istedadlardan ibarət çəkiliş truppası yığır.Özü filmin rejissoru olan Tofiq Tağızadənin truppasındakı sənətkarlar: Quruluşçu operator Əlisəttar Atakişiyev, quruluşçu rəssamlar Cəbrayıl Əzimov,Kamil Nəcəfzadə, bəstəkar Qara Qarayev,səs operatoru Ağahüseyn Kərimov.rejissor Rüfət Şabanov, operator Rasim Ocaqov, Quraşdırılmış səhnələrin rəssamı: Mirzə Rəfiyev, filmin direktoru Teymur Hüseynov və dirijor Niyazi...

Çəkilişin truppası hazır olandan sonra aktyorları da seçmək bir məsulliyyətdir və bunu da Tofiq Tağızadə çox peşəkarlıqla bacarır. Beləki, filmdə baş rolu canlandıran "Mixaylo", tanınmış aktyor Ülvi Rəcəbin qardaşı oğlu Nodar Şaşıqoğlu idi və bu onun Azərbaycan kinosunda ilk işi olub.

Aktyor xatirələrinin birində deyir ki, İlk rolum "Mosfilm"də Albaniya dövlətçiliyinin əsasını qoyan Georgi İsgəndərbəyov haqqında çəkilən filmdə oldu:"Orada mən türk imperiyasının əsasını qoyan Mehmet bəy Fatehi yaratdım. Sonra Sergey Paracanovun ilk rejissor işi olan "Andrieş" filmində baş rolu oynadım. Bu filmdən sonra "Odessa" kinostudiyasında çalışdım".N.Şaşıqoğlunu bütün filmlərdə aktyor Əli Zeynalov səsləndirib.

Məlumatlarda o da deyilir ki, "Uzaq sahillərdə" filminin çəkilişləri zamanı baş rolun ifaçısı, "Mixaylo"nu oynayan aktyor Nodar Şaşıkoğlu ilə "Anjelika"nı canlandıran Aqniya Yelikoyeva arasında gerçək məhəbbət yaşanıb.

Filminin çəkilişləri zamanı texniki heyətdə çalışan Şahin Qalabəyli xatirələrində yazır ki, "Bu filmdən sonra onda qadınlara qarşı düşkünlük yaranmışdı. O qədər pərəstişkarları vardı ki, hamısı ilə də münasibət qururdu. Hətta Tibilisinin küçələrində gəzə bilməmişdi".

Nadir Şaşıqoğlunun istedadı isə kinoda yeni bir era açdı sanki... Təsəvür edin, hamı aktyoru "Mixaylo" kimi sevirdi. Sanki Mixaylo ölməyib və bir neçə saatlıq insanların qarşısına çıxıb Odur ki, hər kəs yüksək sevgi ilə aktyora ehtiram edirdi. Yazar Lalə Azəri filmlə bağlı məqaləsində yazır: Kino tədqiqatçısı, Əməkdar incəsənət xadimi Aydın Kazımzadənin "Kino və zaman" kitabında film haqqında maraqlı faktlarla qarşılaşırıq.

Kitabda qeyd olunur ki, filmin ekranlara çıxdığı dövrdə "Bakı" (axşam) qəzeti bu kino hadisəsinə geniş yer vermişdi. "Həmyerlimiz haqqında film: "Uzaq sahillərdə" başlığı altında dərc olunan məqalədə rejissorun qeydləri ilə yanaşı, Mehdi Hüseynzadənin bacısı Bikə Əlizadənin, keçmiş partizan Mehdi Ağalarovun fikirləri yer alırdı. Bikə xanım deyir: "Filmə baxarkən qardaşımın uzaq ellərdə çəkdiyi əziyyəti, od-alov içində necə vuruşduğunu görürəm. Şirin söhbəti və mehriban gülüşü ilə evimizi bəzəyən qardaşımı sanki heç ölməmiş kimi gördüm. Az qala onu yenə bağrıma basıb öpəcək, evimizə aparacaqdım".

Yuri Boqolyubov (Veselin), Anjelika (Aqniya Yelikova), Ələsgər Ələkbərov (Ferrero), Lev Bordukov (Karranti), Andrey Fayt (Mazelli), Adil İsgədərov (Rosselini), Salman Dadaşov (Agent), Hacımurad Yegizarov (Partizan) və başqalarının professional oyunu filmi daha da inandıcı və sevimli edib. Film harda çəkildiyi də maraq doğurur. Bəli, şahidlərin dediyinə görə filmdəki bəzi kadrlar "Tarqovı"da, Filarmoniya tərəfdə, Tağıyevin mülkündə lentə alınıb:" Ümumilikdə çəkilişlər Pribaltikada, Soçidə (dəniz səhnələri) və Azərbaycanda gerçəkləşib. "Tarqovı"dakı çəkilişlərdə olan küçə indi də qalır. Landaunun evi olan küçə, haradakı "Dom Moda" var. Mehdinin getməyi-gəlməyi hamısı orada çəkilib. Oxuyan qız vardı onun səhnəsini, körpünün üstündəki addım səhnələrini kinostudiyanın pavilyonunda çəkmişdik. Filmin son səhnələri Ağsuda lentə alınıb".



Lalə Azəri adlı yazar filmlə bağlı Şahin Qalabəylidən (adıgedən filmin texniki işçisi) müsahibə alır.Qalabəyli yazarla söhbətində bunları deyir: "Ağsudakı çəkilişlər həm maraqlı, həm də qanqaraldan hadisələrlə yadda qalıb: "Orada alman əsgərləri olan səhnələri çəkirdik. Onlar yol polisinin işçiləri idilər və motosikletlə Mehdini tutmağa gedirdilər. Onlardan biri gəldi, Əlisəttar Atakişiyev kameranı işə saldı. Bu vaxt fəhlə diqqət etmədi, zondla kameranı bağladı.

Bu zaman motosikletin biri qəzaya düşdü. Əlisəttar müəllim o anı tutmaq istədi, amma kamera bağlandığından alınmadı. Operator bərk əsəbiləşdi və fəhləyə əl qaldırdı. Buna görə onu çəkiliş meydanından uzaqlaşdırdılar. Baxmayaraq ki, Əlisəttar Atakişiyev işinin professionalı idi. İki diplomu vardı - həm operatorluğu, həm də rəssamlığı bitirmişdi. Filmin çəkilişləri Arif Nərimanbəyova həvalə olunsa da, o bundan imtina etdi. Hətta titrlərdə belə adının getməsinə razı olmadı.

Həmsöhbətim bir ailədən 3 nəfərin filmdə rol aldığını deyir: "Rus aktyor Yuri Boqolyubov Veselin rolunu oynayırdı. Onun atası da, anası da filmdə çəkilmişdi. Filmdə camaatın partizanlara yemək apardığı epizodda Veselinin atasına (Nikolay Boqolyubov) deyirlər ki, "get dənən Mixaylonu təhvil versinlər, yoxsa güllələyəcəyik". Orada çiynində səhənglə güllələnən qadın da aktyorun anasıdır. Ümumiyyətlə, çox güclü aktyor heyəti ilə çalışırdıq".

"Mixaylo"sənədli filminin rejissoru Tahir Əliyevin araşdırmalarına görə, "Uzaq sahillərdə" filmindən tamaşaçıya tanış olan Mehdinin dostu Visilinin əsl adı Sar olub. Mehdi onunla birgə əməliyyatdan qayıdırkən ikimərtəbəli evin çardağında gizlənirlər. Bu zaman xəbər gəlir ki, almanlar artıq Vitovli kəndinə hücum edib və onlar Mixaylonun axtarışına başlayıblar. Mehdi ilə Sar almanlarla döyüş olacağını gözləmirmiş. Sar çardaqdan aşağı enərkən almanlar onu vururlar. Bunu görən Mixaylo pəncərədən tullanır və bu zaman snayper güllesinə tuş gəlir. Ağır yaralanan Mixaylo kənddən çıxmağa müvəffəq olsa da, çoxlu qan itirdiyindən yoluna davam edə bilmir, elə oradaca dünyasını dəyişir.

Lakin almanlar onun cəsədini tapa bilmirlər. Mehdi Hüseynzadənin cəsədini 12 yaşlı bir qız tapır. Mixaylonu elə tapıldığı yerdə dəfn edirlər. Üç gün sonra almanlar xəbər tutduğundan onun nəşinin artıq burada saxlamağın mümkün olmadığına görə, 30 kilometr kənarda yerləşən Çepovani kəndində qardaşlıq qəbiristanlığında dəfn ediblər.

Həmin qəbiristanlıqda ən birinci qəbir Mehdi Hüseynzadənin məzarıdır. Məlumatlara görə, sloveniyalı yazıçı Peter Amalietti Mehdi Hüseynzadəyə həsr edilmiş"Mixaylonun təkbaşına qisası" ("Jeden za vse Mihajlovo Mascevanje") ikicildlik roman yazıb. Sloveniyanın Nova Gorica şəhəri yaxınlığındakı Shempas kəndində (öldürüldüyü ərazidə) büstü, Maribor şəhərində abidəsi var.

Yeri gəlmişkən, filmdə Mixaylonun Anjelika arasında sevgi olub- olmamasını isə Mehdi Hüseynzadə qədər real insan insan ola o vaxt partizanlara məktub daşıyan Anjela Perşiç məlumat verir.

"Anjelika "sevgili" olduğunu təkzib etsə də, filmi izlərkən hərəkətləri, xüsusən hiss və həyəcanlarını boğa bilməməsi, filmin sonunda göz yaşlarını saxlaya bilməməsi bir azərbaycanlı olaraq məndə şübhələr yaradıb. Bilirsiniz ki, əsəri yazan İmran Qasımov və Həsən Seyidbəyli şahidləri dinləyib və əsəri yazıb. Azərbaycan-sovet hərbçisi, İkinci Dünya müharibəsinin iştirakçısı, müharibə veteranı Cavad Həkimli əfsanəvi partizan Mehdi Hüseynzadənin komandiri olub. Təbii ki, 2006-cı ildə vəfat etmiş Cavad Həkimlinin bu əsərin yazılmasında, filmin çəkilməsində bir şahid böyük rolu olub. Hətta Cavad bəy filmdə də rol alıb. Mən keçmişində bir sevgi hekayəsi olmasını istəməyən bir qadından çox Cavad Həkimliyə inanıram.

Beləliklə, 65 ildir, nəinki Azərbaycan tamaşaçısını, eləcə də istənilən ölkədən olan tamaşaçını ekrana kilidləyən, gənc nəslin təlim -tərbiyəsində böyük əhəmiyyət kəsb edən "Uzaq sahillərdə" filmi bir Azərbaycan Kino İncisi olaraq yaddaşlarda yaşayır. Bu incinin səbəbkarı cəmi 26 yaşında beynimizdə, qəlbimizdə taxt quran , tariximizdə, hərb sənətində öz adını qızıl hərflərlə yazdıran 105 yaşlı əfsanəvi həmyerlimizdir. Filmdə, bədi əsərdə əməyi keçən hər bir sənət fədaisinə isə dərin təşəkkürümüzü bildirir, Allah sizə rəhmət eləsin" deyirik!

***P.S. Bir azərbaycanlı olaraq , çox istərdim ki, yenə imran qasımovlar, həsən seyidbəlilər, tofiq tağızadələr, qara qarayevlər, niyazilər, nadir şaşıqolular yenidən doğulaydı. Ölmüş -itmiş, toz olmuş ədəbiyyatımızı, kino sənətimizi yenidən canlandıraydılar. Axı indi qəhrəmanlarımız o vaxtkından da çoxdur... Axı onlar Mehdi Hüseynzadə kimi qəhrəmanlarımızdan örnək götürüblər! Kaş son 35 ilimizi əhatə edən tariximizi, igidlərimizi bizə elə Mixaylo qədər sevdirən sənətkarlar yetişəydi...***

**Əntiqə Rəşid**

# "İndi hamı ancaq öz teatrını yaratmaq iddiasındadır"

## Teatrşünasdan MÖVQE



**"İndi hamı ancaq öz teatrını yaratmaq iddiasındadır: sənət üfüqlərində artıq heç kəs üçün pərəstiş ediləcək ikonalar, idollar, övliyalar yoxdur. Əgər bugün teatr dışlanırsa, deməli, daha köhnə formalar işləmir".**

Adalet.az xəbər verir ki, bu fikirləri teatrşünas Aydın Talıbzadə "Azərbaycan teatrı: Külək və su" məqaləsində qələmə alıb. O, teatr, rejissor və tamaşaçı tandemindən və bir çox problemlərdən söz açıb.

O qeyd edir ki, rejissorlar böyük teatrlardan qaçırlar, daha kiçik formaları tərcih edirlər, onlara inanan, etibar edən bir seyrçi auditoriyasına sahiblənməyə can atırlar. Amma bütün bunlarla yanaşı bir sıra tanınmış teatr rejissorları çox ciddi bir şəkildə Avropa teatr mədəniyyətini bürümüş qlobal böhrandan danışırlar və teatrı düşük, biədəb naturalizmdə ittiham edirlər. Müasir teatr müxtəlif olduğu kimi ona münasibət də hədsiz dərəcədə müxtəlifdir.

Odur ki, müasir Azərbaycan teatrı da, onun seyrçisi də Avropadan əsən küləklərin gətirdiyi təzahürləri birmənalı qarşılamır, bəzi hallarda hətta şok vəziyyətinə, panik vəziyyətə düşür, koqnitiv dissonans yaşayır: nəyin, hansı tendensiyanın arxasıyca gedəcəyini, özünü nədə və necə ifadə edəcəyini kəsdirə bilmir. Ona görə də bütün situasiyalarda özünə, millətinə, keçmişinə, mental, maddi-ruhsal ənənələrə sədaqəti qoruya-qoruya dəyişmək, yeniləşmək və eqodan, kiməsə xoş gəlməkdən, məşhurlaşmaqdan ötrü çalışmaqdan qurtulub yaradılma prosesi sənə daxilən xoşbəxtlik, azadlıq, zövq verə biləcək tamaşaların istehsalı ilə məşğul olmaq aktualdır.

Müasir şəraitdə Azərbaycanda teatrın daha 150 il köhnə və yeni problemlər içində yaşaya bilməsi üçün onu seyrçilərlə baş-başa buraxmaq vacibdir: qoy, özləri həll eləsinlər; onlar bir-birilərinə lazımdırlarmı?

**Emin**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

Tiraj: 1500
Sifariş: 161
Çapa imzalanmışdır: 28.12.2023